# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*H.Əliyev*

*1 aprel 2017-ci il №11(8727)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


# Peşə təhsili sistemi strateji hədəflərə doğru

## Əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması çeviklik və inteqrasiya prinsiplərini əsas götürür



"Növbəti illərdə peşə hazırlığı Azərbaycanda geniş vüsət almalıdır və buna böyük ehtiyac var. Peşə məktəblərinin yaradılması prosesi gedir, daha da sürətlə getməlidir". Martın 28-də Saatlıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən bu fikirlərin səsləndirildiyi pambıqçılığın inkişafı məsələlərinə dair Respublika müşavirəsində peşə təhsili, kadr hazırlığı məsələləri də xüsusi diqqətdə olub. Prezident ölkəmiz üçün böyük əhəmiyyət daşıyan bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində qarşıya proqram xarakterli vəzifələr qoyub, onların həlli üçün mühüm tapşırıqlar verib.

Ölkə başçısı diqqətə çatdırıb ki, növbəti illərdə peşə hazırlığı iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşmalıdır. Prezident bildirib ki, ölkəmizdə iqtisadi inkişaf planlaşdırılır, regional inkişaf proqramları qəbul olunur. "Biz öz beşillik fəaliyyət planımızı tərtib edirik və eyni zamanda sənaye, kənd təsərrüfatı və digər sahələrlə bağlı proqramlar bizə yol göstərir", - deyən dövlət başçısı peşə hazırlığının da buna uyğun şəkildə aparılmasını bir tələb kimi irəli sürüb.

Prezident İlham Əliyev hansı istiqamətlərdə peşə məktəbləri olmalıdır sualına da konkret cavab verib: "Kənd təsərrüfatı, sənaye, turizm sahələrində ixtisaslaşmış peşə məktəblərinin yaradılmasına böyük ehtiyac var, çünki bu sahələr bundan sonra da Azərbaycanda sürətlə inkişaf edəcək".

Eyni zamanda, müəyyən qıtlıq hiss olunan kənd təsərrüfatı mütəxəssisləri, aqronomlar, digər peşələr üzrə kadrların hazırlanmasının vacibliyini də xüsusi qeyd edib, gənclərin bu sahələrə cəlb olunmasını, stimullaşdırılmasını zəruri sayıb.

⇨Ardı səh.3

## Direktor vəzifəsinə işə qəbul yeni qaydalarla aparılacaq

Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə yeni qaydalar təsdiq edilib.

Qaydalara əsasən, ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin mərkəzləşdirilmiş qaydada 3 mərhələdə (elektron ərizənin qəbulu, imtahan, müsahibə) cari ilin aprel-avqust ayları ərzində keçirilməsi nəzərdə tutulub.

Müsabiqədə pedaqoji və ya idarəetmə sahəsi üzrə ali təhsilli, azı 5 il pedaqoji staja malik olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji sahədə çalışan şəxslər iştirak edə bilərlər. Elektron ərizələrin qəbulu 1-15 aprel 2017-ci il tarixlərində həyata keçiriləcəkdir. Bu mərhələdə namizədlər hazırda işlədiyi müəssisənin yerləşdiyi və ya yaşadığı rayon (şəhər) üzrə 4 vakant məktəb seçə bilərlər. Qeydiyyatdan keçmək istəyən şəxslər www.miq.edu.az/direktorlar səhifəsinə daxil olmalıdırlar.

İmtahan mərhələsində namizədlərdən əmək və təhsil qanunvericiliyi, məktəb idarəçiliyi sahəsində test tapşırıqlarını cavablandırmaqla yanaşı, təqdim olunan konkret mövzu üzrə elektron qaydada esse yazmaq tələb olunur.

## X sinif dərslikləri ictimai müzakirədə

2017-2018-ci tədris ilinə ölkənin ümumi təhsil məktəblərinin X siniflərinin istifadəsi üçün nəzərdə tutulan, ilk dəfə olaraq yeni təhsil proqramları (kurikulumları) əsasında tərtib edilmiş dərsliklərə və həmin dərsliklər üzrə müəllimlərin işləməsi üçün hazırlanmış metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsi prosesinə başlanılıb.

Bu məqsədlə həmin dərslik və metodik vəsaitlərin layihələri www.trims.edu.az saytının "İctimai müzakirə" bölməsində yerləşdirilir və yaxın müddətdə bütün layihələrin saytda yerləşdirilməsi başa çatacaq.

Sayta daxil olaraq "İctimai müzakirə" bölməsində yerləşdirilmiş istənilən dərslik və metodik vəsaitin PDF variantı ilə tanış olmaq, eyni zamanda xüsusi ayrılmış sahədə irad və təklifləri yazmaq mümkündür. İrad və təkliflər **derslik@edu.gov.az** elektron poçtuna göndərilməklə də bildirilə bilər.

Təhsil Nazirliyi geniş ictimaiyyəti - sahə mütəxəssislərini, müəllimləri, valideynləri, bir sözlə, bütün vətəndaşları dərslik layihələrinin təkmilləşdirilməsində, rəy, təklif və iradların göndərilməsində fəal olmağa dəvət edir.

## RƏSMİ XRONİKA

- Martın 31-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüş keçirib. Dövlət başçısı görüşdə çıxış edib.
- Prezident İlham Əliyev martın 30-da Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Martın 29-da ölkə başçısı İlham Əliyev BP şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri Qordon Birreli və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzu qəbul edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonunda səfərdə olub. Səfər zamanı ölkə başçısı İlham Əliyev bir sıra obyektlərin, Heydər Əliyev Fondu tərəfindən Saatlıda inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışlarında iştirak edib, rayonun Qıraqlı kəndi ərazisində fermer Humay Məmmədovanın pambıq sahəsi ilə tanış olub. Həmin gün Saatlıda Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Dövlət başçısı müşavirədə giriş və yekun nitqi söyləyib.
- Martın 27-də dövlət başçısı İlham Əliyev Ceyhun Vaqif oğlu Şadlinskiyə general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 27-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarına ali hərbi rütbələrin verilməsi, bir qrup əməkdaşının orden və medallarla təltif edilməsi haqqında müvafiq sərəncamlar imzalayıb.

## Təmayülləşmənin tətbiqi genişləndirilir

Tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqində əsas məqsəd ümumi orta təhsil səviyyəsində təhsil nailiyyəti ilə fərqlənən, bu və ya digər fənn qrupu üzrə təhsillənməyə xüsusi meyil və maraq göstərən, ali məktəbdə təhsillərini davam etdirmək potensialına malik şagirdlərin müəyyən edilməsi və onlara səmərəli təhsil şəraitinin yaradılmasından ibarətdir.

Hazırda respublikanın 5 şəhər və 36 rayonunu əhatə edən 182 məktəbdə təmayül sinifləri fəaliyyət göstərir. Hər bir təmayül istiqaməti üzrə ayrıca tədris plan və proqramları hazırlanıb təsdiq edilib. Təmayül istiqamətləri üzrə tədris planlarında həftəlik 30 dərs saatı müəyyən olunub.

2017-2018-ci dərs ilində ümumtəhsil məktəblərində təmayülləşmənin tətbiqi əvvəlki illərlə müqayisədə genişləndiriləcək, təmayül siniflərində şagirdlərin sayı minimum 20 nəfər olmaqla komplektləşdiriləcəkdir.

Təmayülləşmənin tətbiqi ilə bağlı rayon və şəhərlər üzrə hər bir məktəbin imkanları, yol infrastrukturu, maddi-tədris bazası və kadr potensialı nəzərdən keçirilib şagirdlərin meyil və maraqlarına əsasən təmayül sinifləri təşkil olunacaq. Həmçinin könüllülük əsasında ümumtəhsil məktəblərinin adi siniflərində, yaxud ilk peşə və orta ixtisas təhsili müəssisələrində təhsilini davam etdirmək istəyən şagirdlər haqqında məlumatlar toplanaraq valideynlər arasında müvafiq izahat işləri aparılır.

Şagird sayı təmayül və yaxud adi siniflərin yaradılması üçün yetərli olan bütün məktəblərdə həmin siniflər təşkil ediləcək. Hər hansı bir məktəbdə şagirdlərin sayı və seçimi təmayül sinfi təşkil etməyə imkan vermədiyi halda, bu və ya digər təmayül istiqamətini seçmiş şagirdlər yaxın ərazidəki həmin təmayül sinfi təşkil edilmiş məktəbdə təhsilini davam etdirə biləcəkdir. Təmayül istiqamətini seçməmiş şagirdlər üçün isə məktəblərdə mövcud uşaq sayı ilə adi siniflər açılacaqdır.

İlk peşə və orta ixtisas təhsili müəssisələrinə sənəd verən, lakin qəbul ola bilməyən IX sinif məzunları arzu etdikləri halda, təlim göstəricilərinə əsasən, müvafiq təmayül və ya adi siniflərə qəbul olunacaqlar.

Təmayül siniflərində və adi siniflərdə müəllimlər tədris planlarında nəzərdə tutulan saatlar üzrə öz ixtisaslarına uyğun dərs yükü ilə təmin ediləcəklər.

## UNEC-in gənc müəllimlərinin elmi məqaləsi "Thomson Reuters" bazasına daxil edilib

UNEC-in gənc müəllimləri Əhliman Abbasovla Təhmasib Əlizadənin elmi məqaləsi nüfuzlu dünya alimlərinin elmi nəşrlərinin cəmləşdiyi "Thomson Reuters" bazasına daxil edilib.

UNEC-in beynəlxalq iqtisadiyyat kafedrasının müəllimləri Ə.Abbasov və T.Əlizadə "Small and Medium-Sized Enterprises as an influential factor towards the Economic Growth of countries with transition economies" ("Kiçik və Orta Müəssisələr keçid iqtisadiyyatlı ölkələrin iqtisadi artımında təsiredici faktor kimi") elmi məqaləsini Serbiyanın Belqrad şəhərində John Naisbitt Universitetində təşkil edilən "XIII İqtisadi və Sosial İnkişaf" konfransında təqdim etmişdilər.

"Thomson Reuters" ali təhsil müəssisələrinin qlobal elmi bazası - "Web of Science" platformasıdır. "Web of Science"də elmin bütün sahələri üzrə araşdırma aparan nüfuzlu alimlərin əldə etdiyi nəticələr, onların çıxardığı qərarlar toplanılır.

## IV İslam Həmrəyliyi Oyunlarının məktəblilər arasında təbliğinə start verilir




Martın 30-dan IV İslam Həmrəyliyi Oyunlarının məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirlərinə start verilib.

Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmrinə əsasən keçirilən yarışların təşkil edilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarının Proqramına daxil olan idman növlərini məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdən ibarətdir.

Yarışlar 11 idman növü - sərbəst güləş, yunan-Roma güləşi, cüdo, taekvando, karate, boks, atletika, stolüstü tennis, basketbol, akrobatika gimnastikası, bədii gimnastika üzrə iki mərhələ olmaqla 6 zonada keçiriləcək. Kütləvi idman tədbirlərinə 6 mindən çox şagirdin qatılması gözlənilir.

İdman növləri üzrə şəxsi yarışlarda və komanda hesabında I, II, III yerləri tutanlar diplom və medallarla, hədiyyələrlə təltif olunacaqlar.

Yarışlar aprelin 26-da başa çatacaqdır.

# Tədris prosesini necə keyfiyyətli təşkil etməli?

## Təlimə Dəstək Mərkəzi məktəblərdə müasir yanaşmaları tətbiq edir




Son illər təhsil sahəsində istər forma, istərsə də məzmun baxımından aparılan dəyişikliklərin, tətbiq olunan yeniliklərin hər birimiz şahidiyik. Özünün bir sıra uğurlu nəticələri ilə ictimaiyyət tərəfindən rəğbətlə, eyni zamanda maraqla qarşılanan təhsillə bağlı hər bir dəyişiklik təbii ki, bu sahədə keyfiyyətin yüksəldilməsinə xidmət edir. Ötən ilin oktyabrında Təhsil Nazirliyinin müvafiq əmri ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində yaradılan Təlimə Dəstək Mərkəzi də növbəti belə uğurlu addımlardan hesab oluna bilər. Qeyd edək ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin məzmununun, infrastruktur və idarəetmə sisteminin yenidən qurulması, onun cəmiyyətin ehtiyac və tələbatlarına uyğunlaşdırılması prioritet istiqamət hesab edilir. Bu gün fənn kurikulumlarının tətbiqi ilə bağlı həyata keçirilən islahatlar nəticəsində müəllim hazırlığına qoyulan tələblər dəyişib. Təlim-tərbiyə prosesinin müasir dövrün tələblərinə uyğun təşkili və idarə olunması, qabaqcıl pedaqoji təcrübənin, eyni zamanda dünya ölkələrinin bu məsələlərlə bağlı təcrübəsinin öyrənilməsi və tətbiqi, gənc müəllimlərlə işin təşkili və digər istiqamətlər üzrə metodist dəstəyin göstərilməsi zərurəti yaranıb. Sadalananları fəaliyyətində diqqətdə saxlayan Təlimə Dəstək Mərkəzi həmçinin öz işini “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda bununla bağlı öz əksini tapan müddəalara uyğun qurmağa çalışır. Mərkəz fəaliyyətini 5 bölmə üzrə qurub. **Təlimin təşkili adlanan** 1-ci bölmədə məktəb psixoloqları, kitabxanaçıları, təlim və tərbiyə işləri üzrə direktor müavinləri, ümumilikdə idarəetmə heyətinə, məktəbi idarə edən komandanın hər birinə göstəriləcək dəstək, istiqamətləndirmə, təhsildə baş verən yeniliklərin ümumtəhsil müəssisələrinə gətirilməsi, qarşıya çıxan çətinliklərin Təlimə Dəstək Mərkəzinin peşəkar, bacarıqlı müəllim və mütəxəssislərdən ibarət formalaşmış komandası ilə birlikdə həlli yollarının araşdırılması nəzərdə tutulur. Bu bölmədə, həmçinin, təlim mühitinin yaxşılaşdırılması məqsədilə valideyn-məktəb əlaqələrinin möhkəmləndirilməsi kimi aktual məsələ də diqqətdə saxlanılacaq.

Müəllimlərə birbaşa yönəlik olan **Tədrisin təşkili** adlı növbəti bölmə sinfin idarəolunması, xüsusilə planlaşdırma, qiymətləndirmə və resurslarla, eləcə də digər məsələlərlə bağlı işlərini qurmaqda müəllimlərə dəstək verilməsini nəzərdə tutur. **Fənn kurikulumlarının tətbiqinə nəzarət** adlanan 3-cü bölmə proqramın tələblərindən irəli gələn məsələlərin, onun tətbiq olunmasında qarşıya çıxan müəyyən çətinliklərin aradan qaldırılması ilə bağlı müəllimlərlə əsaslı işlərin aparılmasını özündə ehtiva edir. **Təhsilalanlarla işin təşkili** bölməsində istedadlı uşaqların aşkara çıxarılması, inklüziv təhsillə əlaqədar bir sıra məqsədyönlü işlərin görülməsi planlaşdırılır.

Təlimə Dəstək Mərkəzində fəaliyyət göstərən sonuncu – **Resurslar** bölməsində isə qarşılıqlı əlaqəli olaraq bütün bölmələrdə baş verən yenilikləri elektron öyrənən təhsil icması adlı elektron platformada cəmiyyətə çatdırmaq və müəllimlərin elektron imkanlardan istifadəsinin təmin edilməsi nəzərdə tutulur.

Təlimə Dəstək Mərkəzinin əməkdaşları təhsildə müasir yanaşmaların ümumtəhsil məktəblərində tətbiqini diqqətlə araşdırmaqla yanaşı onu ətraflı təhlil edir, bu günün məktəbinə, müəlliminə lazım olan metodik tövsiyələrin hazırlanması, verilən bilikləri müxtəlif səviyyədə qavrayan şagirdlərlə hansı işlərin aparılması, onların bilik səviyyəsinə uyğun mövzuların araşdırılması, həmçinin resursların müəyyənləşdirilməsi məsələləri üzərində çalışır. Mərkəz Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrinə müasir təhsil proqramlarının tələblərinə əsaslanan metodist dəstəyi verməklə bərabər məktəblərdə keyfiyyətin təmin edilməsinə nail olmaq üçün müvafiq istiqamətlər üzrə metodik kömək göstərəcəkdir.

Valideynlərin öz övladlarının tədris prosesində iştirakı, şagirdlərin motivasiyasının qaldırılması təhsilin keyfiyyətinə təsir göstərən digər amillər də mərkəzin diqqətdə saxladığı məsələlərdəndir. Fəaliyyətində məktəblərlə işə xüsusi önəm verən Təlimə Dəstək Mərkəzi təhsil müəssisələrində metodiki xidmətin səmərəli təşkili üçün təlim və tərbiyə işləri üzrə direktor müavinləri ilə birlikdə öz işini qurur.

Təbii ki, bu gün ümumtəhsil müəssisələrində metodiki işin düzgün qurulması üçün ilk növbədə metodbirləşmələrin fəaliyyəti yenilənməli, müəllimlərin mütəmadi olaraq dərsləri dinlənilməli, əldə olunan müsbət təcrübə paylaşılmalıdır. Təlimə Dəstək Mərkəzi məhz bununla bağlı da bir sıra tədbirlər reallaşdırmağı nəzərdə tutur.

Əsas məqsədi ümumi təhsil müəssisələrində pedaqoji prosesin sistemli idarə olunmasının dəstəklənməsi, yeni yanaşmaların məktəblərdə çevik tətbiqinin təmini, məktəbdaxili və məktəblərarası öyrədici mühitin zənginləşdirilməsi, təlimin keyfiyyətinin artırılması və fənn metodbirləşmələrinin fəaliyyətinin düzgün istiqamətləndirilməsi olan yeni qurum bu gün tədris prosesinin keyfiyyətli təşkili üçün müxtəlif tədqiqatlar, araşdırmalar apararmaqda, müəyyən işlər həyata keçirməkdədir.

**Samirə KƏRİMOVA,**
*“Azərbaycan müəllimi”*

## “Ümumi təhsilin Dövlət Standartları”nın layihəsi hazırlanıb

**Aydın Əhmədov:** *“Çalışırıq ki, standartlar şagirdlərin ümumi potensialına uyğun olsun”*



“Ümumi təhsilin Dövlət Standartları”nın layihəsi hazırlanıb. Çalışırıq ki, standartlar şagirdlərin ümumi potensialına uyğun olsun”. Bu sözləri jurnalistlərə açıqlamasında Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Aydın Əhmədov bildirib. Şöbə müdiri qeyd edib ki, 2006 və 2010-cu illərdə Nazirlər Kabineti mühüm qərar qəbul edərək “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədini təsdiq edib. 2010-cu ildə qəbul edilən sənəd əvvəlki sənədlə müqayisədə xeyli təkmilləşdirilib və onun formatı 2009-cu ildə qəbul edilən “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğunlaşdırılıb. 2013-cü ildə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da mövcud təhsil stardartlarının, fənn kurikulumlarının daha da təkmilləşdirilməsi, səriştəyə yönəlik kurikulumların yaradılması çox vacib hədəf kimi qarşıya qoyulub. Bu tələbə uyğun olaraq artıq “Ümumi təhsilin Dövlət Standartları”nın layihəsi hazırlanıb və yaxın vaxtlarda təsdiqə təqdim olunacaq.

Aydın Əhmədov qeyd edib ki, sənəd hazırlanarkən təkliflər verilib və təhlillər aparılıb, təhsil mütəxəssisləri, məktəb direktorları, müəllimlərin rəyləri öyrənilib: “Məqsədimiz ondan ibarətdir ki, standartlar şagirdlər üçün əlçatan, onların ümumi potensialına uyğun olsun. Onu da qeyd edim ki, həmin standartlar əsasında hazırlanacaq fənn kurikulumlarının da yeni formatı müəyyən olunur. Yeni formata əsasən, fənn kurikulumlarında nəzərdə tutulan məzmun standartlarının mahiyyəti və əhəmiyyəti də açıqlanacaq. Bundan başqa, müəllim, valideyn və dərslik müəllifləri üçün tövsiyələr nəzərdə tutulacaq”.

**Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*

## ADNSU-da görkəmli alim Əziz Əliyevin 120 illik yubileyi qeyd olunub

Martın 28-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin anadan olmasının 120 illiyi ilə bağlı tədbir keçirilib. Tədbir Əziz Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. ADNSU-nun rektoru, professor Mustafa Babanlı Əziz Əliyevin müxtəlif məsul vəzifələrdə çalışdığı müddətdə dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərdiyini, respublikada səhiyyə sisteminin və tibbi təhsilin formalaşmasına töhfələr verdiyini bildirib. Əziz Əliyevin olduqca mürəkkəb tarixi bir dövrdə yüksək təhsil almağı bacardığını deyən rektor M.Babanlı onun fəaliyyətinin gənc nəsil üçün bir örnək olduğunu vurğulayıb.

İctimai fənlər kafedrasının müdiri, professor Camal Mustafayev Əziz Əliyevin səhiyyə sisteminin formalaşdırılmasına verdiyi töhfələrdən, İkinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda apardığı işlərin mühüm əhəmiyyətindən söz açıb. Ə.Əliyevin 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi vəzifəsində çalışdığını deyən C.Mustafayev 1942-1948-ci illərdə isə onun Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işlədiyini və özünü bacarıqlı dövlət xadimi kimi göstərə bildiyini qeyd edib.

Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışdığı illərdə Əziz Əliyevin Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsində böyük rol oynadığını deyən neft-qaz mühəndisliyi kafedrasının müdiri, professor Tulparxan Salavatov onun Dağıstan xalqlarının repressiyadan xilas olmasında göstərdiyi xidmətləri qeyd edib.

Sonda professor-müəllim heyəti və tələbələri maraqlandıran suallar cavablandırılıb.

## “Ədəbiyyat biliciləri” müsabiqəsinin ölkə mərhələsi keçirilib

Martın 25-də Bakıdakı akademik Zərifə Əliyeva adına liseydə “Ədəbiyyat biliciləri” müsabiqəsinin ölkə mərhələsi keçirilib.

Bu mərhələdə bütün bölgələrdən 8-11-ci sinif şagirdləri olmaqla 114 nəfər iştirak edib. İştirakçılar 4 variantda təklif olunmuş mövzulardan birini seçərək inşa yazıb və 10 suallı yazılı cavablandırıblar.

Şagirdlərin yazı işləri Təhsil Nazirliyinin əmri ilə yaradılan münsiflər heyəti tərəfindən yoxlanılaraq qiymətləndiriləcək.

Qeyd edək ki, ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə “Ədəbiyyat biliciləri” müsabiqəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-ci il 7 noyabr tarixli əmrinə müvafiq olaraq keçirilir. Bu müsabiqə həmçinin Təhsil Nazirliyinin “Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə” 2014-cü il 16 dekabr tarixli əmrində nəzərdə tutulan vəzifələrin icrasına xidmət edir.

“Ədəbiyyat biliciləri” müsabiqəsi 3 mərhələdə təşkil olunub. Müsabiqənin məktəb mərhələsində bölgələr üzrə 30 minə yaxın şagird iştirak edib, onların arasından fərqlənən 4665 nəfər şagird rayon (şəhər) mərhələsində iştirak etmək hüququ qazanıb. Müsabiqənin rayon (şəhər) mərhələsi fevral ayında yekunlaşdırılıb və bölgələrdən qalib hesab edilən 114 nəfər şagirdin siyahısı ölkə mərhələsində iştirak üçün Nazirliyə təqdim olunub. Onlardan 9 nəfəri VIII, 30 nəfəri IX, 35 nəfəri X, 40 nəfəri XI sinif şagirdidir.

Müsabiqənin keçirilməsində məqsəd şagirdlərin Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında məlumatlılıq səviyyəsini, ədəbiyyat nümunələrinin məktəblilər tərəfindən mütaliə olunması vəziyyətini öyrənmək və mütaliə sahəsində xüsusi fəallığı ilə fərqlənən şagirdləri aşkara çıxarıb qiymətləndirməkdir.

## Səfir AzMİU-da təhsil alan türkiyəli tələbələrlə görüşüb

Martın 31-də Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovanın qonağı olub. Görüşdə Azərbaycanla Türkiyə arasında təhsil sahəsində mövcud münasibətlərin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Səfir Erkan Özoral memarlıq ali təhsili istiqamətində AzMİU-ya böyük etimad göstərdiklərini, ölkəsindən bu universitetdə təhsil alanların başqa ali təhsil müəssisələri ilə müqayisədə çoxluq təşkil etdiyini vurğulayıb. Eyni zamanda o, Türkiyə universitetləri ilə AzMİU arasında işgüzar əlaqələrin, əməkdaşlığın qurulmasında maraqlı olduqlarını vurğulayıb. Erkan Özoral bunun üçün səfirlik tərəfindən lazımi dəstəyin göstəriləcəyini xüsusi qeyd edib.

Rektor AzMİU-nun bir çox əcnəbi təhsil müəssisələri ilə əlaqələrinin olduğunu, amma onlar arasında Türkiyə universitetlərinin xüsusi yer tutduğunu deyib. O, Mövlanə mübadilə proqramı çərçivəsində İstanbul Texnik Universiteti, Orta Doğu Texnik Universiteti və digərləri ilə ikitərəfli əlaqələrin mövcud olduğunu səfirin diqqətinə çatdırıb. İTU ilə ikili diplom proqramları istiqamətində danışıqlar getdiyini deyən rektor bu müzakirələrin müsbət nəticələnəcəyinə ümidvar olduğunu bildirib.

AzMİU-nun əcnəbi vətəndaşların hazırlığı fakültəsinin dekanı Gülnarə Əsgərəlizadə hazırda universitetdə Türkiyədən 303 tələbənin təhsil aldığını, 40-a yaxın tələbənin isə universitetin hazırlıq kurslarına cəlb olunduğunu deyib.

Görüşdə Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Abdülqafur Büyükfırat, AzMİU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nərgiz Abdullayeva, tədris işləri üzrə prorektor Akif Qasımov, əcnəbi tələbələrin təhsili üzrə dekan Polad Sadıkov da iştirak ediblər.

Sonra səfir Erkan Özoral AzMİU-da təhsil alan türkiyəli tələbələrlə görüşüb. Gənclər universitetdə onların təhsili və yaşayışı üçün yaradılan şərait, mövcud tədris sistemi haqqında səfirə məlumat veriblər. Universitetdə təhsil alan türkiyəli tələbələrə göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə təşəkkür edən səfir tələbələrə yaxşı oxumağı, layiqli kadr kimi yetişməyi, Vətəni sevməyi, Türkiyənin və Azərbaycanın milli maraqlarını üstün tutmağı tövsiyə edib. Görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb, onların təklif və istəkləri dinlənilib.

Görüşdən sonra səfir universiteti gəzib, əsas korpusun birinci mərtəbəsində yerləşən Şəhidlər guşəsi və muzeylə tanış olub.

# Peşə təhsili sistemi strateji hədəflərə doğru

> "Növbəti illərdə peşə hazırlığı Azərbaycanda geniş vüsət almalıdır və buna böyük ehtiyac var. Peşə məktəblərinin yaradılması prosesi gedir, daha da sürətlə getməlidir".
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

⇦ Əvvəli səh.1

### Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması

Qeyd edək ki, son illər peşə təhsilində davamlı şəkildə zəruri, islahatyönümlü addımlar atılmaqdadır ki, onlardan da ən mühümü məhz ölkə Prezidentinin 20 aprel 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılmasıdır. Yeni qurumun yaradılmasında məqsəd ilk peşə-ixtisas təhsili sahəsində peşə hazırlığının səmərəliliyini artırmaq və rəqabət qabiliyyətli ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

### "Müasir Azərbaycan Peşəkarları"

Bilavasitə Təhsil Nazirliyi rəhbərliyinin təşəbbüsü ilə başlanan "Müasir Azərbaycan Peşəkarları" layihəsi artıq dördüncü ildir ki, uğurla həyata keçirilməkdədir. Peşə təhsili sisteminin əhatə dairəsinin genişləndirilməsi, kadr hazırlığı prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədini güdən və biznes qurumları ilə əməkdaşlığı nəzərdə tutan bu layihə çərçivəsində xeyli iş görülüb. Belə ki, KNAUF şirkətinin dəstəyi ilə 14 nömrəli Bakı Peşə Liseyində "Quru inşaat ustası", 18 nömrəli Bakı Peşə Liseyində BOSCH şirkətinin dəstəyi ilə "Dülgər, xarrat-parket ustası" və "Eldar studio" şirkətinin dəstəyi ilə "Bərbər" ixtisası üzrə siniflər açılıb.

### Rasionallaşdırma

İlk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması istiqamətində atılmış addımlar da mühüm islahat tədbiri kimi diqqəti cəlb edir. Elə təkcə ötən il ölkə hökumətinin müvafiq qərarı ilə Bakı şəhərində 26 təhsil müəssisəsinin bazasında 11, Gəncə şəhərində 6 təhsil müəssisəsinin bazasında 2 Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Ümumilikdə isə cəmi 32 ilk peşə-ixtisas təhsili müəssisəsinin bazasında müxtəlif istiqamətlər üzrə ixtisaslaşmış 13 Dövlət Peşə Təhsil Mərkəzi təşkil olunub:

* *Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Turizm və Sosial xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Tikinti və Quraşdırma işləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*



* *Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi;*
* *Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi.*

Məlum olduğu kimi, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanına uyğun olaraq peşə təhsili və təliminin inkişafı ölkənin 11 əsas prioritet istiqamətindən biri kimi müəyyən edilib. Buna müvafiq olaraq "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanaraq təsdiq olunub.

### "ASAN Peşə"

Əmək bazarının tələbatını daha dolğun təmin etmək məqsədilə təhsil nazirinin müvafiq əmri ilə 15 yeni ixtisas "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"na əlavə edilib və təsnifatda mövcud olan, lakin hazırlanmasına yeni başlanmış 10 ixtisasın adı da daxil olmaqla 154 ixtisas üzrə şagird qəbulu planı müəyyənləşdirilib.

2016/2017-ci tədris ili üçün şagird qəbulu planı ötənilkinə nisbətən ödənişli əsaslarla təhsil alacaq şagirdlər hesabına artırılıb. Qeyri-neft sektorunun inkişafının prioritetliyi nəzərə alınaraq büdcə hesabına daha çox əlavə dəyər yaradan (əsasən sənaye, kənd təsərrüfatı və turizm yönümlü) ixtisaslar üzrə şagird qəbulu planı müəyyənləşdirilib.

Şagirdlərin qəbulu prosesində şəffaflığın, vətəndaşların rahatlığının təmin edilməsi, subyektiv amillərin aradan qaldırılması məqsədilə carı tədris ilində ilk dəfə olaraq Bakı və Gəncə şəhərlərində ilk peşə-ixtisas təhsili müəssisələrinə şagird qəbulu "ASAN Peşə" Layihəsi çərçivəsində həyata keçirilib və 4 mindən çox şagird bu müəssisələrə qəbul olunub.

### Yerli və beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı

İlk peşə-ixtisas təhsilinin ictimai statusunun yüksəldilməsi, inkişafı və təhsilin məzmununun təkmilləşdirilməsi ilə bağlı Təhsil Nazirliyi Norveçin Rogaland Təlim və Təhsil Mərkəzi (RTTM) ilə birlikdə "Azərbaycanda peşə təhsili və təliminin inkişafı və gücləndirilməsi" layihəsi çərçivəsində 16 nömrəli Bakı Peşə Liseyində "Qaynaqçı", İsmayıllı Peşə Tədris Mərkəzində "Bağban" və Neftçala Peşə Məktəbində "Balıqçı" ixtisasları üzrə yeni kurikulumların hazırlanması nəzərdə tutulub. Layihə çərçivəsində mühəndis pedaqoji heyət üçün İKT və sahibkarlıq üzrə seminarlar keçirilib.

Koreya dövlətinin dəstəyi ilə Koreya İqtisadi İnkişaf və Əməkdaşlıq Fondu ilə birgə həyata keçirilən "Peşə Tədris Mərkəzinin yaradılması" layihəsinin reallaşması istiqamətdə işlər davam etdirilməkdədir. Həmin layihəyə uyğun olaraq yaradılacaq müasir peşə təhsil mərkəzi əsasən sənaye və innovasiyalar üzrə ixtisaslı kadr hazırlığı istiqamətində ixtisaslaşacaq.

Yerli və beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığının təşkili, məzunlara veriləcək təhsil sənədinin beynəlxalq təşkilatlar tərəfindən tanınması istiqamətində 9 nömrəli Bakı Peşə Liseyinin bazasında Ukraynanın İT STEP Academy şirkəti ilə birgə həyata keçirilən layihə çərçivəsində 3 ixtisas istiqamətində - "Şəbəkə texnologiyaları və sistem inzibatçılığı", "Kompüter qrafikası və dizayn", "Proqram təminatının yaradılması" üzrə kadr hazırlığına başlanılıb. Bu layihə "Maksimum təcrübə, minimum nəzəriyyə" prinsipi əsasında təşkil olunub və ən aktual, yüksək məvacibli peşələrə yiyələnmək istəyənlər üçün geniş imkanlar açır. Akademiya 9 nömrəli Bakı Peşə Liseyinin əsaslı təmir olunmuş tədris korpusunun bazasında fəaliyyət göstərəcək.

BMT İnkişaf Proqramı (UNDP) ilə birgə əməkdaşlıqda "Heyvandarlıq mütəxəssisi" ixtisası üzrə yeni dərs vəsaitləri hazırlanıb.

Dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə modelinin yaradılması istiqamətində Təhsil Nazirliyi, British Council və Bakıda turizm-xidmət sektorunda fəaliyyət göstərən 5 ulduzlu otellərlə birlikdə turizmə dair təlimlər və mehmanxanalarda təcrübə proqramı pilot layihələr həyata keçirilib. Layihənin dayanıqlığını təmin etmək məqsədilə Təhsil Nazirliyi, ilk peşə-ixtisas təhsili müəssisəsi və mehmanxanaların nümayəndələrindən ibarət idarəedici komitə yaradılıb və onlar yeni kurikulumların hazırlanması, təhsilalanların müsabiqədən keçirilməsinə cəlb olunublar. Dövlət-biznes əməkdaşlığını özündə əks etdirən bu pilot layihənin davamı kimi 2016/2017-ci tədris ilindən təhsil müddəti bir il olan qruplarda oteldə "konsiyerj", "aşpaz", "mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi" ixtisasları üzrə kadr hazırlığı aparılır.

Kadr hazırlığı işinin təkmilləşdirilməsi istiqamətində Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı Proqramı" çərçivəsində "Peşə təhsilinin və məşğulluğunun təşviqi komponenti" üzrə ilk peşə-ixtisas təhsili və təlimi sahəsində çalışan mütəxəssislər üçün Bakı şəhəri, Göyçay, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında idarəetmə və pedaqogika üzrə təlimlər keçirilib. Proqram çərçivəsində "Təhsil menecerlərinin təlimləndirilməsi" komponenti üzrə 2016-cı ilin aprel ayından etibarən müsabiqə əsasında 5 nəfər seçilərək peşə təhsilinin menecmenti ixtisası üzrə magistratura səviyyəsində təhsil almaq üçün Almaniyanın Maqdeburq Universitetinə göndərilib.

"Turin prosesi - 2017" çərçivəsində ilk peşə-ixtisas təhsili sahəsində əlaqəli dövlət qurumları və Avropa Təlim Fondu ilə birgə siyasət konsultasiyaları aparılaraq ölkədə peşə təhsili sahəsində islahatların mövcud vəziyyəti qiymətləndirilib və digər ölkələrin təcrübələri öyrənilməklə növbəti 2 il üçün prioritetlər müəyyənləşdirilib.

### Növbəti illərin prioritetləri

Ölkəmizdə qeyri-neft sektorunun, xüsusən də kənd təsərrüfatının sürətli inkişafı ilə əlaqədar prioritet əhəmiyyət kəsb etmiş peşə hazırlığının daha da genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan işlərin yaxın perspektivdə də davam etdirilməsi nəzərdə tutulur.

Qəbələ Peşə Məktəbinin bazasında beynəlxalq ekspertlərin iştirakı ilə kənd təsərrüfatı ixtisasları üzrə ixtisaslaşmış Müasir Təhsil Mərkəzinin yaradılması istiqamətində yeni tədris korpusu, emalatxana və təlim kabinetlərinin tikintisi işləri də artıq başa çatmaq üzrədir. Layihə çərçivəsində mühəndis - pedaqoji heyətin yeni kurikulumların tətbiqinə dair təlimlərə cəlb edilməsi, müvafiq dərs vəsaitlərinin hazırlanması və əmək bazarının tələblərinə cavab verən yeni ixtisaslar üzrə kadr hazırlığının həyata keçirilməsi planlaşdırılır. Eyni zamanda, BP şirkətinin maliyyələşdirdiyi "Kənd Təsərrüfatında Yeni Peşə İxtisaslarının Hazırlanması" layihəsi çərçivəsində "British Council" təşkilatı tərəfindən "Bitkiçilik mütəxəssisi" və "Aqroservis mütəxəssisi" ixtisası üzrə dərs vəsaitlərinin hazırlanması nəzərdə tutulub.

Beləliklə, Azərbaycanda peşə təhsili sisteminin yeni imici formalaşdırılır. İndi qarşıda duran əsas hədəf peşə təhsilinin iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun səviyyəyə çatdırılmasıdır.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*

## Məzunların məşğulluğu üçün işəgötürənlərlə birbaşa əməkdaşlıq qurulur

*Peşə təhsili müəssisələrində tələblərə cavab verməyən ixtisaslara yenidən baxılacaq*

"Qarşımızda duran əsas məsələlərdən biri məzunların işlə təminatıdır. Bu məqsədlə işəgötürənlərlə birbaşa sıx əməkdaşlıq, işəgötürənin tələblərinə uyğun kadr hazırlanması vacibdir". Bu barədə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin şöbə müdiri Amil Əlili bildirib. O qeyd edib ki, peşə təhsili ölkəmizdə iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun inkişafında səriştəli işçi qüvvəsi ilə təminat baxımından çox aktual bir sahədir. Bu baxımdan "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də nəzərdə tutulduğu kimi, müasir dövrün tələblərini nəzərə alaraq yeni ixtisasların hazırlanmasına başlanılıb. Bu ixtisaslar əsasən aqrar, tikinti, sənaye və turizm sahələrini əhatə edir: "Bundan başqa, mövcud peşə təhsili müəssisələrində bazarın tələblərinə cavab verməyən bəzi ixtisaslar da var ki, onlara yenidən baxılması da nəzərdə tutulur. Növbəti tədris ilindən başlayaraq maddi-texniki bazası yüksək olan peşə təhsili müəssisələrində yeni pilot layihələrin həyata keçirilməsi planlaşdırılır".

Amil Əlili vurğulayıb ki, bu gün orta məktəbi bitirənlərin cəmi 5%-i peşə təhsilinə cəlb olunub. Bu rəqəmin 25%-ə qədər qaldırılması istiqamətində işlər aparılır.

İlk peşə-ixtisas təhsili müəssisələrinin maliyyələşdirilməsi mexanizminə gəlincə, Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, gələcəkdə bu müəssisələr artıq öz maliyyəsi hesabına fəaliyyət göstərəcək.

**Niyazi RƏHİMOV,** *"Azərbaycan müəllimi"*

## Türkiyənin Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin nümayəndə heyəti BDU-da olub

Bakı Dövlət Universitetində Türkiyənin Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin nümayəndə heyəti ilə növbəti görüş keçirilib. Liseyin müəllim və şagird kollektivini universitetdə görməkdən məmnunluğunu ifadə edən rektor, akademik Abel Məhərrəmov son illər respublikamızda təhsil sahəsində qazanılan uğurlardan, bu istiqamətdə qardaş Türkiyə ilə ölkəmiz arasında mühüm əlaqələrin yaranmasından bəhs edib. Rektor Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyi ilə Heydər Əliyev adına Anadolu texniki-peşə liseyi arasında əlaqələrin yaradılması məqsədilə 2016-cı ildə imzalanmış memorandumu xatırladıb. Bildirib ki, ötən müddət ərzində əlaqələr inkişaf edib, hər iki liseyin nümayəndələri qarşılıqlı səfərlər edib, tədris prosesi ilə tanış olublar. Rektor onu da deyib ki, Serda Erkekin rəhbərlik etdiyi nümayəndə heyəti liseydə olduqları müddət ərzində müəllimlərin mühazirələrini dinləyib, Azərbaycan və rus dilində keçirilən "açıq dərs"lərdə iştirak edərək şagirdlərin bilik səviyyələri ilə yaxından tanış olmaq imkanı qazanıblar.

"Gənc istedadlar" liseyinin direktoru, professor Qasım Hüseynov nümayəndə heyəti ilə keçirilən görüşlər, o cümlədən yaxın gələcəkdə Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinə nəzərdə tutulan səfər barədə məlumat verib.

Heydər Əliyev adına Anadolu texniki-peşə liseyinin müəllimi, nümayəndə heyətinin rəhbəri Serda Erkek keçirilən görüşləri yüksək dəyərləndirib və əlaqələrin daha da inkişafı istiqamətində səmərəli addımlar atılacağını bildirib.

Tədbir lisey şagirdləri Xaqani Qasımov və Hüseyn Yaylacının çıxışları ilə yekunlaşıb.

## Elm və texnologiyaya marağı olan gənclər üçün layihə

Bakı Mühəndislik Universiteti gənc nəslin müasir elmi-texniki keyfiyyətləri mənimsəmiş fərd olaraq yetişməsinə dəstək istiqamətində, dünyadakı texnoloji yeniliklərin elmdə tətbiqini əsas götürərək əməli addımlar atmağa başlamışdır. Bunlardan biri də "FameLab" layihəsidir. Layihə elmi sinif otağı çərçivəsindən çıxarıb, əyləncəli şəkildə auditoriyaya çatdırmaq; eləcə də elm və texnologiyaya böyük həvəsi olan gəncləri öz maraqlarını ictimaiyyətlə bölüşməyə ruhlandırmaq məqsədi ilə təşkil olunan yarışma tipli fəaliyyətdir.

İlk dəfə Böyük Britaniyanın Çeltenham Elm Festivalı tərəfindən yaradılan yarışmanın məqsədi elmi kommunikasiya üzrə yeni istedad axtarıb tapmaqdır. Qeyd edək ki, elm ilə məşğul olan şəxslərdə danışıq qabiliyyətlərini inkişaf etdirmək imkanları yaradan bu müsabiqədə əsas iştirakçılar 21 yaşdan yuxarı, elm və ictimai istiqamətlərdə işləyən, eləcə də texniki mütəxəssislər, elm, texnika, mühəndis, tibb və yaxud riyaziyyat sahələrində çalışan şəxslərdir. Əsas məqsədlərindən biri də gənclərdə elmə marağı artırmaq və gələcəyin gənc alimlərinə dəstək olan bu müsabiqəyə Azərbaycanın müxtəlif ali təhsil ocaqlarının elmi işçiləri, müəllim, bakalavr və magistr tələbələri, eyni zamanda doktorantlar da cəlb olunur.

"FameLab" müsabiqəsi Azərbaycanda ilk dəfə 2007-ci ildə Britaniya Konsulluğunun dəstəyi ilə təşkil olunmağa başlanılmışdır. 2007, 2008 və 2009-cu illərdə bu layihə İctimai televiziyanın dəstəyi ilə keçirilmişdir. Bir neçə il fasilədən sonra 2015 və 2016-cı illərdə müsabiqə yenidən keçirilməyə başlanıb. Televiziya vasitəsilə elmə aidiyyəti olmayan, tamaşaçı kütləsinə öz yaradıcı ideyalarını çatdıra bilən və təqdim etmə bacarığı olan Azərbaycan elminin yeni simalarının axtarışındadır.

Seçim mərhələsinin nəticəsində 10 nəfər finalçı sonuncu mərhələdə iştirak etməyə dəvət olunacaq. Final mərhələsinin qaliblərinə 2 gün ərzində danışıq və təqdimetmə bacarığını inkişaf etdirmək məqsədi ilə Böyük Britaniyadan gələcək alim və media nümayəndəsi təlim verəcək. Final mərhələsində müasir elmi mövzuda və əvvəlki çıxışdan fərqli olan 5 dəqiqəlik təqdimat edilməsi tələb olunur. Münsiflər heyəti təqdimat barəsində sual verəcək və fikirlərini bildirəcəklər. Finalda ən yaxşı performans nümayiş etdirərək qalib seçilən iştirakçı Azərbaycanı Çeltenham, İngiltərədə keçirilən FameLab beynəlxalq müsabiqəsində təmsil etmək hüququ qazanacaq. Münsiflər heyəti tərəfindən seçiləcək ikinci, üçüncü yerin sahibləri və auditoriyanın rəğbətini qazanan müsabiqə iştirakçısına hədiyyələr təqdim olunacaq.

Qeyd edək ki, müsabiqə ilə əlaqədar geniş məlumat *www.famelab.az* səhifəsində verilmişdir.

# Bakı Dövlət Universitetində yeni mərkəz istifadəyə verildi



Bakı Dövlət Universitetinin "Azercell Telekom" MMC ilə əməkdaşlığı çərçivəsində jurnalistika fakültəsində Barama Media Mərkəzinin açılışı olub. Açılış mərasimində BDU-nun rektoru, akademik Abel Məhərrəmov, "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev, PAŞA Bankın nümayəndələri, qonaqlar, fakültənin professor-müəllim heyəti iştirak edib.

Çıxış edən rektor Abel Məhərrəmov bildirib ki, "Azercell" və PAŞA Bankın dəstəyi ilə yaradılan Barama Media Mərkəzinin əsas məqsədi gənclərin innovativ ideyalarını reallaşdırmaqda onlara dəstək vermək, media mövzusunda təlim və seminarlar, görüşlər təşkil etmək, universitetin digər fakültələrində təhsil alan tələbələrin zəruri bilik və bacarıqlara yiyələnmələri üçün müxtəlif layihə, proqramlara cəlb etməkdir. Rektor mərkəzin fakültə nəzdində fəaliyyət göstərən Tədris-teleradio studiyasının imkanlarından da istifadə edərək elm və innovasiya araşdırmalarına imkan yaratmaq, həmçinin fikirlərini sərbəst ifadə etmək bacarıqlarını formalaşdırmaqda əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Onu da vurğulayıb ki, BDU ilə "Azercell" arasında imzalanmış əməkdaşlıq nəticəsində universitet tələbələri texnoloji innovasiyalara daha da yaxınlaşır, həm də sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsinə şərait yaradılır. Şirkətin Tələbə Proqramı çərçivəsində BDU-nun III və IV kursda təhsil alan və yüksək təhsil göstəriciləri olan tələbələr üçün aylıq təqaüd layihəsindən də danışan rektor yaradılmış şəraitə görə "Azercell"in prezidenti Vahid Mürsəliyevə, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırova təşəkkürünü bildirib.

"Azercell"in prezidenti Vahid Mürsəliyev isə Barama Media Mərkəzinin tələbələrə bilik və bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradacağını qeyd edib. Bildirib ki, fəaliyyət göstərdiyi 21 il ərzində "Azercell Telekom" MMC Azərbaycanda təhsilin inkişafına, təcrübəli kadrların yetişdirilməsinə hər zaman dəstək verib, bu yöndə fəaliyyətini bu gün də uğurla davam etdirir. Şirkətin elan etdiyi Tələbə Proqramı çərçivəsində Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan qabiliyyətli gənclər "Azercell"dən xüsusi təqaüd və şirkətin müxtəlif şöbələrində təcrübə keçmək imkanı qazanırlar.

Jurnalistika fakültəsinin dekanı, professor Cahangir Məmmədli, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov qurumun tələbə-jurnalistlərin ideyalarının reallaşmasına təkan verəcəyini qeyd edib və onun işinə uğurlar arzulayıblar.

# Azərbaycan Dövlət Pedaqoji Universiteti məktəblərlə əlaqələri genişləndirir



Martın 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Pedaqoji təhsil: Universitet və məktəb əlaqələri" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir ADPU və Azərbaycan Respublikasının Təhsil İnstitutunun birgə təşkilatçılığı ilə reallaşıb.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov "dəyirmi masa"nı giriş sözü ilə açaraq belə tədbirlərin keçirilməsinin fikir və təcrübə mübadiləsinin aparılması baxımından mühüm rol oynadığını bildirib. Qeyd edilib ki, universitet və orta məktəblər arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, bu işin metodika və metodologiyasının təkmilləşdirilməsi, bütövlükdə təhsilin, xüsusilə də pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi üçün birgə səmərəli fəaliyyət göstərilməlidir.

Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri, Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev çıxış edərək belə tədbirlərin ali təhsil müəssisələri ilə ümumi təhsil məktəbləri arasında əlaqələrin genişləndirilməsinə səmərəli təsir etdiyini bildirib.

"Dəyirmi masa"nın moderatoru, ADPU-nun Tədrisin İdarə Olunması və Tədris Texnologiyaları Mərkəzinin direktoru, dosent Sənan Əliyev qeyd edib ki, biz müasir dünyanın təhsil sahəsində qarşıya qoyduğu çağırış və tələblərə cavab verməli, orta məktəblər üçün yüksək bilik səviyyəsinə malik mütəxəssislər hazırlamalıyıq.

Mərkəzin direktor müavini, dosent Ənvər İmanov "Universitet və məktəb əlaqələrinin mövcud vəziyyəti, problemlər və ideyalar" mövzusunda geniş təqdimatla çıxış edib. Diskussiya və fikir mübadiləsi şəraitində keçən "dəyirmi masa"da ADPU-nun tədris işləri üzrə prorektoru, professor Malik Cəbrayılov, ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov, Azərbaycan Dillər Universitetinin dosenti Vidadi Başirov, 132-134 nömrəli Təhsil Kompleksinin direktoru Sara Xanlarova, 19 nömrəli tam orta məktəbin direktoru Akif Əliyev, təhsil eksperti Etibar Əliyev və başqaları çıxış ediblər. Çıxışlarda ali təhsil müəssisələri ilə orta məktəblərin birgə layihələr həyata keçirməsi, tələbələrin orta məktəblərə cəlb edilməsi, universitet və məktəb əlaqələrində tədris-pedaqoji fəaliyyət istiqamətləri, 12 illik təhsilə keçidin müsbət cəhətləri, informasiya-kommunikasiya texnologiyalarının təlim-tərbiyə, tədris prosesinə tətbiqinin genişləndirilməsi və digər məsələlərlə bağlı maraqlı fikir və təkliflər səsləndirilib.

Sonda bu mövzuda "dəyirmi masa"ların davamlı keçirilməsi üçün ADPU və Təhsil İnstitutunun əməkdaşlarından ibarət komissiyanın yaradılması qərara alınıb.

# Azərbaycan Dillər Universitetində Çin dili üzrə ixtisas imtahanları



Çin dili üzrə rəsmi sınaq mərkəzi sayılan Azərbaycan Dillər Universitetinin (ADU) nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunda ilk dəfə Çin dili üzrə Hanyu Shuiping Kaoshi (HSK) və Hanyu Shuiping Kouyu Kaoshi (HSKK) imtahanları keçirilib. Bir neçə səviyyədən ibarət olan test imtahanları Çin dili bilgisi olmayan şəxslərin bu dil üzrə standart ixtisas imtahanıdır.

İmtahan iştirakçılarının böyük əksəriyyəti ADU və digər ali təhsil müəssisələrinin tələbələri, həmçinin Konfutsi İnstitutunun dinləyiciləri olub.

Konfutsi İnstitutunun Azərbaycan tərəfdən direktoru, professor Rafiq Abbasov qeyd edib ki, HSK/HSKK imtahanlarının müvəffəqiyyətlə keçirilməsi və beynəlxalq sertifikatın alınması Çin Xalq Respublikasında (ÇXR) təqaüdlə təhsil almağa, həmçinin Çin şirkətlərində məşğulluq imtiyazlarına imkan yaradır. O bildirib ki, Azərbaycanda HSK/HSKK imtahanlarının müvəffəqiyyətlə keçirilməsi bu dilə marağın artmasına sübutdur.

# Türkiyənin Hacettepe Universiteti UNEC-i seçir



Martın 21-də Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov Türkiyənin nüfuzlu universitetlərindən olan Hacettepe Universitetinin rektoru, professor Haluk Ozenlə görüşüb. Görüş zamanı hər iki universitetdə təhsilin keyfiyyətinin artırılması yolları, müasir şəraitdə universitet təhsilinə dəyişən və artan tələblər, dünya təhsil sisteminə inteqrasiya imkanları müzakirə edilib. Rektor Ə.Muradov son illər ərzində UNEC-də həyata keçirilən islahatlar, ən müasir təhsil modellərinin Azərbaycana gətirilməsinin prioritet olduğuna və dünyanın bir sıra nüfuzlu universitetləri, o cümlədən London Universiteti/London İqtisadiyyat Məktəbi, Fransanın Monpelye, Litvanın Mikolas Romeyris, Almaniyanın Zigen və digər universitetlərilə uğurlu əməkdaşlığa dair ətraflı məlumat verib. Nüfuzlu beynəlxalq QS reytinqinə əsasən, UNEC-in inkişaf edən Şərqi Avropa və Mərkəzi Asiyada ən yaxşı 4-cü iqtisad universiteti olduğu vurğulanıb.

Hacettepe Universitetinin rektoru, professor Haluk Ozen UNEC-lə əməkdaşlığa xüsusi önəm verdiyini bildirib və yekunda UNEC və Hacettepe Universiteti arasında geniş əməkdaşlığı nəzərdə tutan müqavilə imzalanıb.

# ADNSU-nun rektoru səfirlə görüşüb



Martın 30-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı İraqın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Fadil al- Şuveyli ilə görüşüb.

İki ölkə arasındakı əlaqələrin, eləcə də təhsil sahəsindəki əməkdaşlığın müzakirə olunduğu görüşdə həmçinin iraqlı tələbələrin ADNSU-da təhsilə cəlb edilməsi ətrafında fikir mübadiləsi aparılıb. İraqla Azərbaycan arasında hər zaman dostluq münasibətləri olduğunu qeyd edən ADNSU-nun rektoru Mustafa Babanlı rəhbərlik etdiyi ali təhsil müəssisəsində həyata keçirilən tədris prosesi, fakültələr və iraqlı tələbələr haqqında qonağa məlumat verib. Universitetdə 75 iraqlı tələbənin təhsil aldığını deyən rektor ali məktəbin daha çox əcnəbi tələbə qəbul etmək üçün kifayət qədər potensiala malik olduğunu bildirib.

"Hazırda universitetimizdə təkcə neft deyil, eyni zamanda sənayenin digər sahələri üzrə də mütəxəssis hazırlığı gedir. Bir neft ölkəsi kimi İraqın bizim universitetlə əlaqələrini yüksək qiymətləndiririk. Bu gün İraqdan olan tələbələr dərslərə böyük maraq və həvəs göstərirlər", - deyə rektor M.Babanlı qeyd edib. ADNSU-nun verdiyi diplomların İraqda tanınmasını istədiyini qonağın diqqətinə çatdıran rektor universitetdə tədris olunan 3 ixtisasın Avropa standartlarına uyğun ixtisaslar olaraq akkreditasiyadan keçdiyini də bidirib. ADNSU-da 14 ixtisas üzrə ingilis dilində tədrisin həyata keçirildiyini söyləyən rektor M.Babanlı bunu əcnəbi tələbələr üçün əlverişli fürsət kimi səciyyələndirib.

İraqın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Fadil al-Şuveyli ölkəsinin Azərbaycanla əlaqələrinə hər zaman yüksək qiymət verdiyini xüsusi vurğulayaraq neft sahəsində ixtisaslaşmış ADNSU-da təhsil almaq istəyən kifayət qədər iraqlı gəncin olduğunu deyib.

Sonra qonaq ADNSU-da təhsil alan iraqlı tələbələrlə görüşüb, universitetin tarix muzeyini və Fransız-Azərbaycan Universitetini ziyarət edib.

# BSU-nun nümayəndə heyəti Bolqarıstana səfər edib



Bakı Slavyan Universitetinin (BSU) rektoru, professor Nurlana Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti Bolqarıstan Respublikasının vitse-prezidentinin dəvəti ilə bu ölkəyə səfər edib. Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Bolqarıstanın Veliko Tırnovo şəhərinin meri Daniel Panov və merin müavini Qanço Karabadjakovla görüşüblər.

Daniel Panov Azərbaycan ilə Bolqarıstan arasındakı dostluq və qardaşlığın tarixi köklərindən söz açıb. Mer ölkələrimiz arasında təhsil sahəsindəki əməkdaşlığı, Bakı Slavyan Universitetində bolqar dilinin, tarixinin və mədəniyyətinin öyrənilməsini yüksək qiymətləndirib.

BSU-nun rektoru, professor Nurlana Əliyeva Bakı Slavyan Universitetində 2004-cü ildə yaradılan bolqar dili və mədəniyyəti mərkəzinin fəaliyyətindən söz açıb. Qeyd edib ki, bu gün BSU-da 50-dən çox tələbə bolqar dilində təhsil alır, Bolqarıstanın tarixi və mədəniyyətini öyrənir.

Sonra BSU-nun nümayəndə heyəti Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş "Trapezitsa" Memarlıq Muzey-Qoruğunda olub, Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo, Bolqarıstan Milli və Dünya Təsərrüfatı universitetlərində maraqlı görüşlər keçiriblər.

Sonra azərbaycanlı nümayəndələr Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində olub, mərkəzin müdiri Sofiya Şıqayeva və universitetin Şərq dilləri və mədəniyyəti ixtisaslar mərkəzinin müdiri, professor Aleksandr Fedatovla görüşüblər.

Rektor, professor Nurlana Əliyeva BSU-nun Sofiya Dövlət Universiteti ilə sıx əməkdaşlığından, bu əlaqələrin gələcəkdə daha da möhkəmlənməsi istiqamətində nəzərdə tutulan işlərdən söz açıb və Beynəlxalq Novruz Günü münasibətilə görüş iştirakçılarını təbrik edib.

Səfər zamanı Azərbaycan nümayəndə heyətini Bolqarıstanın vitse-prezidenti İliyana Yotova qəbul edib.

Vitse-prezident yaxın zamanda Azərbaycana nəzərdə tutulmuş səfərində Bakı Slavyan Universitetinə də gələcəyini deyib. Azərbaycanda bolqar dilini tədris edən universitetin fəaliyyət göstərməsini yüksək qiymətləndirərək bu dilə göstərilən hörmət və qayğıya görə BSU rəhbərliyinə təşəkkür edib.

Görüşlərdə Azərbaycanın Bolqarıstandakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova da iştirak edib.

# transfer.edu.az - sadə və şəffaf

## Tələbələrin köçürülməsi qış semestrində tam olaraq elektron qaydada aparılıb



2016-2017-ci tədris ilindən təhsilalanların ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi elektron qaydada həyata keçirilir. İndiyədək köçürülmək və ya ixtisasını dəyişmək istəyən hər bir tələbə sənədlərini köçürülmək istədiyi ali təhsil müəssisəsinə təqdim etməli idi. Yay semestrindən başlayaraq təhsilalanların ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi paralel olaraq elektron şəkildə mərkəzləşdirilmiş qaydada aparılıb. Təhsil Nazirliyinin İnformasiya şöbəsinin məsləhətçisi Günay İsgəndərovanın sözlərinə görə, cari ilin qış semestrindən köçürülmə tam olaraq elektron şəkildə mərkəzləşdirilmiş qaydada aparılıb. Qış semestrindən orta ixtisas təhsili müəssisələri tələbələrinin də *transfer.edu.az* elektron portalı vasitəsilə köçürülməsinə başlanılıb.

Portala müraciət etmiş tələbələrin 497-si köçürülmək istədikləri universitetləri seçərək sorğularını təsdiqləyib. 68 tələbə sorğudan imtina edib. Qalan 429 tələbənin 307-si yerli ali təhsil müəssisələrindən, 122 tələbə isə xarici ali təhsil müəssisələrindən köçürülmək üçün müraciət edən tələbələrdir. Yekun nəticəyə görə transfer.edu.az elektron portalına müraciət edən tələbələrin 230-u yerli, 3-ü isə xarici ali təhsil müəssisələrindən köçürülüblər.

Onu da qeyd edək ki, köçürülmək istəyən tələbənin Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin, tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

Xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin Azərbaycanın ali təhsil müəssisələrinə köçürülməsinə yol verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan əsas göstəricilər sırasındadır. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin elektron köçürülmədə iştirak etmək hüququ yoxdur.

Təhsil Nazirliyinin Dövlət İmtahan Mərkəzi ilə birgə fəaliyyət çərçivəsində yaratdığı transfer.edu.az portalı tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsinə və şəffaflığın təmin edilməsi məqsədinə xidmət edir. Eyni zamanda, bu yenilik Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi haqqında" fərmanından irəli gələn vəzifələrin icrası işinin səmərəliliyinin artırılması istiqamətində mühüm addımdır.

*Bu il transfer.edu.az elektron portalı vasitəsilə köçürülən tələbələr yeniliyin onlar üçün gözlənilməz olduğunu deyirlər:*



**Aysel Mirzəyeva,**
*Azərbaycan Tibb Universitetinin tələbəsi*

Mənim üçün çox gözlənilməz oldu. Proses o qədər dəqiqlik, qanunauyğunluqla oldu ki. Mən Təhsil Nazirliyinə tələbələrə belə bir şərait yaratdıqları üçün təşəkkür edirəm. Köçürülmənin təsdiq olunması ilə bağlı əmr çıxdıqdan sonra qısa bir müddətdə köçürülmə işləri tamamlandı və mən bir həftədir rahatlıqla yeni qrupla dərsə gedirəm. Əvvəl Azərbaycan Tibb Universitetinin tibbi profilaktika fakültəsində təhsil alırdım, hazırda təhsilimi müalicə işi ixtisası üzrə davam etdirirəm. İnanıram ki, bu şansdan istifadə edib, inamları doğrulda biləcəyəm.



**Həsənağa Ağaquliyev,**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi*

Türkiyənin Bilkent Universitetində təhsil alırdım. Tələbələrin köçürülməsi üçün yaradılan transfer.edu.az portalından istifadə etdim. Tələb olunan sənədləri yüklədim və nəticə müsbət oldu. Hazırda mən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində kompüter elmləri üzrə təhsil alıram. Yaradılan şərait üçün çox təşəkkürümü bildirirəm.



**Günay Əsgərova,**
*Azərbaycan Dillər Universitetinin tələbəsi*

Azərbaycan Dövlət Pedaqoji Universitetində xarici dillər ixtisası üzrə təhsil alırdım. Lakin ixtisasım o qədər ürəyimcə deyildi. transfer.edu.az portalı fəaliyyətə başladıqdan sonra mən də bu imkandan istifadə etmək qərarına gəldim, sənədlərimi yüklədim və köçürülmə ilə bağlı cavab aldım. Hazırda Azərbaycan Dillər Universitetində regionşünaslıq (Böyük Britaniya) ixtisası üzrə təhsilimi davam etdirirəm.

**İstedad**

# "Ən böyük arzum xaricdə təhsil almaqdır"



**Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının dəhlizinə çatanda məni ilk qarşılayan da elə ətrafı bürüyən musiqi sədaları oldu. Pianonun dillərindən qopan melodiyalar, klassik bəstəkarların bənzərsiz bəstələri adamı mahnı qanadlarında sanki zirvələrə qanadlandırırdı. Sanki başqa aləmdə özümü hiss edirdim. Gimnaziyanın direktoru Aytən Əhmədova ilə görüşüb gəlişimizin məqsədini bildirdim. Direktor IX sinifdə təhsil alan beynəlxalq müsabiqələr qalibi olan Züleyxa Abdullayeva ilə görüşməyi məsləhət bildi. Məşqlər başa çatandan sonra biz Züleyxa ilə görüşdük və o, beynəlxalq müsabiqələrdə qazandığı uğurlardan söz açdı:**

- İlk dəfə Azərbaycan bəstəkarlarının yubileylərinə həsr olunmuş musiqi festivallarına qatılaraq uğurlu çıxış etdim və diplomlarla mükafatlandırıldım, -deyə, Züleyxa öz uğurlarını sadalamağa başladı. Yaxşı yadımdadır, 2011-ci ildə 8 yaşında olarkən musiqi müəllimim Nigar Nəcəfova məni çağırıb dedi ki, İtaliyada Pyetro Argento adına XIV beynəlxalq musiqi müsabiqəsi keçiriləcək. Əgər istəyirsənsə, atana, anana de, razı olarlarsa sən də müsabiqəyə qatıl. Həmin gün sevincimin həddi-hüdudu yox idi, çünki İtaliya adını kitablardan oxumuşdum. Sevinirdim ki, 8 yaşlı bir qız olaraq İtaliyada keçirilən beynəlxalq müsabiqəyə qatılacağam. Amma eyni zamanda həm də narahat idim ki, necə olacaq, görəsən uğur qazana biləcəyəmmi? Özümə verdiyim suallar məni yorurdu və digər tərəfdən də maddi durumumuz məni sıxırdı. Anam bu təklifi atama söyləyəndə o, razı oldu. Atamın da, anamın da yeddiillik musiqi təhsilləri var. Valideynlərim çox istəyirdilər ki, mən musiqişünas olum. Çox fikirləşdilər və axır ki, qərara gəldilər ki, müsabiqədə iştirak edim. Həmin müsabiqə mənim üçün uğurlu oldu. Zalda adımı eşidəndə çox həyəcan keçirdim, əllərim əsirdi. Özümü ələ alıb dünya bəstəkarlarının əsərlərini məharətlə ifa etdim. Tamaşaçıların, münsiflər heyətinin alqışlarını eşidəndə qürur hissi keçirirdim. Münsiflər heyəti mənə diplom və kubok təqdim etdikdə isə göz yaşlarımı gizlədə bilmədim. Bilmirəm bu sevincdən idi, yoxsa həyəcandan. İlk uğuruma bax onda imza atdım. Bir həftə İtaliyada olduq. Müəllimim Nigar Nəcəfova ilə park və xiyabanlara baş çəkdik. Avtobusla bütün turları gəzdik, mən orada Bakı Musiqi Akademiyasında təhsil alan Günay Ağalarova ilə tanış oldum, o da I yerin qalibi idi. 2012-ci ildə isə İsveçin Stokholm şəhərində keçirilən pianoçuların "Pondo" beynəlxalq müsabiqəsinə qatıldım. Amma bu müsabiqə əvvəlki müsabiqələrdən fərqli olaraq çox çətin idi. Daha doğrusu, rəqabət güclü idi. Amma müsabiqəyə ciddi hazırlaşmışdım. Nəticədə müsabiqədə uğur qazandım və diplomla mükafatlandırıldım. Sevinirdim ki, müəllimlərimin və valideynlərimin etimadını doğrultdum. İsveçdə olarkən günlərimiz çox maraqlı keçdi. Şəhərlə ətraflı tanış olduq. Gəmidə gəzintiyə çıxdıq, çoxlu şəkillər çəkdirdik. Ümumiyyətlə, indiyədək müxtəlif illərdə 5 xarici ölkədə olmuşam. Təəssüratlarım qurtaran deyil. Paris şəhərində Nikolay Rubinşteyn adına XI beynəlxalq musiqi yarışması çox maraqlı keçdi və orada da qalib adını qazandım. Fəxarət hissi keçirirdim ki, müsabiqədə 25 ölkədən olan musiqiçilər arasında Azərbaycanı təmsil edirdim. 2014-cü ildə ABŞ-ın Nyu-York şəhərində keçirilən "Amerkan Protege" beynəlxalq müsabiqəsində ən çox sevdiyim Azərbaycan bəstəkarı Adil Bəbirovun məşhur "Prelüd və scerszo" əsərini məharətlə ifa etdim və laureat adına layiq görüldüm. Tamaşaçıların alqışlarını eşitdikcə fikirləşirdim ki, bu alqışlar təkcə mənim yox, təhsil aldığım məktəbin, müəllimlərimin əməyinə verilən qiymətdir. 2016-cı ilin mayında isə İtaliyada Çitta di Pezaro beynəlxalq müsabiqəyə qatılaraq laureat adını qazanaraq II yerə layiq görüldüm. Sevincimi müəllimim Nigar Nəcəfova və anamla bölüşdüm. Həmin gün şəhəri gəzdik və yarışma haqqında fikirlərimizi bölüşdük. Muzeylərlə və tarixi abidələrlə tanış olduq. Azərbaycandan apardığımız şirniyyatlardan dostlarımıza da pay verdik. Uğurlarımın coğrafiyası genişləndikcə daha çox həvəslənirəm. Çalışıram ki, xarici ölkələrdə keçirilən beynəlxalq müsabiqə və festivallarda hər çıxışım tamaşaçılarda xoş ovqat yaratsın. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının müvafiq sərəncamı ilə adım 2013-cü ildə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilib və xüsusi aylıq təqaüdə layiq görülmüşəm. Aldığım təqaüdü özümə xərcləyirəm. Ölkə rəhbərliyinə bu adı qazanan bütün istedadlı yaşıdlarım adından minnətdarlığımı bildirirəm. Çünki biz gənclərə diqqət və qayğısını heç vaxt əsirgəmir.

Hazırda Respublika İncəsənət Gimnaziyasının fortepiano sinfinin IX sinif şagirdiyəm. Birdə ki, insan həyatı boyu arzularla yaşayır. Arzudan arzu doğur. Mənim də qəlbimdə arzularım çoxdur. Onlara çatmaq üçün səylə çalışmalıyam. Ən böyük arzum xaricdə təhsil almaqdır.

*Züleyxa təəssüratlarını bölüşdükcə tez-tez qolundakı saata baxırdı, çünki o bir neçə dəqiqədən sonra tarix fənnindən test yazacaqdı. Biz onunla xoş bir təəssüratla ayrıldıq. Gimnaziyada məni ilk qarşılayan musiqi sədalarının müşayiəti ilə də təhsil ocağını tərk etdim.*

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*

# Macarıstanda təhsil üzrə təqaüd proqramı



Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 11 noyabr 2014-cü il tarixində imzalanmış İş Proqramına uyğun olaraq bu ölkə tərəfindən verilən 200 təqaüd yerinə seçimlər davam edir. Proqram Azərbaycan Respublikasının vətəndaşlarına müəyyən olunmuş ixtisaslar üzrə təqaüd hesabına təhsil almaq imkanı yaradır. Proqram çərçivəsində Macarıstan tərəfindən hər il 200 Azərbaycan vətəndaşı üçün aşağıdakı çərçivə əsasında təqaüd ayrılması nəzərdə tutulub: tam bakalavr, magistratura təhsil proqramları üzrə: kənd təsərrüfatı, su idarəetməsi - 40 təqaüd; təbiət elmləri, davamlı inkişaf - 30 təqaüd, tibb elmləri ("health studies") - 10 təqaüd; turizm - 40 təqaüd; mühəndislik, informasiya texnologiyaları, texnologiyalar - 30 təqaüd; iqtisadiyyat, biznes və idarəetmə elmləri - 40 təqaüd. Doktorantura təhsili: istənilən maraq dairəsi üzrə - 10 təqaüd. Macar dilində ali təhsilə başlamazdan öncə tələbələr Balassi İnstitutunda birillik hazırlıq kursu keçirlər. İngilis dilində proqramlar üçün müraciət edən tələbələr müəyyən olunmuş səviyyəyə müvafiq ingilis dili biliyinə malik olmalıdırlar. Qeyd edək ki, Macarıstan universitetlərinin təqdim etdiyi diplomlar dünyada yüksək nüfuza malikdir.Təhsil keyfiyyəti çox yüksək olan Macarıstan Avropada əcnəbi tələbələrin ən çox seçdiyi ölkələrdəndir.

Son illər Macarıstan dünyanın nüfuzlu elm-təhsil mərkəzlərindən birinə çevrilməkdədir. Bu ölkənin ali məktəblərinin dünyanın nüfuzlu universitetlərinin reytinq cədvəllərində yer alması da Macarıstanın inkişaf edən təhsil sisteminin üstünlüklərindən xəbər verir. Macarıstan Avropanın digər ölkələrindən təhsil, yaşayış, kommunal xidmətlər və nəqliyyat xərclərinin aşağı olması ilə də fərqlənir, buna görə xarici tələbələr öz seçimlərini tez-tez bu ölkənin ali məktəbləri üzərində qururlar.

Macarıstanın ali təhsil müəssisələrinin məzunları minimum iki dilə malik olurlar. Bir neçə dövlət ali məktəbi xarici universitetlərlə sıx əməkdaşlıq edir və ikili diplom (Macarıstan universiteti və xarici ali təhsil müəssisəsinin) verir. Böyük Britaniyanın nüfuzlu "Times Higher Education Rankings" jurnalının 2016-2017-ci tədris ili üzrə Avropanın ən yaxşı universitetləri sırasında Macarıstan universitetləri də ön sıralarda yer almaqdadır.

Macarıstanın nüfuzlu ali məktəblərindən Budapeşt Texnologiya və İqtisadiyyat, Szent İştvan, Dunaujvaros, Budapeşt Corvinus, Eötvös Lorand, Debreken, Reks, Szeged universitetlərinin, Duna Beynəlxalq Kollecinin, Beynəlxalq Biznes Məktəbinin adlarını çəkmək olar.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*

# Soyqırımı qurbanlarının xatirəsi anılıb

## Bakı Mühəndislik Universitetində



Bakı Mühəndislik Universitetində 31 mart soyqırımı ilə əlaqədar tədbir keçirilib. Tədbirdə universitet rəhbərliyi və tələbə-müəllim heyəti ilə yanaşı millət vəkili Fəzail İbrahimli iştirak edib. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, himnimiz səsləndirilib və soyqırımla əlaqəli sənədli film izlənilib.

Universitetin rektoru, professor Havar Məmmədov xalqımızın tarixən yaşadığı faciələrdən danışıb. Qeyd olunub ki, Azərbaycan tarixinə XX əsrin ən faciəli soyqırımlarından biri kimi daxil olan mart hadisələri zamanı bolşevik-erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə kütləvi qətliamlar törətmiş, mindən artıq kənd yandırılmış və dağıdılmışdır. Bildirib ki, sovet dövründə bu tarix xalqımızdan gizli saxlanılıb. Ümummilli liderimiz Heydər Əliyev 31 martın azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması ilə bağlı fərman imzalayıb. Soyqırımla bağlı ölkəmizdə və xarici ölkələrdə tədbirlər keçirilir və xalqımızın başına gətirilən faciələr dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamına əsasən Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində "Soyqırım Memorial Kompleksi" yaradılıb.

Millət vəkili Fəzail İbrahimli erməni tərəfindən xalqımızın başına gətirilən soyqırımların tarixini faktlarla diqqətə çatdırıb.

## Azərbaycan Memarlıq və İnşaat Universitetində



Martın 31-də Azərbaycan Memarlıq və İnşaat Universitetində 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş anım tədbiri keçirilib. Tədbir 1918-ci ilin martında erməni daşnakları tərəfindən qətlə yetirilmiş minlərlə soydaşımızın xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ermənilərin tarix boyu xalqımıza qarşı təcavüzkar siyasət yeritməsindən, qanlı əməllərindən, "böyük Ermənistan" yaratmaq xülyasından söz açıb.

1918-ci ilin mart günlərində Bakıda, eləcə də Şamaxı, Quba, Qarabağ, Qərbi Azərbaycan və digər bölgələrdə törədilən qırğınları yada salan rektor bu qanlı hadisələr zamanı ermənilərin 3 gün ərzində minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirdiyini, qoca, qadın və uşaqlara aman verilmədiyini diqqətə çatdırıb.

Gülçöhrə Məmmədova çıxışında onu da vurğulayıb ki, ermənilərin tarix boyu xalqımıza qarşı törətdiyi bu cinayətlərə və həyata keçirdikləri işğalçılıq siyasətinə yalnız 26 mart 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış fərmanla siyasi-hüquqi qiymət verilib. O, hazırda bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə davam etdirildiyini, ötən əsrin əvvəllərindən başlayaraq ermənilər tərəfindən Bakı, Şamaxı, Quba, Göyçə, Zəngəzur və Azərbaycanın digər bölgələrində azərbaycanlılara qarşı törədilmiş soyqırımı hadisələrinin bütün dünyada tanıdılması istiqamətində işlər aparıldığını qeyd edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində göstərdiyi dəyərli fəaliyyət də xüsusi qeyd edilib.

AzMİU Ağsaqqallar Şurasının sədri, ictimai fənlər kafedrasının dosenti Bəhram Avılov Azərbaycana qarşı törədilmiş soyqırımlardan danışıb, bu cür tədbirlərin keçirilməsinin gənclərimizin tariximizdə baş verənlərlə bağlı ətraflı məlumatlandırılması baxımından vacib hesab edib.

Qeyd edək ki, 31 mart - Azərbaycanlıların Soyqırımı Günü AzMİU-nun bütün fakültələrində də qeyd olunub, tələbələr Quba şəhərində Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

## Sumqayıt Dövlət Universitetində



Azərbaycan xalqına, türk dünyasına qarşı erməni daşnaklarının soyqırımı siyasəti 200 ilə yaxın bir dövrü əhatə etməkdədir. 31 mart soyqırımı isə öz dəhşətləri ilə tarixin qanlı salnaməsinə çevrilmişdir. Martın 31-də Sumqayıt Dövlət Universitetinin Heydər Əliyev Mərkəzində anım tədbiri keçirildi. Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Rektor, professor Elxan Hüseynov tədbiri açaraq bildirdi ki, tarix boyu təcavüzkar siyasət yeridən ermənilər zaman-zaman xalqımızı soyqırıma məruz qoymuş, havadarlarının hərtərəfli köməyi ilə əzəli torpaqlarımızı almağı özlərinin məqsədlərinə çevirmişlər. 1918-ci ilin mart günlərindəki qırğınlar zamanı ermənilər üç gün ərzində Bakıda 12 min soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər. Sonrakı günlərdə Bakı və Gəncə quberniyalarında, Quba, Xaçmaz, Şamaxı, Lənkəran, Muğan qəzalarında və digər bölgələrdə də ermənilər tərəfindən qanlı faciələr törədilmişdir.

Rektor onu da vurğuladı ki, ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı ilə xalqımıza qarşı törədilmiş ağır cinayətlərə hüquqi-siyasi qiymət verilmişdir. Bu gün isə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, aparıcı dünya dövlətləri və nüfuzlu beynəlxalq dairələr tərəfindən ölkəmizin ədalətli mövqeyinin etiraf olunması və müdafiəsi istiqamətində ardıcıl və məqsədyönlü işlər görülür. Dövlət başçısı cənab İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" sərəncamı bu istiqamətdə mühüm addımlardan biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gerçəkləşdirdiyi mühüm layihələr xüsusi qeyd edilməlidir.

Tarix və coğrafiya fakültəsinin dekanı, professor Adil Baxşəliyev "1918-ci ilin mart soyqırımı", Azərbaycan tarixi kafedrasının müəllimi Günay Şükürova "1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycandan - tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası", tarix və coğrafiya fakültəsinin II kurs tələbəsi Əli Miriyev "Ermənilərin 1988-ci ildə Azərbaycan torpaqlarında başladıqları Qarabağ müharibəsi və soyqırımı siyasəti" mövzularında çıxış etdilər.

## Azərbaycan Dillər Universitetində



Martın 31-də Azərbaycan Dillər Universitetinin (ADU) regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin təşkilatçılığı ilə "Erməni daşnaklarının azərbaycanlılara qarşı soyqırımı" mövzusunda I elmi konfrans keçirilib.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev 31 martın Azərbaycanın tarixində faciəvi bir gün olduğunu deyərək Bakı şəhərində və eləcə də müxtəlif bölgələrdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın haqqında qısa məlumat verib. Universitetdə tələbələr arasında soyqırımının tarixi ilə bağlı sorğu keçirildiyini və məlumatlılıq baxımından nəticənin ürəkaçan olduğunu bildirən professor ali təhsil ocağında tələbələrin yalnız peşəkar mütəxəssis kimi deyil, eyni zamanda vətənpərvər vətəndaş olaraq yetişdirildiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə 31 martın Azərbaycanlıların Soyqırımı Günü kimi anıldığını vurğulayan Ə.Abdullayev Prezident İlham Əliyevin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində siyasətinin uğurlu nəticə göstərəcəyinə əminliyini bildirib.

Regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin dekanı, dosent Samir Həmidov soyqırımına həsr olunan elmi konfransın tarixi hadisələri tələbələrə daha dərindən öyrətmək, gənclərin xalqımızın məruz qaldığı faciələrin dünyaya tanıdılmasında aktivlik göstərmələrinə nail olmaq məqsədi daşıdığını söyləyərək bu konfransın hər il keçirilməsinin nəzərdə tutulduğunu deyib. Tarixdə ilk və ən uzunmüddətli soyqırımının Azərbaycan xalqına qarşı törədildiyini bildirən S.Həmidov ermənilərin bütün amansız vasitələrdən istifadə edərək yaşından, cinsindən və sosial vəziyyətindən asılı olmayaraq xalqı kütləvi şəkildə məhv etdiklərini diqqətə çatdırıb.

Daha sonra fakültənin tərkibində fəaliyyət göstərən kafedraların əməkdaşları məruzələrlə çıxış ediblər.

31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş daha bir tədbir isə universitetin filologiya və jurnalistika fakültəsinin təşkilatçılığı ilə keçirilib.

Filologiya və jurnalistika fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Vüsalə Ağabəyli soyqırımı zamanı mütəşəkkil erməni birləşmələri tərəfindən minlərlə günahsız, dinc insanın amansızcasına qətlə yetirildiyini tələbələrin nəzərinə çatdırıb, bu soyqırımının acınacaqlı nəticələrini dünya ictimaiyyətinə çatdırmağın əhəmiyyətini qeyd edib.

## Naxçıvan Dövlət Universitetində



Naxçıvan Dövlət Universitetinin Heydər Əliyev lektoriyasının 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş 212-ci məşğələsi keçirilib.

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, erməni qəsbkarları tarixən Azərbaycana qarşı əsassız ərazi iddiaları qaldıraraq zaman-zaman xalqımıza qarşı amansız qətliamlar, soyqırımlar törədiblər. 1918-ci ilin mart qırğınları da ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı şəkildə həyata keçirdikləri soyqırımı siyasətinin mərhələlərindən biridir. Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilib, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti bütünlüklə açıqlanıb və ifşa olunub. Rektor gəncliyimizi tariximizə qanlı hərflərlə yazılmış bu hadisələri daim xatırlamağa və dünya xalqlarına həqiqətlərin çatdırılması istiqamətində səyləri əsirgəməməyə səsləyib.

Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayev çıxış edərək ermənilərin xalqımızın başına gətirdikləri müsibətlərdən söz açıb. Soyqırımının tarixinə nəzər salan Abdulla Mustafayev bildirib ki, 1918-ci ilin mart günlərindəki qırğınlar zamanı ermənilər üç gün ərzində Bakıda 12 min soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. Sonrakı günlərdə Şamaxı, Quba və digər yerlərdə on minlərlə azərbaycanlı qəddarlıqla öldürülüb, yaşayış məntəqələri, məscidlər, mədəniyyət abidələri yerlə-yeksan edilib. 1918-1920-ci illərdə Qarabağ, Qərbi Azərbaycan və digər bölgələrdə on minlərlə soydaşımız amansızlıqla öldürülüb. 1988-ci ildə ermənilərin başladıqları müharibə nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib. Qeyd olunub ki, ermənilərin tarix boyu xalqımıza qarşı törətdiyi bu cinayətlər və həyata keçirdikləri işğalçılıq siyasəti ümummilli liderimiz Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda tam əksini tapıb və bunun sayəsində soyqırımına siyasi və hüquqi qiymət vermək imkanı yaranıb.

Tədbirə rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yekun vurub.

**Nərmin CABBAROVA**

## Azərbaycan Dövlət Pedaqoji Kollecində



Martın 30-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Tarixin bir günü və ya bir günün tarixi" adlı tədbir keçirilib.

Öncə tədbir iştirakçıları kollecin foyesində tələbələrin 31 mart soyqırımına həsr olunmuş rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbir Dövlət himnimizin ifası və faciə qurbanları xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov çıxış edərək ermənilərin zaman-zaman xalqımıza qarşı həyata keçirdikləri soyqırımları, etnik təmizləmə və deportasiya siyasəti barədə məlumat verib. Qeyd olunub ki, mənfur qonşularımız tarix boyu "böyük Ermənistan" xülyası ilə yaşayıb və hər zaman torpaqlarımıza göz dikiblər. Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın xalqımızın tarixinə qanlı hərflərlə yazılıb.

1918-ci il 31 mart soyqırımından bəhs edən Qulu Novruzov bildirib ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla ilk dəfə dövlət səviyyəsində bu qətliama siyasi qiymət verilib. Qeyd olunub ki, Azərbaycan xalqı hər il 31 mart soyqırımını qeyd etməklə, bir daha tarixi keçmişə qayıdır və xalqımıza qarşı açıq-aşkar həyata keçirilən soyqırımı qurbanlarının xatirəsini ehtiramla anır.

Çıxış edənlərdən Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, BDU-nun dosenti Boran Əziz Azərbaycan tarixində, hətta dünya miqyasında erməni daşnaklarının törətdiyi bu cinayətləri kəskin tənqid edib, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu faciələrin anılmasının vacibliyini vurğulayıblar.

Tədbirdə kollecin Humanitar fənn birləşməsinin müəllimi Nadiri Hümeyrənin "1918-1920-ci illərə baxış", tarix müəllimləri Gülnarə Sadıqova və Elnarə Əmirovanın "31 mart soyqırımının dünya ictimaiyyətinə çatdırılması yönümündə dövlətimizin rolu" mövzularında məruzələri dinlənilib.

Tədbirdə daha sonra kollecin tələbələrinin hazırladıqları soyqırıma həsr olunmuş səhnəcik və bədii kompozisiya təqdim edilib.

# Azərbaycanlı müəllimlər Londonda

Bu günlərdə Təhsil Nazirliyi və "British Council"un birgə əməkdaşlığı, BP və onun Cənubi Qafqaz Boru Kəməri (CQBK) layihəsindəki tərəfdaşları tərəfindən maliyyələşdirilən "İcmalar üçün ingilis dili" layihəsi çərçivəsində respublikamızın ümumtəhsil müəssisələrində dərs deyən bir qrup ingilis dili müəllimi London şəhərində səfərdə olub. Səfər çərçivəsində müəllimlər 7 günlük təlimlərdə iştirak ediblər. Səfərin əsas məqsədi Böyük Britaniya ekspertlərinin təcrübəsini və mövcud müasir tədris resurslarından istifadə qaydasını öyrənərək qarşılıqlı müzakirələrdə iştirak etmək, ümumtəhsil müəssisələrində dərs deyən ingilis dili müəllimlərinin peşəkar inkişafına nail olmaq idi. Səfərdə Təhsil Nazirliyinin əməkdaşı Orxan Abbasov, "British Council" təşkilatının layihə meneceri Flora Poladova ilə birgə Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından 10 ingilis dili müəllimi iştirak edib.

Qeyd edək ki, müəllimlər üçün təlimlər təcrübəli və peşəkar təlimçilər tərəfindən aparılıb. Təlim prosesində dərsin planlaşdırılması, müvafiq tədris resurslarının seçilməsi, müasir öyrənmə və tədris metodologiyaları, pedaqoji prosesin idarə edilməsi, praktik tədris bacarıqlarına yiyələnmə və digər sahələr üzrə müəllimlərə kompetensiyalar aşılanıb. Təlim səfərinin özəl cəhətlərindən biri də hər bir müəllimin ingilis ailələrində qalması, həmin ailələrdə onlar üçün şəraitin təmin edilməsi, ingilis dili daşıyıcıları ilə birbaşa ünsiyyət imkanlarının yaradılması olub. Müəllimlər bir həftə müddətində ingilis ailələrində yaşamaqla həmin xalqın adət-ənənəsi və mədəniyyəti ilə tanış olub. Eyni zamanda onlar həmin ailələrə Azərbaycan mədəniyyəti və milli dəyərləri barədə də ətraflı məlumatlar veriblər.

Oxucularımıza Londonda olan müəllimlərdən bir neçəsinin səfər təəssüratlarını təqdim edirik.

## Təlimlərdə iştirak edən müəllimlərin səfər təəssüratları



### Təlimdə öyrəndiklərimi dərslərimdə tətbiq edəcəyəm

**Aytəkin Qəhrəmanova,** *Goranboy rayonu Yalpaq kənd tam orta məktəbinin ingilis dili müəllimi:* - Bu səfər mənim həyatımda xüsusi yeri olan, gələcək inkişafıma təkan verən bir səfər idi. Yüksək səviyyədə keçirilən təlimdə iştirak etdiyim üçün özümü şanslı hesab edirəm. Düşünürəm ki, Londona getmək hər bir rayon müəlliminin arzusudur. Təbii ki, getdiyimiz yerləri uşaqlıqdan ancaq məktəb dərsliklərində, şəkillərdən görmüşdüm. Şəhəri görmək, tarixi yerləri gəzmək, oradakı insanlarla ünsiyyətdə olmaq mənim üçün tamamilə başqa hisslər idi. Təlimlərimiz də çox yüksək səviyyədə keçirdi. Mark Smith və Vittorio Palossi tərəfindən keçirilən təlimlərdə çox məlumatlar əldə etdik. Onların təlim metodları çox yaxşı idi. Təlimdə əsasən dərslərin planlaşdırılması və daha da maraqlı olması üçün lazımi məlumatlar öyrəndik. Səfər müddətinin qısa olmasına baxmayaraq bir çox insanlarla ünsiyyətdə olduq ki, bu da bizim dil bacarıqlarının daha mükəmməlləşməsinə kömək etdi. Düşünürəm ki, təlimdə öyrəndiklərimi dərslərimdə tətbiq edəcəyəm. Bu imkanı bizə yaratdığına görə Təhsil Nazirliyinə və digər aidiyyəti qurumlara minnətdarlığımı bildirirəm.

### Yeni təlim metodları bizim üçün çox faydalı olacaq

**Leyla Məmmədova,** *Tovuz rayonu M.Novruzov adına Çeşməli kənd tam orta məktəbinin ingilis dili müəllimi:* - Böyük Britaniyada olmaq uşaqlıq arzum idi. Big Beni, Temza çayını, Trafalqar meydanını yalnız şəkillərdə və ekranda görən bir insan üçün bundan böyük xoşbəxtlik ola bilməzdi. Peşəmin ingilis dili müəllimliyi olması bu arzumu reallaşdırmağa daha da can atmağıma bir səbəb idi. Təhsil Nazirliyinə və BP şirkətinə bizə bu arzumuzu gerçəkləşdirməyə imkan yaratdığı üçün sonsuz təşəkkürümü bildirirəm. Londonda olduğum qısa bir müddətdə təlim metodlarını professional müəllimlərdən mənimsədim. Orada gördüyüm yeni təlim metodlarının biz gənc müəllimlər üçün çox faydalı olacağına əminəm. Düşünürəm ki, əldə etdiyim bilikləri müəllim yoldaşlarıma və əhatəmdə olan digər pedaqoji işçilərə də çatdırım. Müəllimlərimizin bu metodlardan istifadə etməsi çox səmərəli olar. Hazırda əldə etdiklərim bilikləri öz şagirdlərimə tətbiq etmək üçün çox səbirsizlənirəm. Londonda evində qaldığım ailədən də çox raziyam və onlarla əlaqələrimi davam etdirmək fikrindəyəm.

### Dərslər əsasən müzakirələr şəklində aparılırdı

**Nurlana Həsənova,** *Samux şəhər 5 nömrəli tam orta məktəbin direktoru:* - Biz 19-26 mart tarixlərində Böyük Britaniyanın paytaxtı Londonda yerləşən Wimbledon ingilis dili məktəbində təlimlərdə iştirak etdik. Səfərimiz çox səmərəli keçdi. Təlim müddətində dil bacarıqlarımızın inkişaf etdirilməsi məqsədilə bizi yerli ailələrdə yerləşdirdilər. Nəzərə çatdırım ki, həmin ailələr məktəblə sıx əlaqədə olan və sınanmış ailələr idi. Onlar bizə qarşı çox isti, mehriban münasibətdə idilər. Həmin ailələr öz evlərində bizə ayrıca otaq ayırdılar. Problemlərimizi çəkinmədən onlara söyləməyimizi xahiş etdilər. Biz çalışırdıq ki, həmin ailələrin üzvləri ilə daha çox söhbətləşək. Çünki bu bizim dil bacarıqlarımızın və vərdişlərimizin inkişafına müsbət təsir edirdi. Təlimlərə gəldikdə isə onu deyə bilərəm ki, bu qısa müddət ərzində biz çox şeylər öyrəndik. Şagirdlərin qiymətləndirilməsi və onun metodları, tədris prosesində hansı üsullardan istifadə etməklə daha yaxşı nəticəyə nail olunması və sair kimi məsələlər məndə xüsusi maraq oyatdı. Təlimlər çox əyləncəli keçirdi. Vaxtın necə keçdiyini hiss etmirdik. Dərslər əsasən diskussiya və müzakirələr şəklində aparılırdı. Təlimlərdə müxtəlif xalqların mədəniyyəti, təhsil sistemi müqayisəli şəkildə müzakirə olunurdu. Düşünürəm ki, səfərdə əldə etdiyim biliklər gələcək fəaliyyətimdə mənə stimul verəcək. Belə bir səfərin təşkil olunmasına görə Təhsil Nazirliyinə və digər təşkilatçılara xüsusi minnətdarlığımı bildirirəm.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*

# BŞTİ-də könüllülərə arayış təqdim olunub

Martın 30-da Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) üçüncü könüllülük proqramında iştirak etmiş 35 gəncə arayışlar təqdim olunub.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva ölkəmizdə könüllülük proqramının geniş vüsət aldığını qeyd edib. İdarə müdiri könüllüləri təbrik edərək onların fəaliyyətinin yaddaqalan və səmərəli olduğunu söyləyib, hansı sahədə çalışmalarından asılı olmayaraq, könüllülərin uğur qazanacaqlarına inandığını bildirib.

Çıxışı zamanı M.Vəliyeva qeyd edib ki, üçüncü könüllülük proqramı çərçivəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinə 540 nəfər müraciət edib. Onlardan müvafiq meyarlar əsasında 250 nəfər müsahibəyə çağırılıb və 35 nəfər müsahibədən müsbət nəticə əldə edib.



Seçimlərin nəticələrinə uyğun olaraq, 28 nəfər BŞTİ-nin müvafiq sektorlarında və 7 nəfər isə xidmət bölmələrində fəaliyyətə başlayıb. İndiyədək BŞTİ tərəfindən həyata keçirilmiş ilk könüllülük proqramında 15, ikinci proqram əsasında 26, üçüncü könüllülük proqramında isə 35 nəfər müxtəlif sektorlarda və xidmət bölmələrində fəaliyyət göstəriblər. Onlardan 11 nəfəri hazırda BŞTİ-nin əməkdaşı kimi çalışır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsində onlara göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edən gənclər, könüllü kimi 3 aylıq fəaliyyətləri dövründə öz ixtisasları üzrə və ümumi dünyagörüşlərinin inkişafı baxımından müsbət təcrübə qazandıqlarını nəzərə çatdırıblar.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq 3 ildir ki, könüllü əsaslarla çalışmaq arzusunda olan gənclərlə əməkdaşlıq edir.

İntizamlı, xoşrəftar, kollektivdə çalışmağı bacaran, xarici dil biliklərinə malik, ali təhsilli və ya ali təhsil müəssisələrinin son kursunda oxuyan gənclər BŞTİ-nin müxtəlif sektorlarında 3 ay təcrübə keçmək imkanı qazanıblar.

# "Ən yaxşı təqdimat" müsabiqəsi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ümumi təhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilir.

Müsabiqənin keçirilməsində əsas məqsəd müstəqil Azərbaycanın memarı Heydər Əliyevin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirməkdən ibarətdir.

Təhsil nazirinin əmrinə əsasən təşkil edilən müsabiqə rayon (şəhər), ölkə üzrə olmaqla, 2 mərhələdə IX-XI sinif şagirdləri arasında keçirilir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəblərindən 49 təqdimat müsabiqənin şəhər mərhələsinə seçilib. Onlardan 12-si müsabiqənin respublika mərhələsinə vəsiqə qazanıb.



Müsabiqənin aprel ayında keçiriləcək ölkə mərhələsində iştirakçıların çıxışı maksimum 10 balla qiymətləndiriləcək. Qiymətləndirmə təqdimatçının sərbəstliyi, nitqinin səlisliyi, ardıcıllığı, ifadəliliyi, lüğət ehtiyatının zənginliyi, ulu öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti barədə dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi, irəli sürülən fikirlərin faktlarla əsaslandırması, ulu öndərin vətən və xalq qarşısında xidmətləri barədə şəxsi mülahizələrini bildirməsi, ədəbi-bədii nümunələrə müraciət etməsi, təqdimatı müəyyən olunmuş müddətdə başa çatdırması və digər meyarlara əsasən aparılacaq.

# "Alternativ enerji" mövzusunda tədbirlər

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində "Ekoloji aylıqlar" layihəsi çərçivəsində tədbirlər davam edir.

Layihə çərçivəsində mart ayı ümumi təhsil məktəblərində "Alternativ enerji" mövzusuna həsr olunub. Mövzunun reallaşdırılması baxımından təhsil müəssisələrinə sərbəstlik verilib.

Mövzunun seçilməsində əsas məqsəd şagirdlərin diqqətini alternativ enerji mənbələrinə yönəltmək, onları bu barədə daha geniş şəkildə maarifləndirməkdən ibarətdir.



Bakı şəhərinin 12 inzibati rayonunun hər birində pedaqoji kollektiv və məktəblilər tərəfindən "Alternativ enerji" mövzusu üzrə elmi konfrans, müsabiqə, yarış, "açıq dərs" və sərgilər keçirilir, araşdırmalar aparılır. Bundan başqa, məktəblilərin Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi, Pirallahı Günəş Enerjisi Stansiyası, Qobustandakı Dünyada ilk Günəş, Külək, Bioqaz, Hibrid elektrik stansiyasına ekskursiyaları da təşkil edilib.

# "Mənim sevimli müəllimim"

"Məktəblinin dostu" layihəsinə daxil olan məktəblər arasında "Mənim sevimli müəllimim" şeir müsabiqəsi keçirilir.

Şeir müsabiqəsinin keçirilməsində əsas məqsəd məktəblərdəki istedadlı şagirdləri üzə çıxarmaq, müəllim peşəsinin dəyərini şagirdlərin dilindən ifadə olunmasını təcəssüm etdirmək və məktəblilərin asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmaqdan ibarətdir.

Layihəyə daxil olan 30 ümumi təhsil məktəbinin şagirdləri qeyd olunan mövzuda öz yazdıqları şeirləri videoçarx şəklində hazırlayaraq təhsil aldıqları məktəbdəki "Məktəblinin dostları"na təqdim edirlər. Seçilən bir videoçarx məktəb adından müsabiqəyə daxil olur və "Məktəblinin dostu"nun rəsmi "Facebook" səhifəsində yerləşdirilir.

Qeyd edək ki, ilk mərhələdə ən çox baxılan 10 videoçarx seçiləcək və münsiflər heyətinə təqdim olunacaq (baxış sayları bərabər olduğu təqdirdə "like"-lərin sayı nəzərə alınacaq).

İkinci mərhələdə münsiflər heyəti tərəfindən dəyərləndirmə əsasında qalib seçiləcək. Qaliblər şeirin bədii gözəlliyinə, səsləndirməyə, videoçarxın keyfiyyətinə və çəkiliş üslubuna görə dəyərləndiriləcək.

Martın 7-dən start verilən müsabiqə aprelin 14-nə kimi davam edəcək.

Qeyd edək ki, Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə həyata keçirdiyi "Məktəblinin dostu" pilot layihəsinin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlərin aparılmasını əhatə edir. Bununla yanaşı, "Məktəblinin dostu" seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər. Hazırda Bakı şəhəri üzrə 30 ümumi təhsil müəssisəsini əhatə edən "Məktəblinin dostu" pilot layihəsi üzrə 112 nəfər əməkdaş çalışır.

# Layihə çərçivəsində görüş

"Uğur üçün tədris" (SPEX) layihəsinin ilk mərhələsi olan Dil Təkmilləşdirmə təlimləri ilə bağlı görüş keçirilib.

Görüşdə "Uğur üçün tədris" layihəsinin koordinatorları və layihəyə cəlb olunan məktəb rəhbərləri iştirak ediblər.

Görüşdə 3 ay davam edən təlimlərdə müəllimlərin peşəkar inkişafı, təlim nailiyyətlərinin qiymətləndirilməsi, təlim mərkəzlərinin imkanları barədə ümumi təhsil məktəblərinin rəhbərləri ilə müzakirələr aparılıb. Bundan başqa, layihə barədə məktəb rəhbərlərinin təəssürat, rəy və təklifləri dəyərləndirilib, onların müvafiq tələblərə uyğunluğu müzakirə edilib. İclasda bildirilib ki, Dil Təkmilləşdirmə təlimlərinin həyata keçirilməsində əsas məqsəd müəllimlərin ingilis dilində danışıq səriştəsinin artırılması, danışığın tədrisi və qiymətləndirilməsi qabiliyyətinin təkmilləşdirilməsindən ibarət olub.

Layihə koordinatorları aprel ayından start götürəcək layihənin növbəti mərhələsi olan metodologiya təlimlərinin mahiyyəti, təlim cədvəlləri, təlimlərdə əldə olunan nəzəri biliklərin dərslərdə tətbiqi mexanizmləri barədə məlumat veriblər.

Qeyd edək ki, "Uğur üçün tədris" (SPEX) layihəsi Bakı Şəhəri üzrə Təhsil İdarəsi, "British Council" təşkilatı və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

**www.baku.edu.gov.az**

# "Hər bir tələbə dərs saatlarını, fənləri, müəllimləri özü seçir"

## Kanadanın Vaterloo Universitetinin tələbəsi Leyli Məmmədzadə ilə söhbət



Leyli Məmmədzadə 1997-ci il iyunun 30-da Bakı şəhərində anadan olub. 2003-2014-cü illərdə Bakı Avropa Liseyində təhsil alıb. 2014-cü ildə liseyi bitirdikdən sonra 3 ali məktəbdən – Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Kanadanın Toronto və Vaterloo universitetlərindən qəbul təklifi alıb. O, təhsil alacağı ali məktəb kimi Vaterloo Universitetini seçib. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Kanadanın Vaterloo Universitetinin riyaziyyat fakültəsinin kompüter elmləri ixtisasında təhsil alır, III kurs tələbəsidir. Leyli Məmmədzadə ilə söhbətimizə orta məktəb illərindən başladıq.

### "Müəllimlərim mənə böyük dəstək olublar"

Bakı Avropa Liseyində təhsil aldığım illərdə müəllimlərim mənə böyük dəstək olublar. Onlardan Nabat Xələfovanın (ingilis dili), Züleyxa Abbasovanın (Azərbaycan dili), Viktoriya Nazarovnanın (FAT, fənlərarası təhsil), Gülnarə Səmədovanın (kimya), Yuliya Gennadyevanın (fizika), Sevinc Şükürovanın (coğrafiya), Təranə Həşimovanın (riyaziyyat) adlarını böyük hörmət və ehtiramla çəkirəm. Onların verdikləri biliklər sayəsində mən məktəbdə təşkil olunmuş "Kiçik Akademiya"-nın müsabiqələrində dəfələrlə yüksək yerlər tutmuş, fransız, ingilis dilləri, digər fənlər üzrə olimpiada və müsabiqələrdə iştirakçı və qalib olmuşam.

Məktəb illərində ən yaddaqalan hadisələrdən biri də X sinifdə Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin keçirdiyi YLP (Gənc Liderlər Proqramı) müsabiqəsinin qaliblərindən biri kimi ABŞ-a səyahət oldu. Azərbaycanın müxtəlif bölgələrindən olan qaliblərlə birgə ABŞ-ın bir neçə ştat və şəhərlərində olduq, müxtəlif tədbirlərdə iştirak edərək Azərbaycanı tanıtmağa çalışdıq. Səyahətin ən unudulmaz məqamı – təbiətin möcüzəsi olan Böyük Kanyon oldu.

### "Valideynlərim mənim seçimimi dəstəklədilər"

İxtisas seçimimdə qardaşımın məsləhəti böyük rol oynadı. O, müasir həyatda kompüter elmlərinin danılmaz rolunu görür, bunu mənə də sübut edirdi. Qardaşım mənim ən böyük dostum və məsləhətçimdir. Bu ixtisas üzrə nüfuzlu universitetləri seçərkən Vaterloo Universitetinin ən yüksək pillələrdən birində olduğunu görərək oraya müraciət etdim, dəvət aldım. Valideynlərim mənim seçimimi dəstəklədilər. Xaricdə təhsil almaq arzumu reallaşdırmaq üçün "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na müraciət etdim. Dövlət Proqramı hər birimiz üçün son dərəcə geniş imkanlar açmışdır. Təhsil aldığım universitetdə dünyanın hər yerindən tələbələr var. Onlar azərbaycanlı gənclərin dövlətimizin dəstəyi ilə təhsil almasına çox heyrətlənir, hətta mənə həsəd və hörmətlə yanaşırlar. Dünyada tələbələrin bu cür Dövlət Proqramı ilə dəstəklənməsi istisna haldır.

Oxuduğum fakültə və ixtisas mürəkkəbdir, asudə vaxt demək olar ki, yoxdur. Olanda isə dostlarımla kinofilmlərə baxırıq, idmanla məşğul oluruq, tələbə şəhərciyinə gətirilən əyləncə məkanlarına baş çəkirik. Həmyerlim olan rəfiqəmlə Niaqara Şəlaləsinə səyahət də etmişik. Ən yaddaqalan məqamlardandır.

### "Müəllimlərin tələbələr tərəfindən qiymətləndirmə reytinqi var"

Kanadanın təhsil sisteminin üstünlükləri göz önündədir. Bu haqda bir qədər ətraflı danışmağa dəyər. Təhsilin hər bir aspekti: yataqxanalar, kitabxana, müxtəlif formada dərs vəsaitləri – istər çap, istərsə elektron variantlarda; professor – müəllim – köməkçi heyəti – hər şey sənin təhsilinə, inkişafına yönəlib. Professorlar, müəllimlərlə əlaqə həm onların qəbul vaxtı, əyani, həm də internetdə xüsusi portallarda və ya elektron poçt vasitəsilə həyata keçir. Bütün yaranan problemlərlə əlaqədar onlara müraciət edə bilərsən. Hətta öz müəllimin deyil, digər müəllim də sənə yardımçı ola bilər. Xüsusi saatlarda yuxarı kurs tələbələri müəllimlərin köməkçisi vəzifəsində işləyərək məsləhət verir, praktiki kömək göstərirlər. Hər bir tələbə dərs saatlarını, fənləri, müəllimləri özü seçir, özünə cədvəl tərtib edir. Müəllimlərin tələbələr tərəfindən qiymətləndirilmə reytinqi var.

Müəllimlər öz peşəsinin vurğunudur. Hər biri öz sahəsinin uğurlu peşəkarıdır. Onlardan birini – riyazi statistika müəllimim, həmyerlimiz professor İlham Axundovu xüsusi qeyd etmək istərdim. Məhz İlham müəllim Vaterloo Universitetinin Azərbaycanda ən nüfuzlu təbliğatçısı olmuş, ilk abituriyentlər onun sayəsində Dövlət Proqramı üzrə orada təhsil almışlar. İlham müəllim onlarla tələbə kimi mənim də sevimli müəllimlərimdəndir. O, azərbaycanlı tələbələrə həmişə dəstək olmuş, öz köməyini onlardan əsirgəməmişdir. Xanımı da çox qonaqpərvər, istiqanlı, mehribandır.

### Test və semestr imtahanları son dərəcə ciddi aparılır

Vaterloo Universitetinin bir özəlliyi də var: Kanadada ilk dəfə olaraq tələbəyə dərs ili ərzində ixtisası üzrə işləmək imkanı yaradılmışdır. Dərs ili 3 semestrdən ibarətdir. İşləməklə oxumaq təhsil formasını seçən tələbə bu semestrlərin ikisini təhsilə, birini isə işə həsr edə bilər. Bu zaman universitet iş tapmaqda məsləhətçi, yardımçı, hətta iş təklif edən ola bilər.

Semestr ərzində iki dəfə sessiya olur: orta və final. Orta sessiyanın nəticələri final sessiyasına təsir edir. Test və semestr imtahanları son dərəcə ciddi aparılır. Bütün məlumatlar kimi, hər bir tələbə üçün imtahanın keçiriləcəyi bina, otaq, sıra, yer xüsusi saytda qeyd olunur. İmtahan vərəqinin üzərində tələbə kartının məlumatları və fotoşəkil olur. İmtahana müəllimlər və köməkçilər nəzarət edirlər.

Universitetimizdə azərbaycanlı tələbə çox deyil. Asudə vaxtımız az olsa belə biz daim bir-birimizdən xəbərdarıq. Xüsusi günləri birgə qeyd etməyə çalışırıq. Ottava, Toronto, Vaterloo universitetlərinin azərbaycanlı tələbələri tərəfindən təşkil olunduğu "Xocalıya ədalət!" yürüşünü, Yeni il, Novruz bayramlarını qeyd edərdim.

Hər bir gənc kimi, mənim də arzularım tükənməzdir. Ən böyük arzum gərəkli insan olmaqdır. Seçdiyim peşə olduqca böyük imkanlara malikdir, hər bir sahənin inkişafında əhəmiyyətli rol oynayır. İstərdim ki, Vətənə, xalqa xidmət edim, öz əməyimlə mənə göstərilən böyük etimadı, dəstəyi doğruldum.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*

## Şagirdlər bir-birini daha yaxşı motivasiya edir



ABŞ-ın Miçiqan Universitetinin alimləri uşaqları oxumağa daha çox müəllimin və ya sinif yoldaşlarının motivasiya etməsini araşdırıblar. Alimlər eksperimentə tam təlim kursunu keçmiş və özlərini gənc mütəxəssislər kimi təqdim edən aktyorları cəlb ediblər. Təcrübələr gedişində müəyyən olunub ki, eyni sinfin şagirdləri bir-birini oxumağa müəllimlərdən daha yaxşı həvəsləndirirlər. Eyni sinifdə qonşu partada oturan şagirdin uğurları məktəblini müəllimlərin soyuq faktlarından daha çox ruhlandırır. Təhsilin əhəmiyyəti barədə şagirdlərə bir tərəfdən pedaqoqlar, digər tərəfdən dəvət edilmiş aktyorlar danışıblar. Məlum olub ki, şagirdlər müəllimlərin sözlərindən çox gənc mütəxəssislərin dəlillərinə etibar ediblər. Tədqiqatçıların fikrincə, bunun səbəbi odur ki, müəllimlər informasiyanı soyuq faktlar kimi şagirdlərə verirlər, sinif yoldaşları isə qeyri-formal söhbətdə məktəblilərə özünü müəyyən etməkdə, dost səviyyəsində isə təhsilin bütün üstünlüklərini göstərməkdə kömək edirlər. Gənc mütəxəssislərin təhsilin və karyera inkişafının əhəmiyyəti barədə söhbətləri məktəblilərə gələcəkdə onları nələrin gözlədiyini daha yaxşı anlamaqda kömək edib.

## Rusiya ali məktəblərində əcnəbi tələbələrin sayı artır



Rusiya ali məktəblərində təhsil alan əcnəbi tələbələrin sayı artır. Bu barədə Rusiya baş nazirinin müavini Olqa Qolodets ölkə ali məktəblərinin dünyanın nüfuzlu elm-təhsil mərkəzləri arasında rəqabət qabiliyyətliliyinin artırılması proqramının ("5-100") icrası üzrə şura iclasının nəticələrinə əsasən bildirib. "Universitetlərimizdə oxuyan əcnəbilərin sayı artıb. Ali məktəblərin hər birinin öz siyasəti var. Məsələn, Uzaq Şərq Universiteti tələbələrinin 17, Moskva Fizika Texnik İnstitutu tələbələrinin 12 faizini əcnəbilər təşkil edir. Ənənəvi prioritet ixtisaslar – informatika, fizikadır. Tələbələrin bir çoxu rus dilini öyrənir. Tədrisin bu cür sistemi bütün institutlarda inkişaf edir. Mühəndislik və texniki ixtisaslara üstünlük verənlər çoxdur", – deyə O.Qolodets bildirib. O qeyd edib ki, hazırda "5-100" proqramında 21 ali məktəb iştirak edir və dörd il ərzində təhsil müəssisələri sabit nəticələr göstərib: beş ali məktəb predmet reytinqi üzrə top-100-lüyə daxil olub. Rusiya ölkə təhsilinin nüfuzunun artmasına, dünya təhsil bazarında ali məktəblərinin tanınmasına can atır, çünki bu, qabaqcıl texnologiyaları dəstəkləməyə, iqtisadiyyatı inkişaf etdirməyə, gələcəkdə xarici tələbələrin cəlb edilməsinə yaxşı əsas verir.

Qeyd edək ki, "5-100" layihəsi 2020-ci ildə beş Rusiya ali məktəbinin dünyanın ən yaxşı 100 aparıcı universiteti arasına daxil olmasını nəzərdə tutur.

## İnformasiya savadlılığına həsr olunmuş infoqrafika hazırlanıb

UNECO informasiya və media-savadlılığına həsr edilmiş infoqrafikanı təqdim edib. İnformasiya mənbəyinin etibarlı olmasını necə müəyyən etmək olar? Qərəzli və neytral nöqteyi-baxış bir-birindən nə qədər fərqlənir? Təşkilatın hazırladığı infoqrafika informasiyanın inkişafını və media-savadlılığının aşağıdakı 5 əsas prinsipini ifadə edir: 1.Media, texnologiyalar, internet, kitabxanalar və informasiyanın təqdim olunmasının istənilən başqa forması kritik dərketmə və cəmiyyətin davamlı inkişafı üçün nəzərdə tutulmuşdur. Heç bir format başqalarına nisbətən daha əhəmiyyətli və ya az əhəmiyyətli deyil. 2.Hər bir insanın demək istədiyi nəsə var. Yeni biliklər və özünü ifadəetmə bütün insanlar üçün əlçatan olmalıdır. 3.Bütün biliklər heç də doğru və ya neytral deyil. İnformasiyanın istehlakçılarında onu anlamaq imkanı olmalıdır. 4.Hər bir insan yeni informasiyanı almaq və anlamaq istəyir. 5.İnformasiya və media-savadlılığı tədricən inkişaf edir. Bu, dinamik və mürəkkəb prosesdir. Materiallar beş dildə əlçatandır: ingilis, fransız, ispan, Çin və portuqal. Təşkilat informasiya savadlılığının inkişafı üzrə aktiv iş aparır. Belə ki, UNESCO-nun mütəxəssisləri məktəblilər üçün dərslərin planlarını hazırlayır, standartları təkmilləşdirir və müəllimlər üçün öyrədici təlimlər keçirlər.

## Kanadalı müəllim 1 milyon dollar aldı

Kanadanın əyalət Kvebek kəndindən olan müəllim Meqqi Makdonell "Müəllimlər üçün Dünya mükafatı"na (Global Teacher Prize) layiq görülüb. Dəyəri 1 milyon ABŞ dolları olan bu mükafatı müəllimlər üçün Nobel mükafatı da adlandırırlar. "Varkey GEMS Foundation" tərəfindən təsis olunmuş mükafat ildə bir dəfə təhsil sahəsində görkəmli xidmətləri olan müəllimlərə verilir. Qabaqcıl baxışlara malik, öz şagirdlərinə və onların ətrafındakılara ilham verən müəllimlər üçün nəzərdə tutulan mükafatın təqdimolunma mərasimi Dubayda keçirilib. Mükafatı almaq üçün keçirilən marafonun final mərhələsinə Pakistan, Böyük Britaniya, Yamayka, İspaniya, Almaniya, Çin, Keniya, Avstraliya və Braziliyadan 10 müəllim qatılıb. Qalibin adını Yerlə yaradılmış videobağlantı gedişində fransız astronavtı Tomas Paske açıqlayıb. Mükafatı qalibə Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, baş naziri Şeyx Məhəmməd bin Rəşid Əl Maktum təqdim edib. Meqqi Makdonell altı il ərzində Arktikanın uzaq Saluit kəndində müəllimlik edib. Bu kəndə yalnız hava nəqliyyatı ilə çatmaq olar. Ətraf mühitdən təcrid olunmuş və kəskin iqlim mühitinə malik kənddə müəllimliyi dövründə Meqqi bir neçə təlim proqramı hazırlayıb, yerli gənclər üçün idman zalı açıb.

## Abel mükafatı fransalı alimə verildi

Fransanın Ali Normal Məktəbinin professoru İv Meyer Norveç Elmlər Akademiyasının təsis etdiyi Abel mükafatına layiq görülüb. Elmi dairələrdə "Riyaziyyat üzrə Nobel mükafatı" hesab olunan Abel mükafatı riyaziyyat alimləri üçün ən yüksək elmi nailiyyət hesab olunur.

Mükafatın builki sahibi 1939-cu ildə Tunisdə fransız ailəsində doğulub. Onun bütün işləri riyazi funksiyaların tədqiqinə həsr olunub. Ötən əsrin 70-ci illərində İv Meyer riyaziyyatın harmonik analiz – nisbətən sadə dalğalarda siqnalları və mürəkkəb funksiyaları öyrənən sahəsi ilə maraqlanıb. Bu həvəs onu riyazi funksiyaların – veyvletlər nəzəriyyəsinin kəşfinə gətirib çıxarıb. Bu nəzəriyyə məlumatların müxtəlif tezlik komponentlərini təhlil etməyə imkan verir, qravitasiya dalğalarının aşkar edilməsi, kompüter elmləri, məlumatların saxlanılması, təsvirlərin işlənmələri üçün praktik əhəmiyyət daşıyır. 77 yaşlı Meyer altı milyon Norveç kronu (təxminən 710 min ABŞ dolları) alacaq.

**Oruc MUSTAFAYEV,** *"Azərbaycan müəllimi"*

*xarici mətbuat materialları əsasında*

# Asiya qitəsinin ən yaxşı universitetlərinin reytinqi

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*

Böyük Britaniyanın təhsil xidmətləri sahəsində ixtisaslaşmış nüfuzlu konsaltinq şirkəti olan "Times Higher Education" (THE) Asiya qitəsinin ən yaxşı universitetlərinin növbəti reytinqini (Asia University Rankings 2017) dərc edib. Tədqiqatçılar tərəfindən siyahının tərtib edilməsi prosesində qitənin 300 ali məktəbi təhlil olunub. Ekspertlər ali məktəblərin fəaliyyətini qiymətləndirərkən tədrisin keyfiyyəti, beynəlxalq tələbə və müəllim mobilliyi, akademik nüfuz, elmi məqalələrdən sitatgətirilmə, elmi tədqiqatlardan əldə olunan gəlirlər, təhsil xidmətlərinin səviyyəsi və s. kimi 13 kriteriyaya əsaslanıblar.

Sinqapur Milli Universiteti (National University of Singapore) ikinci ildir ki, ardıcıl surətdə qitənin ən yaxşı universitetlərinin siyahısına başçılıq edir. Çinin Pekin Universiteti (Peking University) əvvəlki kimi ikinci yeri tutur, ötən il sıralamada beşinci yerdə olan Tsinxua Universiteti (Tsinghua University) bu il üçüncü mövqedə qərarlaşıb. Yaponiya əvvəlki kimi reytinqdə təqdim edilmiş universitetlərin sayına görə liderdir. Gündoğar ölkə reytinqdə 69 universitetlə təmsil olunub. Bununla belə, Yaponiya ali məktəblərinin əksəriyyəti keçən illə müqayisədə builki reytinqdə öz mövqelərini itirib. Əksinə, Çin, Honkonq və Hindistanın universitetləri sıralamada daha yüksək mövqeləri tuturlar. Reytinqdən göründüyü kimi, Malayziya, İndoneziya, Pakistan və Tailand gələcəkdə Çin və Cənubi Koreya kimi Asiyada ali təhsilin aparıcı mərkəzləri ola bilərlər. Türkiyə 100-lükdə 6 universitetlə təmsil olunub. Onlardan Koç Universiteti reytinqdə daha yaxşı mövqedə, 28-ci yerdədir. Reytinqlə daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings* səhifəsindən tanış olmaq olar.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə - müəllim nisbəti | Beynəlxalq tələbələr, faizlə | Qadın-kişi nisbəti |
|---|---|---|---|---|---|---|
| 1. | National University of Singapore | Sinqapur | 31111 | 16.7 | 32% | 50 : 50 |
| 2. | Peking University | Çin | 42977 | 8.8 | 15% | 48 : 52 |
| 3. | Tsinghua University | Çin | 41537 | 14.1 | 10% | 32 : 68 |
| 4. | Nanyang Technological University | Sinqapur | 25278 | 16.1 | 32% | 49 : 51 |
| 5. | University of Hong Kong | Honkonq | 20095 | 17.8 | 39% | 51 : 49 |
| 6. | Hong Kong University of Science and Technology | Honkonq | 11960 | 27.3 | 38% | əks olunmayıb |
| 7. | University of Tokyo | Yaponiya | 26080 | 7.0 | 10% | əks olunmayıb |
| 8. | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya | 9327 | 9.5 | 9% | 20 : 80 |
| 9. | Seoul National University | Cənubi Koreya | 26777 | 13.1 | 11% | 40: 60 |
| 10. | Pohang University of Science and Technology | Cənubi Koreya | 3017 | 10.0 | 4% | 22 : 78 |
| 11. | Chinese University of Hong Kong | Honkonq | 18433 | 10.5 | 27% | əks olunmayıb |
| 12. | City University of Hong Kong | Honkonq | 9871 | 11.6 | 30% | 52 : 48 |
| 13. | Sungkyunkwan University | Cənubi Koreya | 24791 | 19.1 | 10% | əks olunmayıb |
| 14. | Kyoto University | Yaponiya | 22547 | 5.5 | 7% | əks olunmayıb |
| 15. | University of Science and Technology of China | Çin | 14827 | 8.1 | 3% | əks olunmayıb |
| 16. | Fudan University | Çin | 32449 | 12.1 | 11% | 50 : 50 |
| 17. | Hong Kong Polytechnic University | Honkonq | 21907 | 25.6 | 25% | 54 : 46 |
| 18. | Shanghai Jiao Tong University | Çin | 36535 | 12.3 | 6% | 41 : 59 |
| 19. | Zhejiang University | Çin | 47845 | 15.2 | 5% | 41 : 59 |
| 20. | Korea University | Cənubi Koreya | 22739 | 15.5 | 16% | 42 : 58 |
| 21. | Hebrew University of Jerusalem | İsrail | 17709 | 10.8 | 5% | 57 : 43 |
| 22. | Tel Aviv University | İsrail | 23663 | 24.0 | 4% | əks olunmayıb |
| 23. | King Abdulaziz University | Səudiyyə Ərəbistanı | 37178 | 8.3 | 21% | 55 : 45 |
| 24. | National Taiwan University | Tayvan | 31581 | 11.6 | 8% | 40 : 60 |
| 25. | Nanjing University | Çin | 34784 | 15.7 | 9% | 42 : 58 |
| 26. | Tohoku University | Yaponiya | 17349 | 5.4 | 9% | 26 : 74 |
| =27. | Indian Institute of Science | Hindistan | 3398 | 8.3 | 1% | 20 : 80 |
| =27. | Koç University | Türkiyə | 4793 | 14.6 | 10% | 52 : 48 |
| 29. | Yonsei University | Cənubi Koreya | 22469 | 11.9 | 20% | əks olunmayıb |
| 30. | Tokyo Institute of Technology | Yaponiya | 9587 | 7.4 | 13% | 13 : 87 |
| 31. | Gwangju Institute of Science and Technology | Cənubi Koreya | 1575 | 10.7 | 7% | 23 : 77 |
| 32. | Osaka University | Yaponiya | 23087 | 7.6 | 9% | 30 : 70 |
| =33. | National Tsing Hua University | Tayvan | 10260 | 13.6 | 6% | 33 : 67 |
| =33. | Sabancı University | Türkiyə | 2999 | 17.7 | 8% | 39 : 61 |
| 35. | Nagoya University | Yaponiya | 15619 | 8.0 | 10% | 29 : 71 |
| 36. | Kyung Hee University | Cənubi Koreya | 23692 | 17.3 | 16% | 47 : 53 |
| 37. | Technion Israel Institute of Technology | İsrail | 13926 | 19.8 | 4% | 35 : 65 |
| 38. | Hanyang University | Cənubi Koreya | 21629 | 14.1 | 15% | əks olunmayıb |
| 39. | National Chiao Tung University | Tayvan | 12609 | 17.1 | 6% | 27 : 73 |
| 40. | Toyota Technological Institute | Yaponiya | 505 | 11.2 | 3% | 7 : 93 |
| 41. | National Taiwan University of Science and Technology | Tayvan | 8070 | 19.0 | 11% | 31 : 69 |
| 42. | Indian Institute of Technology Bombay | Hindistan | 9207 | 16.3 | 1% | 17 : 83 |
| =43. | University of Macau | Makao | 8981 | 14.6 | 33% | 58 : 42 |
| =43. | Veltech University | Hindistan | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| 45. | Kyushu University | Yaponiya | 18650 | 6.6 | 12% | 29 : 71 |
| 46. | Bilkent University | Türkiyə | 9761 | 14.1 | 4% | 46 : 54 |
| =47. | National Cheng Kung University | Tayvan | 21157 | 14.3 | 11% | 36 : 64 |
| =47. | Sun Yat-sen University | Çin | 51866 | 16.9 | 8% | 51 : 49 |
| =49. | Hong Kong Baptist University | Honkonq | 11038 | 11.1 | 29% | 62 : 38 |
| =49. | Wuhan University | Çin | 49152 | 14.0 | 7% | əks olunmayıb |



Sinqapur Milli Universiteti


Pekin Universiteti


Tsinxua Universiteti


Nanyanq Texnologiya Universiteti


Honkonq Universiteti

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 51. | Tokyo Medical and Dental University | Yaponiya | 2906 | 3.2 | 7% | 50 : 50 |
| 52. | Boğaziçi University | Türkiyə | 11555 | 25.6 | 7% | 50 : 50 |
| 53. | Ewha Womans University | Cənubi Koreya | 14989 | 14.2 | 10% | 100 : 0 |
| =54. | Indian Institute of Technology Delhi | Hindistan | 6926 | 13.8 | 1% | 19 : 81 |
| =54. | King Fahd University of Petroleum and Minerals | Səudiyyə Ərəbistanı | 6617 | 6.8 | 21% | 0 : 100 |
| =56. | King Saud University | Səudiyyə Ərəbistanı | 40404 | 13.4 | 7% | əks olunmayıb |
| =56. | University of Tsukuba | Yaponiya | 16271 | 12.6 | 17% | 38 : 62 |
| 58. | Hokkaido University | Yaponiya | 18055 | 8.1 | 9% | 29 : 71 |
| 59. | University of Malaya | Malayziya | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| 60. | Chung-Ang University | Cənubi Koreya | 12221 | 16.8 | 22% | 44 : 56 |
| 61. | Tongji University | Çin | 36432 | 13.6 | 12% | 38 : 62 |
| 62. | Indian Institute of Technology Madras | Hindistan | 8692 | 15.5 | 1% | 19 : 81 |
| 63. | Indian Institute of Technology Kanpur | Hindistan | 6513 | 16.7 | 1% | 14 : 86 |
| 64. | Atilim University | Türkiyə | 6394 | 27.2 | 8% | əks olunmayıb |
| 65. | Huazhong University of Science and Technology | Çin | 56211 | 17.1 | 4% | 35 : 65 |
| 66. | University of Ulsan | Cənubi Koreya | 14841 | 13.6 | 2% | 45 : 55 |
| 67. | China Medical University, Taiwan | Tayvan | 7810 | 16.4 | 9% | 53 : 47 |
| 68 | Bar-Ilan University | İsrail | 16974 | 15.1 | 5% | 59 : 41 |
| 69. | Tokyo Metropolitan University | Yaponiya | 9294 | 9.6 | 4% | 35 : 65 |
| 70. | Indian Institute of Technology Roorkee | Hindistan | 8134 | 14.2 | 1% | 17 : 83 |
| 71. | Sharif University of Technology | İran | 11177 | 18.4 | əks olunmayıb | 26 : 74 |
| =72. | China University of Geosciences (Beijing) | Çin | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| =72. | Soochow University | Çin | 43366 | 15.1 | 2% | 53 : 47 |
| =72. | Southeast University | Çin | 31983 | 11.7 | 4% | əks olunmayıb |
| 75. | Renmin University of China | Çin | 24859 | 11.7 | 6% | əks olunmayıb |
| 76. | Khalifa University of Science, Technology and Research | Birləşmiş Ərəb Əmirlikləri | 1047 | 8.7 | 22% | 49 : 51 |
| =77. | Harbin Institute of Technology | Çin | 31580 | 10.6 | 8% | 29 : 71 |
| =77. | Qatar University | Qətər Dövləti | 11844 | 18.7 | 43% | 72 : 28 |
| =79. | East China Normal University | Çin | 28674 | 13.4 | 11% | 64 : 36 |
| =79. | Istanbul Technical University | Türkiyə | 34649 | 16.6 | 5% | 33 : 67 |
| 81. | Xi'an Jiaotong University | Çin | 31851 | 11.0 | 4% | 33 : 67 |
| 82. | Tianjin University | Çin | 30103 | 12.1 | 1% | əks olunmayıb |
| 83. | United Arab Emirates University | Birləşmiş Ərəb Əmirlikləri | 7101 | 8.8 | 28% | 77 : 23 |
| 84. | East China University of Science and Technology | Çin | 23869 | 13.3 | 5% | 38 : 62 |
| 85. | American University of Beirut | Livan | 7836 | 8.8 | 23% | 52 : 48 |
| 86. | Xiamen University | Çin | 42210 | 15.6 | 4% | 49 : 51 |
| 87. | Indian Institute of Technology Kharagpur | Hindistan | 10586 | 17.6 | əks olunmayıb | 16 : 84 |
| 88. | National Taiwan Normal University | Tayvan | 10752 | 12.9 | 23% | 56 : 44 |
| 89. | Ben-Gurion University of the Negev | İsrail | 16477 | 20.1 | 3% | 51 : 49 |
| 90. | Pusan National University | Cənubi Koreya | 24882 | 19.8 | 12% | 51 : 49 |
| 91. | Taipei Medical University | Tayvan | 6102 | 10.4 | 6% | 57 : 43 |
| =92. | Beihang University | Çin | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| =92. | Iran University of Science and Technology | İran | 12236 | 28.2 | əks olunmayıb | 29 : 71 |
| =92. | Isfahan University of Technology | İran | 9182 | 19.5 | 1% | 40 : 60 |
| 95. | Sogang University | Cənubi Koreya | 10494 | 23.9 | 5% | 42 : 58 |
| 96. | South China University of Technology | Çin | 41868 | 17.0 | 3% | 34 : 66 |
| 97. | Mahidol University | Tailand | 28665 | 7.7 | 3% | 63 : 37 |
| 98. | China Agricultural University | Çin | 18945 | 11.7 | 2% | 58 : 42 |
| =99. | National Sun Yat-Sen University | Tayvan | 9344 | 17.2 | 5% | 37 : 63 |
| =99. | Sejong University | Cənubi Koreya | 11622 | 16.4 | 4% | 45 : 55 |

# "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində 22 qalibi olan rayon

**Niyazi RƏHİMOV,** "Azərbaycan müəllimi"

Böyük Qafqazın cənub ətəklərində yerləşən, gözəl və saf təbiətə malik İsmayıllının zəngin tarixi keçmişi vardır. İsmayıllının bir sıra yaşayış məntəqələrinin inkişafı erkən orta əsrlərə təsadüf edir. Lahıc və Basqal orta əsrlərdə sənət və ticarət mərkəzləri kimi tanınmaqla yanaşı, həm də elm, təhsil, mədəniyyət mərkəzləri olmuşdur. Həmin yaşayış məntəqələrində fəaliyyət göstərmiş mollaxanalar və mədrəsələr haqqında kifayət qədər məlumatlar vardır. Ərazinin tarixində mühüm rol oynamış görkəmli şəxslər həmin təhsil müəssisələrinin yetirmələridirlər. XIX-XX əsrlərdə ölkə səviyyəsində tanınan elm, təhsil, mədəniyyət xadimləri sırasında İsmayıllı təhsilinin çoxsaylı yetirmələri olmuşdur. Bu gün də İsmayıllıda təhsil ənənələrinin uğurlu davamı rayonun təhsil işçilərinin ən böyük nailiyyətidir. Son illərdə rayonda təhsil yüksələn xətt üzrə inkişaf etdirilmiş, nəzərəçarpacaq kəmiyyət və keyfiyyət dəyişiklikləri qeydə alınmışdır. Hazırda İsmayıllı rayonunda 46 tam orta, 21 ümumi orta, 13 ibtidai məktəb, 5 məktəbdənkənar, 10 məktəbəqədər təhsil müəssisəsi, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci və Texniki Peşə Mərkəzi fəaliyyət göstərir. Məktəblərin 78-də təlim Azərbaycan dilində, 2-də isə Azərbaycan və rus dillərində aparılır. Rayon ümumtəhsil məktəblərində 12060 şagirdin təlim-tərbiyəsi ilə 1516 nəfər müəllim məşğul olur. Onların 1285 nəfəri ali, 231 nəfəri orta ixtisas təhsillidir.

## Maddi-texniki baza

Son beş ildə rayonda ümumi şagird yeri 1180 olan 11 yeni məktəb binası tikilərək istifadəyə verilmişdir. 8 tam orta, 1 ümumi orta, 1 ibtidai məktəbdə və rayon təhsil şöbəsinin inzibati binasında təmir işləri aparılmışdır. Hazırda Yenikənd ümumi orta məktəbi üçün modul tipli bina quraşdırılır. Rayon mərkəzində 140 uşaq yerlik yeni körpələr evi-uşaq bağçası binası tikilmiş, əvvəlki illərdə fəaliyyəti dayandırılmış uşaq bağçasının binası əsaslı təmir edilmiş və yenidən uşaq bağçası kimi fəaliyyətə başlaması üçün hazırlanmışdır. Şəhər 2 nömrəli və Sumağallı kənd uşaq bağçaları üçün yeni binalar tikilib istifadəyə verilmişdir.

## Tədrisin təşkili

Rayon təhsil şöbəsi fəaliyyət planına uyğun olaraq işini günün tələbləri səviyyəsində qurur. Bu məqsədlə RTŞ il ərzində çoxsaylı tədbirlər, elmi-praktik konfranslar, "dəyirmi masa"lar keçirir, müzakirələr təşkil edir. Rayon təhsil şöbəsi Metodik Kabinetinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası və Təhsildə Metodik xidmət", "Elektron dərslərin təşkili". "Müasir dərslərin qurulmasında İKT-nin rolu", "Gənclərin tərbiyəsində milli-mənəvi dəyərlərin rolu", "Müasir təhsil və ən yaxşı müəllim", "Məktəbəqədər təhsil müəssisələrində vətənpərvərlik hissinin aşılanması" mövzularında keçirdiyi elmi-praktik konfranslar yeniliklərin təhsil işçiləri tərəfindən öyrənilməsi baxımından əhəmiyyətli olmuşdur. Bundan başqa, RTŞ Metodik Kabineti tərəfindən dərs ili ərzində ayrı-ayrı qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilərək Metodik şurada müzakirəyə çıxarılması və rayon miqyasında yayılması təşkil edilir. Rayon təhsil şöbəsi gənc müəllimlərə qayğı ilə yanaşır, onların sosial problemlərinin həllinə xüsusi diqqət yetirir. Rayonda fəaliyyət göstərən "Gənc Müəllimlər Şurası"nın il ərzində keçirdiyi seminarlar, elmi-praktik konfranslar, müsabiqələr, "açıq dərs"-lər gənc müəllimlərin pedaqoji-metodiki biliklərinin, təcrübələrinin artırılmasına xidmət edir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin məktəbəhazırlıq mərhələsinə xüsusi yer verilmiş, bu sahənin inkişafı başlıca vəzifə kimi irəli sürülmüşdür. Rayonda bu vəzifənin yerinə yetirilməsinə məsuliyyətlə yanaşılmış, 51 qrupda 898 nəfər 5 yaşlı uşaq məktəbəhazırlıq qruplarına cəlb edilmişdir. Həmin qruplarda 51 müəllim uşaqların təlim-tərbiyəsi ilə məşğul olur.

Cari dərs ilində IX siniflərdə tədris fənn kurikulumları əsasında aparılır. Cari dərs ilində rayonun şəhər 1 və 5 nömrəli tam orta məktəblərində təhsilin təmayüllər üzrə aparılmasına başlanılmış, X siniflərdə tədris təmayüllər üzrə təşkil edilmişdir. Növbəti tədris ilində təmayülləşmə bütün X sinifləri əhatə edəcəkdir.

Müəllimlərin işə qəbulu Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş müsabiqə yolu ilə elektron proqram təminatı tətbiq edilməklə aparıldığından məktəblər daha bacarıqlı kadrlarla təmin olunur. Son 5 ildə rayonun ümumtəhsil məktəblərinə həmin qayda ilə 237 nəfər gənc müəllim təyin edilmişdir. 27-28 noyabr 2016-cı il tarixlərində İsmayıllı rayonu üzrə müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilmiş, onların 81.8%-i 30-dan yüksək bal toplamışdır.

Rayon təhsil şöbəsi məktəb rəhbərlərinin tərkibini daha da yaxşılaşdırmağı, yüksək savadlılığı ilə seçilən gəncləri məktəb rəhbərliyinə irəli çəkməyi daim diqqət mərkəzində saxlamışdır. Son 5 ildə Təhsil Nazirliyi tərəfindən belə gənclərdən 7 nəfər tam orta məktəblərə direktor vəzifəsinə təyin edilmişdir. Bu təyinatlardan keçən müddət ərzində onlar etimadları doğrultmuşlar.

Təhsilə dövlət qayğısı sayəsində rayon təhsilinin keyfiyyət göstəricilərində müsbət dinamika təmin edilmişdir.

Rayonun təhsil müəssisələrində istedadlı şagirdlərin aşkara çıxarılması məqsədilə zonalar üzrə "Əlaçı" intellektual yarışı keçirilmiş, qalib komandalar müəyyənləşdirilərək mükafatlandırılmışdır. Dərs ilinin sonunda rayonda istedadlı şagirdlərin hesabat xarakterli toplantısı keçirilmiş, nailiyyət qazanmış şagirdlər rayon təhsil şöbəsinin tərifnamələri və qiymətli hədiyyələri ilə mükafatlandırılmışdır. Cari ilin fevral ayında rayonda "Məktəb əlaçılığından həyat əlaçılığına" devizi altında əlaçı şagirdlərin I Forumu keçirilmiş, respublika əlaçılarına müraciət qəbul edilmişdir.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi məktəblərin qarşısında qoyulmuş mühüm vəzifələrdəndir. Bu sahədə aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, hərbi vətənpərvərlik yarışlarında bir qayda olaraq rayonun komandaları uğurlu nəticələr qazanırlar.

Rayonda sağlamlıq imkanları məhdud şagirdlərin təhsili, onların cəmiyyətə inteqrasiyası daim diqqətdə saxlanılır. Belə uşaqların cəmiyyətə inteqrasiyası üçün rayonda distant təhsilin tətbiqi istiqamətində müəyyən addımlar atılmış, maarifləndirmə işləri aparılmışdır.

Təhsildə qazandıqları müvəffəqiyyətlərə görə 2015-2016-cı tədris ilində rayonun 3 nəfər məzunu qızıl medalla təltif edilmişdir. Ümumiyyətlə, son 5 ildə təhsildə əldə etdikləri uğurlara görə rayon ümumtəhsil məktəblərinin 14 nəfər məzunu qızıl medala layiq görülmüşdür. Rayonun ümumtəhsil müəssisələri isə 22 dəfə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində qalib olmuşlar.

## Ali məktəblərə qəbul göstəriciləri

Ali məktəblərə qəbul imtahanlarında rayon abituriyentlərinin topladıqları orta bal 2013-cü ildə 246.7, 2014-cü ildə 248.8, 2015-ci ildə 264.2, 2016-cı ildə isə daha yüksək olmuşdur. Ali məktəblərə tələbə qəbulunda rayonun məzunları bir qayda olaraq yüksək nəticələr qazanırlar.

Aparılan məqsədyönlü işin məntiqi nəticəsidir ki, son 5 ildə rayonun ümumtəhsil məktəblərini bitirən məzunlardan 1474 nəfəri ali məktəblərə qəbul olmuşdur. Onlardan 321 nəfəri 500-dən yuxarı, 100 nəfəri isə 600-dən yüksək bal toplamışdır. Bundan başqa, qəbul imtahanlarında Ağalətif Lətifov maksimum nəticə göstərərək 700 bal toplamışdır. Qazandıqları yüksək nəticələrə görə Ağalətif Lətifov, Taleh Ağayev, Qəmər Qüdrətli, Ləman Abbasova, Əliqulu Əlili, Aygün Cəbiyeva, Aydan Ağazadə və Aqil Ələkbərov Prezident təqaüdünə layiq görülmüşlər.

Tələbə qəbulu imtahanlarında yüksək nəticə qazanan məzunların şərəfinə hər il rayonda geniş bayram tədbirinin keçirilməsi artıq ənənə halını almışdır.Tədbir zamanı ali məktəblərə 600-dən çox bal toplayaraq qəbul olan məzunlar mükafat və hədiyyələrlə təltif edilirlər.

## Müəllim uğuru

Məlumdur ki, İsmayıllı təhsilini daim önə daşıyan, bu ağır yükü üzərində hiss edən müəllimlərdir. Xüsusilə qeyd edək ki, rayon müəllimləri daim yeniliyə, innovasiyalara maraq göstərir, dərsləri müasir tələblərə uyğun olaraq keçirlər. Əldə etdikləri yüksək göstəricilərə görə rayonun 12 qabaqcıl müəllimi "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, 7 nəfər "Tərəqqi" medalı, 36 nəfər respublikanın "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir. Bundan başqa, 26 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur. Rayon müəllimləri respublikada keçirilən müsabiqələrdə yaxından iştirak edir, uğurlu nəticələr qazanırlar. Şəhər 5 nömrəli tam orta məktəbin müəllimi Sevinc Mirzəyeva Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və "Azərbaycan müəllimi" qəzeti redaksiyasının birgə keçirdiyi "Ən yaxşı yazı" müsabiqəsinin qalibi olmuşdur. Şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Bahar Abdullayeva Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəb icmaları arasında keçirdiyi müsabiqədə "Ən yaxşı sinif icmasının planı" nominasiyasında I yerə layiq görülmüşdür. Lahıc qəsəbə tam orta məktəbin fizika müəllimi Rövşən Əliyev bir sıra beynəlxalq simpozium və konfranslarda maraqlı mövzularda məruzələr etmişdir. O, kompüter proqramları üzrə beynəlxalq müsabiqədə qalib gələn 3 nəfərdən biri olmuşdur. Təhsil.TV Rövşən Əliyevə həsr olunmuş "Azərbaycan müəllimi" filmini lentə almış, filmin "Yarat" mərkəzində keçirilən təqdimatında təhsil naziri Mikayıl Cabbarov iştirak etmişdir. Rövşən Əliyev həmçinin ümumtəhsil məktəblərində "Fizika" dərsliklərinin müəlliflərindəndir.

Təhsil Nazirliyinin "Təhsil Menecerlərinin Peşəkar İnkişafı" layihəsi çərçivəsində keçirdiyi respublika müsabiqəsində rayonun müəllimləri fəal iştirak etmiş, Topçu kənd tam orta məktəbinin gənc riyaziyyat və informatika müəllimi Aynurə Məmmədova yüksək nəticə göstərməklə müsabiqənin qalibi olmuşdur.

## Məktəblilər olimpiada və müsabiqələrdə

İsmayıllı məktəbliləri respublikamızda keçirilən olimpiada, müsabiqə və yarışlarda uğurla iştirak edir. Təkcə 2011-2016-cı illərdə rayonun ümumtəhsil məktəblərinin 35 nəfər istedadlı şagirdi fənn olimpiadalarının respublika mərhələlərinin qalibləri sırasında yer tutmuşdur. Belə ki, 2015-ci ildə keçirilən fənn olimpiadalarının final mərhələsində Taleh Ağayev Azərbaycan tarixi, Cəmilə Məmmədova isə coğrafiya fənlərindən gümüş, Ağalətif Lətifov biologiya, Ülvi Məmmədov Azərbaycan tarixi, Vahab Cəbrayılov isə riyaziyyat fənlərindən bürünc medal qazanmışlar. Keçən tədris ilində isə şəhər 2 nömrəli tam orta məktəbin X sinif şagirdi Vaqif Talıbzadə coğrafiya fənnindən qızıl medal qazanmışdır. Ötən il eyni zamanda 4 nəfər şagird rus dili olimpiadasının qalibi olmuşdur. Cari dərs ilində isə fənn olimpiadalarının rayon mərhələsində uğur qazanan 134 nəfər şagird olimpiadaların yarımfinal mərhələsinə vəsiqə qazanmışdır.

Müsabiqə və yarışlara gəldikdə qeyd edək ki, akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Qələbəyə doğru" kuboku uğrunda intellektual bilik yarışmasında rayonun komandası bütün rəqiblərinə üstün gələrək kuboka sahib olmuşdur. Bundan başqa, "Ekoerudit" məktəblilərin Respublika ekoloji breyn-rinq bilik yarışında Təzəkənd kənd tam orta məktəbinin komandası I yeri tutmuşdur. Eyni zamanda rayonun 7 nəfər istedadlı şagirdindən ibarət komandası Təhsil Nazirliyinin Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin "Meşələri qoruyaq" devizi altında keçirdiyi Respublika müsabiqəsinin də qalibi olmuşdur.

"Ölkəmizi tanıyaq" VI maarifləndirici tur aksiyasında iştirak edən rayonların komandaları arasında Azərbaycan İntellektual Klublar Assosiasiyasının Quba şəhərində keçirdiyi "Nə? Harada? Nə zaman?" intellektual bilik yarışında rayonun 6 nəfər əlaçı şagirddən ibarət komandası I yeri tutmuş və yarışların kubokunu qazanmışdır.

Rayonun məktəbliləri respublika səviyyəli idman yarışlarında da yüksək nəticələr qazanmışlar. Şəhər 6 nömrəli məktəbin şagirdi Kənan Rəhimov ağır atletika üzrə "Zirvə" idman klubları arasında dünya çempionatında I yeri tutmuşdur. Şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Gülşən Allahverdiyeva 8 yaşadək qızlar arasında şahmat üzrə respublika birinciliyində qalib gələrək Çexiyanın paytaxtı Praqa şəhərində keçirilən Avropa çempionatında ölkəmizi təmsil etmişdir. Bundan başqa, 10-14 yaşlı qızlar arasında futbol üzrə respublika birinciliyində Hacıhətəmli kənd tam orta məktəbinin komandası 2015-ci ildə I, 2016-cı ildə isə II yeri tutmuşdur.

## Beynəlxalq əlaqələr

Təhsil sahəsində beynəlxalq əlaqələrin qurulmasında başlıca məqsədlərdən biri də dünyanın qabaqcıl ölkələrinin təcrübələrini öyrənmək, təcrübə mübadiləsi aparmaqdır. Bu sahədə "İKT-nin imkanlarından istifadə etməklə tədrisin keyfiyyətinin yüksəldilməsi, tərbiyə prosesində multikultural dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi yolları" mövzusunda Topçu kənd tam orta məktəbində keçirilən elmi-praktik konfrans daha əhəmiyyətli olmuşdur. Konfrans zamanı internet vasitəsi ilə dünyanın bir sıra ölkələrinin, o cümlədən Rusiya, Hindistan, Sudan, Gürcüstan məktəbləri ilə canlı bağlantı yaradılmış, fikir mübadiləsi aparılmışdır. Bundan başqa, Təhsil Nazirliyi ilə Fransa səfirliyinin birgə həyata keçirdiyi "Fransız dili müəllimlərinin peşəkar inkişafı və sertifikatlaşdırılması" layihəsi çərçivəsində Fransadan dəvət olunmuş mütəxəssis tərəfindən rayonun fransız dili müəllimləri üçün təlimlər keçirilmişdir. "Azərbaycan İngilis dili müəllimləri Birliyi" Təhsil Nazirliyinin dəstəyi ilə Türkiyənin təhsil mütəxəssisi rayon ümumtəhsil məktəblərində psixoloji xidmətin və məktəb-valideyn əməkdaşlığının təşkili ilə bağlı maarifləndirici seminarlar keçirmişdir.

18-20 noyabr 2016-cı il tarixlərində Fransanın Paris şəhərində keçirilmiş "İngilis dilinin tədrisində yeni zirvələri fəth edək" adlı illik TESOL konfransında şəhər 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Ruhiyyə Mahmudova "Effektiv dinləmə və tənqidi təfəkkür" mövzusunda məruzə etmişdir.

İsmayıllı rayonu ilə Yaponiyanın İto şəhəri arasında bağlanmış dostluq müqaviləsi çərçivəsində hər il məktəblilərin qarşılıqlı dostluq səfərləri təşkil edilir. Layihə çərçivəsində 2014-cü ildə RTŞ-ın müdiri, əməkdar müəllim Rasim Orucov 6 nəfər şagirdlə Yaponiyada səfərdə olmuş, gündoğan ölkə ilə yaxından tanış olmaqla "İto yay festivalı"nda iştirak etmişlər. Nəzərə çatdıraq ki, yaponiyalı qonaqlar da İsmayıllıya səfər etmiş, rayonla yaxından tanış olmuş və ölkələrinə xoş təəssüratlarla qayıtmışlar. Rayonun şəhər 1 nömrəli tam orta məktəbinin şagirdlərinə distant yolla yapon dilinin öyrədilməsi əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edir.













## "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsini daha da gücləndirmək məqsədilə ümumi təhsil müəssisələrinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə təhsil naziri tərəfindən imzalanmış müvafiq əmrə əsasən rayonun 4 nömrəli şəhər tam orta məktəbində müsabiqənin rayon mərhələsi keçirilib.

Müsabiqədə rayon ümumi təhsil müəssisələrinin fəallığı ilə seçilən şagirdləri iştirak edib. 1 nömrəli şəhər tam orta məktəbin şagirdi Səbinə Quliyeva daha yaxşı nəticə göstərərək qalib olub.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "SABAH" qrupunun tələbələri tamaşa göstərib

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aktyor və rejissor sənəti üzrə tələbələrdən ibarət "SABAH" qrupu Lənkəran Dövlət Universitetində olub.

LDU-dan redaksiyamıza daxil olan məlumata görə, tələbə-aktyorlar iki gün müddətində Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında kurs rəhbəri, əməkdar artist Nofəl Vəliyevin quruluşunda hazırlanmış Mirzə Fətəli Axundzadənin "Hekayəti Müsyo Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli şah cadükuni Məşhur", "Romeo və Cülyetta" tamaşalarını oynayıblar.

Tələbə-aktyorlardan Məhəmməd Musayev, Orxan İsgəndərli, Xədicə Məmmədova, Çilənay Əliyeva, Hilal Dəmirov və başqalarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. "SABAH" qrupunun üzvləri LDU-da olduqları müddətdə ali təhsil ocağı ilə də tanış olub, tələbə-gənclərlə görüşərək fikir mübadiləsi aparıblar.

LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov tələbə-aktyorlarla keçirilən görüşdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə əlaqənin gələcəkdə daha da genişləndiriləcəyini söyləyib.

Görüşdə tələbə-aktyorlara və tamaşaların hazırlanmasında əməyi olanlara fəxri fərmanlar və hədiyyələr verilib.

## Qəbələdə intellektual oyun keçirilib

Qəbələ RTŞ-dən verilən məlumata görə, "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Ağstafa, Daşkəsən, Göyçay, Qazax və Tovuz məktəbliləri rayon ilə tanış olub, tarixi abidələrə, turizm obyektləri və istehsal müəssisələrinə ekskursiya ediblər.

Səfərin sonunda şagirdlər arasında keçirilən "Nə? Harada? Nə zaman?" adlı intellektual oyununda Qazax məktəbliləri 1-ci, Göyçay şagirdləri 2-ci, Tovuz komandası isə 3-cü yerə layiq görülüb.

## Alman dili müəllimləri Şəkidə bir araya gəliblər

Şəki Şəhər Təhsil Şöbəsindən aldığımız məlumata görə, Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin və Tbilisi Höte İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən ikigünlük sessiyada respublikamızın bütün bölgələrini təmsil edən 70-ə yaxın alman dili müəllimi iştirak edib.

Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Zərinə Cavadova tədbirin əhəmiyyətindən danışıb. Bildirilib ki, hazırda Şəkinin 4 məktəbində alman dili fənni tədris olunur.

Eyni zamanda Almaniyanın ölkəmizdəki səfirliyinin əməkdaşı xanım Heike Möckel və Tbilisi Höte İnstitutunun metodisti Eike Pockrand çıxış edərək, sessiyanın gündəliyi və müzakirə ediləcək məsələlər barədə məlumat veriblər.

# Məktəb-liseydə tarix-diyarşünaslıq muzeyi yaradılıb



Vətənimizin ən qədim yaşayış məskənlərindən biri olan İsmayıllının hər guşəsi bir tarixdir. Rayonumuzun ərazisində rəsmi şəkildə qeydə alınmış 151 tarixi abidə var. Onlardan 30-dan çoxu mühüm əhəmiyyət kəsb edən qədim tarixi abidələrdir. Açıq səma altında muzey kimi rayonumuza gələn qonaqları heyrətə gətirən Lahıc, Basqal və s. kəndlərimizin hər qarışında bir tarix yatır.

Bu tarixi abidələrlə gənc nəsli yaxından tanış etmək, onlarda vətənə, onun tarixinə hörmət və məhəbbətlə yanaşmağı öyrətmək bir vəzifə kimi ən çox tarix müəllimlərinin üzərinə düşür.

Bu səbəbdən birinci addım kimi məktəbimizdə tarix-diyarşünaslıq muzeyinin yaradılmasına başladıq. İlk vaxtlar eksponatları toplamaq üçün müxtəlif kəndlərə səfərlər edir, əldə etdiyimiz nümunələrlə muzeyi zənginləşdirməyə çalışırdıq. Muzeyin yaradılmasında məktəb-liseyin direktoru Əhmədağa Ələkbərovun hərtərəfli köməyi bizi daha da ruhlandırırdı.

Rayonumuzun Mollaisaqlı, Basqal, Lahıc kimi qədim yaşayış məskənlərindən əldə etdiyimiz məişət əşyaları, maddi mədəniyyət nümunələri muzeyin daha da zənginləşməsinə, baxımlı olmasına səbəb olmuşdur. Müxtəlif dövrlərə aid eksponatların toplanmasında, muzeyin fondunun zənginləşməsində məktəbimizin müəllim və şagird kollektivi yaxından iştirak etmişlər.

Muzeydə xalq tətbiqi sənəti, dulusçuluq, misgərlik, numizmatika bölmələri fəaliyyət göstərir. Şagirdlərin əksəriyyəti cəhrə, nehrə, səhəng, kuzə və başqa qədim məişət əşyalarının toplandığı bölməyə daha çox maraq göstərirlər. Numizmatika bölməsində müxtəlif dövrlərə aid kağız və metal pul nişanları toplamışıq. Basqal kəndində hazırlanmış müxtəlif növ kəlağayı nümunələri muzeyə xüsusi gözəllik və milli kolorit verir.

Muzeyin "Kəlağayı bölməsi"ndə bu nadir sənət nümunəsinin hazırlanma texnologiyasını əyani şəkildə göstərən ipəkqurdu baraması, ipək saplar, hazır məhsulu boyamaq üçün müxtəlif möhür və naxış elementləri, onlarla müxtəlif kəlağayı nümunələri şagirdlərin böyük maraqla tamaşa etdikləri eksponatlardır.

Müəllimlərin və şagirdlərin əməyi nəticəsində muzeyimiz getdikcə yeni eksponatlarla zənginləşir.

Əminəm ki, sabahımız olan gənc nəsillərə xalqımızın tarixinin, zəngin mədəni irsinin qorunub saxlanmasında, öyrədilməsində məktəb-liseyimizdə yaratdığımız muzeyin əvəzsiz rolu olacaqdır. Mədəniyyətinin zənginliyi ilə tanınan, xalqımızın yaratdığı, ulu babalarımızdan bizə miras qalmış heç bir mədəniyyət nümunəsi diqqətdən kənarda qalmamalı, lazımi səviyyədə təbliğ və təqdim olunmalıdır.

Rayonumuzun ərazisindən toplanmış, müxtəlif dövrlərə aid sənət nümunələri ilə yaxından tanış olmaq istəyənləri məktəb-liseyimizdə fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyinə dəvət edirik. İnanıram ki, seyr edəcəyiniz hər bir eksponat sizi İsmayıllının doğrudan da qədim və təkrarsız bir mədəniyyət mərkəzi olduğuna bir daha inandıracaq.

**Famil ƏHMƏDZADƏ,**
*İsmayıllı şəhər E.Məmmədov adına 3 nömrəli məktəb-liseyin tarix müəllimi*

# Məktəblilər Azərbaycanın cənub bölgəsində olublar

"Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Sumqayıt, Naftalan və Mingəçevir şəhərlərinin, Xızı, Siyəzən, Şabran, Qubadlı və Laçın rayonlarının məktəbliləri Azərbaycanın cənub bölgəsində olublar. Lənkəran şəhərindəki "Qoşa qala" qapıları, "Dairəvi qala", "Mayak" binası, "Samovar" istirahət mərkəzi və rayon tarix-diyarşünaslıq muzeyi ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub.Tur-aksiyanın iştirakçıları iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun Lənkəran şəhərindəki ev-muzeyində nümayiş etdirilən eksponatlarla tanış olublar.

Tur-aksiyanın Sumqayıt, Naftalan və Mingəçevir şəhərlərindən və Xızı rayonundan olan iştirakçıları Lənkərandan sonra Astara rayonuna səyahət ediblər.



Humanitar aksiyanın iştirakçılarını Astara Rayon İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər, gənclər və ictimaiyyətin nümayəndələri qarşılayıblar. Məktəblilərə Astaranın qədim tarixi, mədəniyyəti, adət-ənənələri, turizm potensialı, əhalinin məşğulluğu və sosial-iqtisadi inkişafı barədə məlumat verilib.

Sonra məktəblilər Masallı rayonuna gəliblər. Masallı şəhərindəki Heydər Əliyev parkında məktəblilərlə görüşdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Aybəniz Qafarova "Ölkəmizi tanıyaq" aksiyası çərçivəsində təşkil olunan tur-aksiyanın əhəmiyyətindən danışıb, şagirdlərə xoş arzularını çatdırıb. Məktəblilər Heydər Əliyev parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

# Şabran tennisçiləri respublika birinciliyində iştirak ediblər

Şabran rayon Uşaq-Gənclər İdman Məktəbinin tennisçiləri bu ay "Təhsil" Respublika İdman Mərkəzinin keçirdiyi stolüstü tennis üzrə yeniyetmələr arasında respublika birinciliyində iştirak ediblər.

Müxtəlif bölgələrdən 18 komandanın iştirak etdiyi yarışda Şabran UGİM 18 idmançı ilə təmsil olunub.

Yarışda Zöhrə Abdullayeva şəxsi və qızların qoşa yarışında I yer, Aliyə Haşımova şəxsi və qızların qoşa, həmçinin qız-oğlan qoşa yarışlarında I yer, Nihad Məmmədov şəxsi yarışda II, qız-oğlan qoşa yarışında I yer, Əlikram Qürbətov şəxsi yarışda III, qız-oğlan qoşa yarışında II yer, Aqil Məmmədov oğlanların qoşa yarışında II yer, Mahsun Nəsirov, Şəbnəm Mansurova qız-oğlan qoşa yarışında III yer, Əzifə Mahmudova, Fatimə Mürsəliyeva qızların qoşa yarışında III yer, Tərgül Qasımova qız-oğlan qoşa yarışında III yer qazanıblar.



Komanda hesabında isə tennisçilər II yerin sahibi olublar.

**Gülər HÜSEYNOVA,**
*Şabran RTŞ-ın İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Ağsuda şəhid Aslan Nadirovun xatirəsi anılıb

Ağsu Rayon Təhsil Şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, şəhid Aslan Nadirovun adını daşıyan şəhər 1 nömrəli məktəb-liseydə müəllim və şagirdlərin, rayon ağsaqqallarının, habelə ictimaiyyət nümayəndələrinin iştirakı ilə anım günü keçirilib. Əvvəlcə şəhidin məktəbin foyesindəki büstü önünə çiçəklər düzülüb.

Məktəb-liseyin direktoru Sənan Nemətov, şəhidin qardaşı, ehtiyatda olan polkovnik-leytenant Marif Nadirov, rayon veteranlar təşkilatının sədri Cəmaləddin Zeynalov və başqaları Aslan Nadirovun qısa, lakin şərəfli həyat yolundan danışıblar. Bildirilib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu regionun ən qüdrətli ordularındandır. İgid oğullarımız da işğal altındakı torpaqlarımızı hər an azad etməyə hazırdırlar.



Sonda şəhid Aslan Nadirovun yaxınları belə bir tədbirin təşkilinə görə məktəbin pedaqoji kollektivinə təşəkkürlərini bildiriblər.

**Səhifəni hazırladı: Şakir CƏFƏROV,**
*"Azərbaycan müəllimi"*

# Ermәni vandalizmi tarix dәrslәrindә



1998-ci ildәn 31 mart ölkәmizdә azәrbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Azәrbaycanlıların kütlәvi surәtdә qırğını, repressiyalara mәruz qalması, doğma yurdlarından sürgün edilmәsi vә didәrgin salınması XIX-XX әsrlәr tarixinin әn faciәli vә dәhşәtli sәhifәlәrindәndir. 31 mart soyqırımının sәbәblәri, nәticәlәr haqqında müasir tarix dәrsliklәrimizdә kifayәt qәdәr mövzu vardır vә mәn bu mövzuları tәdris edәrkәn şagirdlәrә ermәnilәrin xalqımıza qarşı törәtdiklәri soyqırımlar haqqında geniş mәlumat verirәm.

VIII sinifdә "Ümumi tarix" fәnnindәn "Avropa dövlәtlәrinin Osmanlı imperiyasını bölüşdürmәk planları" mövzusunu tәdris edәrkәn şagirdlәrә bildirirәm ki, Şәrqdә tәsir dairәsini genişlәndirmәk, regionun zәngin tәbii sәrvәtlәri üzәrindә nәzarәti әlә keçirmәk istәyәn çar Rusiyası XVII әsrin sonu XVIII әsrin әvvәllәrindәn Türkiyә vә İrana qarşı müharibә apararkәn mәhz "ermәni kartı"ndan siyasi alәt kimi yararlanmağa çalışmışdır. VIII siniflәrdә "Türkmәnçay müqavilәsi" mövzusunu tәdris edәrkәn isә böyük güclәrin әlindә alәt olan ermәnilәrin rus imperiyasının gәlәcәkdә dә mәkrli siyasәtinin hәyata keçirilmәsi üçün XIX әsrin әvvәllәrindәn, Rusiya ilә İran arasında bağlanmış 1828-ci il Türkmәnçay müqavilәsindәn etibarәn sistemli şәkildә vәtәnimizin әn gözәl, dilbәr guşәlәrindә yerlәşdirilmәyә başlanmasını xüsusilә vurğulayıram. Hәlә bu vaxtlardan etibarәn soydaşlarımız zorla dәdә-baba torpaqlarından köçürülür, әsrlәrlә xalqımıza mәxsus torpaqlarda ermәni millәtindәn olan insanlar yerlәşdirilirdi. Mәqsәd Osmanlı Türkiyәsi ilә Azәrbaycan arasında "sanitar kordonu" yaratmaq idi. Bu iki xalq arasında "etibarlı sәdd" yaratmaq üçün satqınlıqları vә etibarsızlıqları ilә yanaşı tarixәn türklәrә qarşı nifrәtlәri ilә mәşhur olan ermәnilәrdәn "münasib" millәt tapmaq olmazdı.

IX siniflәrdә "Azәrbaycanlı әhaliyә qarşı ermәnilәrin törәtdiklәri kütlәvi qırğınlar. Milli demokratik hәrәkat" mövzusunu keçәrkәn isә şagirdlәrә bildirirәm ki, "Böyük Ermәnistan" yaratmaq xülyasından ruhlanan ermәni qәsbkarları 1905-1907-ci illәrdә azәrbaycanlılara qarşı açıq şәkildә genişmiqyaslı qanlı aksiyalar hәyata keçirdilәr. Ermәnilәrin Bakıdan başlanan vәhşiliklәri Azәrbaycanı vә indiki Ermәnistan әrazisindәki Azәrbaycan kәndlәrini әhatә etdi. Yüzlәrlә yaşayış mәntәqәsi dağıdılıb yerlә-yeksan edildi, minlәrlә azәrbaycanlı vәhşicәsinә qәtlә yetirildi. Bu hadisәlәrin tәşkilatçıları mәsәlәnin mahiyyәtinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymәt verilmәsinә manecilik törәdәrәk azәrbaycanlıların mәnfi obrazını yaratmış, özlәrinin qәsbkar torpaq iddialarını pәrdәlәmişlәr.

V sinifdә "Mart soyqırımı", elәcә dә IX sinifdә "Şimali Azәrbaycanda türk - müsәlman әhaliyә qarşı soyqırımları" mövzularını tәdris edәrkәn isә şagirdlәrә bildirirәm ki, 1918-ci il martın 31-dәn aprelin 2-dәk әks-inqilabçı ünsürlәrlә mübarizә şüarı altında Bakı Kommunası tәrәfindәn ümumәn Bakı quberniyasını azәrbaycanlılardan tәmizlәmәk mәqsәdi güdәn mәnfur plan hәyata keçirilmәyә başlandı. S.Şaumyanın ermәni-bolşevik dәstәlәri Bakı әhalisinin 400 milyon manatlıq әmlakını müsadirә etmiş, müsәlmanların bir çox ziyarәtgahlarını dağıtmışlar. Daşnak-bolşevik qüvvәlәri Tәzәpir mәscidini topa tutmuş, Bakının әn möhtәşәm memarlıq incilәrindәn sayılan "İsmailiyyә" binasını yandırmışlar. Martın 30-dan aprelin 2-dәk davam edәn qırğınlarda Şamaxı qәzasının 53 müsәlman kәndindә ermәnilәr tәrәfindәn 8027 azәrbaycanlı qәtlә yetirilmişdir. Quba qәzasında 162 kәnd darmadağın edilmiş, 16 mindәn çox insanın hәyatına son qoyulmuşdur. Lәnkәranda, Muğanda minlәrlә soydaşımız qәtlә yetirilmişdir. Ermәnilәr tәrәfindәn Dağlıq Qarabağda 150 azәrbaycanlı kәndi tamamilә dağıdılmış, Şuşada görünmәmiş qırğınlar törәdilmişdi.

**Martın 30-dan aprelin 2-dәk davam edәn qırğınlarda Şamaxı qәzasının 53 müsәlman kәndindә ermәnilәr tәrәfindәn 8027 azәrbaycanlı qәtlә yetirilmişdir. Quba qәzasında 162 kәnd darmadağın edilmiş, 16 mindәn çox insanın hәyatına son qoyulmuşdur. Lәnkәranda, Muğanda minlәrlә soydaşımız qәtlә yetirilmişdir. Ermәnilәr tәrәfindәn Dağlıq Qarabağda 150 azәrbaycanlı kәndi tamamilә dağıdılmış, Şuşada görünmәmiş qırğınlar törәdilmişdi.**



Yenә IX siniflәrdә soyqırımı mövzusunu tәdris edәrkәn şagirdlәrә bildirirәm ki, S.Şaumyan Bakıda vә әtraf qәzalarda törәtdiklәri qırğınla әlaqәdar 1918-ci il aprelin 13-dә Rusiya Xalq Komissarları Sovetinә mәktubunda yazırdı: "Bizim süvari dәstәyә edilәn silahlı hücumdan bәhanә kimi istifadә etdik vә bütün cәbhә boyu hücuma keçdik. Biz artıq 6 min nәfәrlik silahlı qüvvәyә malik idik. Daşnakların da 3-4 min nәfәrlik silahlı qüvvәlәri var idi ki, o da bizim sәrәncamımızda idi. Mәhz onların iştirakı vәtәndaş müharibәsinә milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işә şüurlu surәtdә getdik. Әgәr azәrbaycanlılar üstün gәlsәydilәr, onda Bakı Azәrbaycanın paytaxtı elan edilә bilәrdi".

Hәmin günlәrdә ermәnilәrin törәtdiklәri cinayәtlәr Azәrbaycan xalqının yaddaşına qanlı hәrflәrlә әbәdi hәkk olunmuşdur.

IX sinifdә "Azәrbaycan Xalq Cümhuriyyәtinin yaranması" mövzusunu tәdris edәrkәn isә bildirirәm ki, Xalq Cümhuriyyәti yarandıqdan sonra 1918-ci ilin mart hadisәlәrinә xüsusi diqqәt yetirmişdir. Nazirlәr Şurası 1918-ci il iyulun 15-dә bu faciәnin tәhqiqi mәqsәdilә Fövqәladә İstintaq Komissiyasının yaradılması haqqında qәrar qәbul etdi. Komissiya mart soyqırımını, ilkin mәrhәlәdә Şamaxıdakı vәhşiliklәri, İrәvan quberniyası әrazisindә ermәnilәrin törәtdiklәri ağır cinayәtlәri araşdırdı. Dünya ictimaiyyәtinә bu hәqiqәtlәri çatdırmaq üçün Xarici İşlәr Nazirliyi nәzdindә xüsusi qurum yaradıldı. 1919 vә 1920-ci illәrin mart ayının 31-i iki dәfә Azәrbaycan Xalq Cümhuriyyәti tәrәfindәn ümummilli matәm günü kimi qeyd edilmişdir. Әslindә bu, azәrbaycanlılara qarşı yürüdülәn soyqırımı vә bir әsrdәn artıq davam edәn torpaqlarımızın işğalı proseslәrinә tarixdә ilk dәfә siyasi qiymәt vermәk cәhdi idi. Lakin Azәrbaycan Xalq Cümhuriyyәtinin süqutu bu işin başa çatmasına imkan vermәdi.

Yenә IX sinifdә "Azәrbaycanın әrazi bütövlüyünә yeni qәsdlәr" mövzusunu tәdris edәrkәn şagirdlәrә bildirirәm ki, Zaqafqaziyanın sovetlәşmәsindәn öz çirkin mәqsәdlәri üçün istifadә edәn ermәnilәr 1920-ci ildә Zәngәzuru vә Azәrbaycanın bir sıra digәr torpaqlarını Ermәnistan SSR-in әrazisi elan etdilәr. Sonrakı dövrdә bu әrazilәrdәki azәrbaycanlıların deportasiya edilmәsi siyasәtini daha da genişlәndirmәk mәqsәdilә yeni vasitәlәrә әl atdılar. Bunun üçün onlar SSRİ Nazirlәr Sovetinin 23 dekabr 1947-ci il "Ermәnistan SSR-dәn kolxozçuların vә başqa azәrbaycanlı әhalinin Azәrbaycan SSR-in Kür-Araz ovalığına köçürülmәsi haqqında" xüsusi qәrarına vә bunun әsasında, 1948-1953-cü illәrdә azәrbaycanlıların öz tarixi torpaqlarından kütlәvi surәtdә deportasiyasına dövlәt sәviyyәsindә nail oldular.

IX sinifdә "Azәrbaycan SSR müharibәdәn sonrakı onillikdә" mövzusunu tәdris edәrkәn isә şagirdlәrә bildirirәm ki, ermәni millәtçilәri öz havadarlarının kömәyi ilә 50-ci illәrdәn etibarәn Azәrbaycan xalqına qarşı kәskin mәnәvi tәcavüz kampaniyasına başladılar. Hәlә 1945-ci ildә onlar Moskvada A.Mikoyanın tәşәbbüsü vә rәhbәrliyi ilә "Qarabağ komitәsi" yaratmışdılar ki, bundan da mәqsәd nәyin bahasına olursa-olsun Qarabağı Azәrbaycan SSR-dәn qoparıb Ermәnistan SSR-ә birlәşdirmәk idi. Keçmiş Sovet mәkanında müntәzәm şәkildә yayılan kitab, jurnal vә qәzetlәrdә milli mәdәniyyәtimizin, klassik irsimizin, memarlıq abidәlәrimizin әn nәfis nümunәlәrinin guya ermәni xalqına mәnsub olduğunu sübut etmәyә çalışırdılar. Eyni zamanda onlar tәrәfindәn bütün dünyada azәrbaycanlıların mәnfi obrazını formalaşdırmaq cәhdlәri dә güclәnirdi. "Yazıq, mәzlum ermәni xalqı"nın surәtini yaradaraq әsrin әvvәlindә regionda baş verәn hadisәlәr şüurlu surәtdә tәhrif olunur, azәrbaycanlılara qarşı soyqırım törәdәnlәr soyqırım qurbanları kimi qәlәmә verilirdi.

Әsrin әvvәlindә әksәr әhalisi azәrbaycanlı olan İrәvan şәhәrindәn vә Ermәnistan SSR-in digәr bölgәlәrindәn soydaşlarımız tәqiblәrә mәruz qalaraq kütlәvi surәtdә qovuldular. Azәrbaycanlıların hüquqları ermәnilәr tәrәfindәn kobudcasına pozulur, ana dilindә tәhsil almasına әngәllәr törәdilir, onlara qarşı repressiyalar hәyata keçirilirdi. Azәrbaycan kәndlәrinin tarixi adları dәyişdirilir, toponimika tarixindә misli görünmәyәn qәdim toponimlәrin müasir adlarla әvәzolunma prosesi baş verirdi.

Saxtalaşdırılmış ermәni tarixi gәnc ermәnilәrin şovinist ruhda böyümәsinә zәmin yaratmaq üçün dövlәt siyasәti sәviyyәsinә qaldırılırdı. Böyük humanist ideallara xidmәt edәn Azәrbaycan әdәbiyyatı vә mәdәniyyәti ruhunda tәrbiyә olunmuş yeni nәslimiz ekstremist ermәni ideologiyasının tәqiblәrinә mәruz qalırdı. Hәmin dövrlәrdә yalnız SSRİ rәhbәrliyinin gәlәcәkdә belә hadisәlәrin presedent halı almasından vә zәncirvari reaksiya kimi digәr sovet respublikalarını da bürümәsindәn ehtiyat etdiyinә görә belә cәhdlәrә qarşı çıxması Mikoyan vә ona dәstәk verәnlәrin cәhdlәrinin nәticәsiz qalmasına sәbәb oldu.

Yenә "Azәrbaycan tarixi" fәnnindәn IX sinifdә "Yenidәnqurma siyasәtinin iflası" mövzusunu tәdris edәrkәn şagirdlәrә bildirirәm ki, ermәnilәrin Sovet rejimindәn bәhrәlәnәrәk hәyata keçirdiklәri vә 80-cı illәrin ortalarında daha da güclәnәn anti-Azәrbaycan tәbliğatına Azәrbaycan Respublikasının rәhbәrliyi Ә.Vәzirov başda olmaqla vaxtında lazımi qiymәt vermәdi.

1988-ci ildәn ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişәsinin ilkin mәrhәlәsindә yüz minlәrlә azәrbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymәt verilmәdi. Azәrbaycanın Dağlıq Qarabağ Muxtar Vilayәtinin Ermәnistan SSR-in tәrkibinә daxil edilmәsi haqqında ermәnilәrin qanunsuz qәrarını vә Moskvanın әslindә bu vilayәti Xüsusi İdarәetmә Komitәsi vasitәsilә Azәrbaycanın tabeliyindәn çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı vә mühüm siyasi aksiyalara әl atmaq mәcburiyyәti qarşısında qaldı. Mәhz elә bunun nәticәsi olaraq 1990-cı ilin yanvar ayında getdikcә güclәnәn xalq hәrәkatını boğmaq mәqsәdilә Bakıya qoşun yeridildi, yüzlәrlә azәrbaycanlı mәhv vә şikәst edildi, yaralandı, digәr fiziki tәzyiqlәrә mәruz qoyuldu.

> Ermәnilәr evlәrә od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilәrini, mәktәblәri, xәstәxanaları, mәscid vә digәr abidәlәri dağıtmış, Bakının böyük bir hissәsini xarabalığa çevirmişlәr...
>
> **Heydәr ӘLİYEV,**
> **ümummilli lider**

IX sinifdә "Azәrbaycan tarixi" fәnnindәn "Dövlәt müstәqilliyinin bәrpası" mövzusunu tәdris edәrkәn şagirdlәrimә bildirirәm ki, 1992-ci ilin fevralında ermәnilәr Xocalı şәhәrinin әhalisinә misli görünmәyәn divan tutdu. Tariximizә Xocalı soyqırımı kimi hәkk olunan bu qanlı faciә minlәrlә azәrbaycanlının mәhv edilmәsi, әsir alınması, şәhәrin yerlә-yeksan edilmәsi ilә qurtardı.

Millәtçi-separatçı ermәnilәrin Dağlıq Qarabağda başladığı qәsbkar hәrәkәtlәrin nәticәsi olaraq bu gün bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didәrgin salınmış, çәtin şәraitdә yaşamağa mәhkum edilmişdir. Әrazimizin 20 faizinin ermәni silahlı qüvvәlәri tәrәfindәn işğalı zamanı minlәrlә vәtәndaşımız şәhid olmuş, xәsarәt almışdır.

Bu - ermәni faşizminin yalnız bir әsrdә törәtdiyi vәhşiliklәrin qisa icmaldır...

Yenә IX sinifdә "Azәrbaycan tarixi" fәnnindәn "Şimali Azәrbaycanda türk - müsәlman әhaliyә qarşı soyqırımları" mövzusunu tәdris edәrkәn göstәrirәm ki, 1918-ci il 31 mart-2 aprel tarixlәrindә xalqımızın başına gәtirilmiş faciә ilә bağlı hәqiqәtlәrin beynәlxalq alәmdә daha geniş miqyasda yayılmasında, ermәni millәtçiliyinin iç üzünün ifşa olunmasında, onların vәhşiliyi haqqında dünya birliyindә aydın tәsәvvürün formalaşmasında ümummilli liderimiz Heydәr Әliyevin imzaladığı 1998-ci il 26 mart tarixli fәrmanının da çox böyük rolu olmuşdur. Belә ki, bu fәrmandan sonra ölkә miqyasında ermәni faşistlәrinin 99 il әvvәl xalqımızın başına gәtirmiş olduqları müsibәtlәrin detallarının aşkar edilmәsi istiqamәtindә bir çox әhәmiyyәtli addımlar atıldı. Qubada aşkar edilmiş kütlәvi mәzarlıq da bu qәbildәn görülәn işlәrә әyani misaldır. Belә ki, bura gәlәn bütün xarici qonaqlar bir daha ermәni faşizminin vәhşiliyi ilә әyani şәkildә tanış olurlar.

Qeyd etmәk yerinә düşәrdi ki, Prezident İlham Әliyev 2011-ci ilin aprelindә AMEA-da alimlәrlә görüşü zamanı bununla bağlı aydın istiqamәtlәr müәyyәnlәşdirmişdir. Möhtәrәm Prezidentimiz cәnab İlham Әliyev ilk növbәdә, çox haqlı olaraq ermәnilәrin cәfәng iddialarına qarşı elmi-ideoloji mübarizәnin güclәndirilmәsi zәrurәtini tarixçi alimlәrimiz qarşısında mühüm vәzifә kimi qoymuşdur: "Bütün indiki Ermәnistan әrazisinin әksәr toponimlәri Azәrbaycan mәnşәli toponimlәrdir. Şәhәrlәrin, kәndlәrin adları. Hәtta bunu Böyük Sovet Ensiklopediyasında da görmәk mümkündür. O vaxt ermәni şәhәrlәrinin adları vә onların әski variantı yazılmışdı. Biz bütün bunları bilmәliyik. Bu gün Ermәnistan dövlәti bizә qarşı әrazi iddiası ilә çıxış edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağ әzәli Azәrbaycan torpağıdır. Ermәni tәbliğatı bütün dünyada bizә qarşı işә salınıbdır. Biz isә hәqiqәtlәri çatdırmalıyıq ki, Xankәndi şәhәri Stepanakert deyil, Xankәndidir. Stepanakert quldur dәstәsinin rәhbәri Şaumyanın adına verilmişdir. Mәn dәfәlәrlә bu barәdә demişәm, әgәr o yaşayış mәntәqәsinin tarixi adı olsa idi, o tarixi adı ermәnilәr bәrpa edәrdilәr. Bu, bizim torpağımızdır. Elmi araşdırmalar vә elmi әsәrlәr, kitablar çox vacibdir. Mәn çox şadam ki, bu istiqamәtdә işlәr gedir".

Ermәni faşistlәrinin xalqımızın başına gәtirmiş olduqları müsibәtlәrin dünya miqyasında tanınmasında Azәrbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydәr Әliyev Fondunun prezidenti, UNESCO vә İSESCO-nun xoşmәramlı sәfiri Mehriban xanım Әliyevanın, elәcә dә Heydәr Әliyev Fondunun vitse-prezidenti Leyla xanım Әliyevanın beynәlxalq miqyasda keçirmiş olduqları ikitәrәfli vә çoxtәrәfli görüşlәrin, habelә müxtәlif tәdbirlәrin müstәsna dәrәcәdә böyük rolu olmuşdur.

Demәliyәm ki, biz tarix müәllimlәri dәrslәrimizdә daim ermәni daşnaklarının xalqımızın başına gәtirdiklәri müsibәtlәr, faciәlәr haqqında şagirdlәrimizә geniş mәlumatlar vermәli, onların vandalizminin xalqımızın tarixindә oynadığı mәnfi rol haqqında şagirdlәrimizdә әtraflı tәsәvvür yaratmalı, nәticә etibarı ilә yetişmәkdә olan nәslin qәlbindә düşmәnlәrimizә qarşı dәrin nifrәt hissi aşılamalıyıq.

**İlqar ABDULLAYEV,**
*Bakı şәhәri, MLK-nın tarix müәllimi, әmәkdar müәllim, "Tәrәqqi" medallı, "Әn yaxşı müәllim" müsabiqәsinin qalibi*

# Təhsilalanın fəaliyyətinin qiymətləndirilməsində indikatordan istifadə

"Azərbaycan müəllimi" qəzetinin 4 fevral 2017-ci il tarixli 4-cü nömrəsində təhsilalanın alt məzmun standartları üzrə fəaliyyətinin izlənilməsi və nail olduğu bacarıq səviyyəsinin qiymətləndirilməsi üçün müvafiq rubrik nümunələri verilmişdir. Təhsilverən bu nümunələrdən yaradıcı şəkildə istifadə edərək rubriklər hazırlamaq səriştəsi əldə edə bilər.

Aydındır ki, təhsilverən hər bir dərsin gedişində təhsilalanın fəaliyyətini müvafiq alt məzmun standartı üzrə izləyir və qiymətləndirir. Dərsin sonunda təhsilalanların fəaliyyətinin nəticəsinin - əldə etdikləri biliyin bacarığa çevrilmə (tətbiqetmə) səviyyəsinin müəyyən edilməsi, nəyi nə üçün hansı səviyyədə bildiyini və istifadə etdiyini qiymətləndirməkdən ötrü onlara I-IV qiymətləndirmə səviyyələrinə uyğun formativ testlərin (indikatorların) təklif olunmasını zəruri hesab edir və aşağıda onlara aid nümunələr veririk:

Nümunə 1. 1-ci sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | 16 ədədini təklik və onluqlara ayırın, oxuyun və sözlərlə yazın. |
| **II səviyyə** | 13, on dörd ədədlərini təklik və onluqlara ayırın, oxuyun və sözlərlə (rəqəmlərlə) yazın. |
| **III səviyyə** | 13, on dörd, 16, on səkkiz, 22 ədədlərindən 20 dairəsində olanları seçin, onları təklik və onluqlara ayırın, oxuyun və sözlərlə (rəqəmlərlə) yazın. |
| **IV səviyyə** | 9, 12, on yeddi, 25, on səkkiz ədədlərindən 20 dairəsində olanları seçin, onları təklik və onluqlara ayırın, oxuyun və sözlərlə (rəqəmlərlə) yazın, şərh edin. |

Nümunə 2. 3-cü sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | 14, iyirmi iki, 86 ədədlərini sözlərlə (rəqəmlərlə) yazın. 123 ədədini mərtəbələrə ayırın, oxuyun və sözlərlə yazın. |
| **II səviyyə** | Verilən 986 ədədini mərtəbələrə ayırın, oxuyun və sözlərlə yazın. |
| **III səviyyə** | 15, otuz altı, 99, 277, yeddi yüz bir ədədlərindən 1000 dairəsində yerləşən ədədləri seçin və onları sözlərlə (rəqəmlərlə) yazın. |
| **IV səviyyə** | 100, yüz bir, 102, ..., doqquz yüz doxsan səkkiz, 999 ədədləri 1000 dairəsində ədədlər təkliklər, onluqlar və yüzlüklərə ayrılır. Məsələn, $123 = 1\cdot100 + 2\cdot10 + 3\cdot1$; üç yüz altmış bir – 3 yüz 6 onluq 1 təklik və ya 361. |

Nümunə 3. 5-ci sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | 2013, iki min on dörd ədədlərini mərtəbə və siniflərə ayırın, oxuyun, sözlərlə (rəqəmlərlə) yazın. |
| **II səviyyə** | 213716, iki yüz on dörd min on səkkiz ədədlərini mərtəbə və siniflərə ayırın, sözlərlə (rəqəmlərlə) yazın. |
| **III səviyyə** | 14; 1607, min səkiz yüz on dörd; 160713; yüz səksən bir min iki yüz on dörd ədədlərindən milyon dairəsində olanları seçin, oxuyun, sözlərlə (rəqəmlərlə) yazın. |
| **IV səviyyə** | 78, səksən altı, 2009, yüz on üç min yeddi yüz on altı ədədlərindən milyon dairəsində olanları seçin, oxuyun, sözlərlə (rəqəmlərlə) yazın. |

Nümunə 4. 7-ci sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | $5; -12; \frac{2}{3}; 0; -22; -\frac{3}{31}; -5; \frac{6}{2}$ ədədlərindən tam ədədləri seçin, sözlərlə (rəqəmlərlə) yazın. |
| **II səviyyə** | $-\frac{3}{31}$ ədədini oxuyun, mənfi yüz doqquzda on dörd ədədini rəqəmlərlə yazın. |
| **III səviyyə** | $-\frac{16}{201}$, min üçdə iyirmi yeddi ədədlərini sözlə və rəqəmlərlə yazın. |
| **IV səviyyə** | $\frac{57}{62}$, mənfi yüz doqquzda qırx səkkiz, $-\frac{1607}{2013}$, iki min on dörddə min səkkiz yüz on iki ədədlərini sözlə və rəqəmlərlə yazın və izah edin. |

Nümunə 5. 8-ci sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | $7; \sqrt{3}; \frac{4}{15}; -19; -\sqrt[3]{17}, 0; 14\sqrt{22}$ ədədlərindən rasional ədədləri seçin, oxuyun və yazın. İrrasional ədədləri ayırın və oxuyun. |
| **II səviyyə** | $\sqrt{6}; 2\sqrt[3]{3}; -\frac{2}{\sqrt{5}}$, kvadrat dərəcədən kökaltında on səkkiz, üç dərəcədən kökaltında on altı irrasional ədədlərini oxuyun, sözlərlə (rəqəmlərlə) yazın. |
| **III səviyyə** | $\sqrt{3}$, dörd dərəcədən kökaltında səksən bir, $\frac{2}{\sqrt{7}}; \frac{10}{1+3\sqrt{5}}$, bir plyus kvadrat kökaltında on ədədlərindən irrasional ədədləri seçin, oxuyun və sözlərlə (rəqəmlərlə) yazın. |
| **IV səviyyə** | $\frac{4}{1+\sqrt{5}}$, üç dərəcədən əlli dörd, $\left(\frac{3-\sqrt{6}}{\sqrt{6}}\right)\left(\frac{6}{3+\sqrt{6}}\right)$ ədədlərindən irrasional ədədləri seçin, onları oxuyun, sözlərlə (rəqəmlərlə) yazın və zəruri şərh verin. |

Nümunə 6. 9-cu sinif, riyaziyyat.

| | |
|---|---|
| **I səviyyə** | $-20, 18, -14, 16, 2,(7), \sqrt[3]{9}, 5,26(3)$ həqiqi ədədlərini oxuyun və sözlərlə yazın. İki tam dövrdə on doqquz, beş dərəcədən kökaltında altmış dörd ədədlərini rəqəmlərlə yazın. |
| **II səviyyə** | $-62; 57$, kvadrat kökaltında yetmiş altı, $\frac{4}{5+7\sqrt[3]{12}}$, mənfi doqquzun 13-ə nisbəti ədədlərini sözlərlə (rəqəmlərlə) yazın. |
| **III səviyyə** | 13,07; on iki tam yüzdə on səkkiz; $\frac{6}{\sqrt{22}}; \frac{\sqrt{18}}{\sqrt{54}}$; altı tam dövrdə iyirmi iki; 3,14(6) ədədlərindən natural, tam, rasional və irrasional ədədləri ayırın, onları sözlərlə (rəqəmlərlə) yazın. |
| **IV səviyyə** | -78,27; altmış tam onda üç; $\frac{\sqrt{6}}{\sqrt{24}}; \frac{\sqrt{12}}{\sqrt{7}-\sqrt{5}}$; altı tam dövrdə altı; 22,6(86) ədədlərindən natural, tam, rasional və irrasional ədədləri ayırın, onları sözlərlə (rəqəmlərlə) yazın və izah edin. |

Təhsilverən dərsin gedişində alt məzmun standart(lar)ına uyğun təlim məqsədləri üzrə təhsilalanın fəaliyyətini (irəliləməsini, geriləməsini) izləyir, bacarıq səviyyəsini müəyyənləşdirir (qiymətləndirir) və bu barədə "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə, "Məktəbli kitabçası"nda qeydlər aparır, təhsilalana müvafiq fərdi yanaşma təyin edir, onun valideyninə tövsiyə verir, zəruri hallarda məktəb rəhbərliyini məlumatlandırır.

Bu, təhsilalanın fəaliyyətinin təhsilverən tərəfindən izlənilməsi, qiymətləndirilməsi və nəticəsinin qeyd edilməsi həm təhsil prosesinə nəzarəti həyata keçirənlərə, həm də valideynlərə təhsilalanın inkişaf dinamikasını izləməyə, onun gələcək fəaliyyət istiqamətlərini müəyyən etməyə imkanlar yaradır.

Aydındır ki, təhsilalanın fəaliyyətinin (gündəlik, cari) qiymətləndirilməsi onu tədris vahidi üzrə nailiyyət qiymətləndirilməsinə hazırlayır. Təcrübə göstərir ki, hər bir dərsdə indikatordan (formativ testdən) istifadə edilməsi daha yüksək nəticələr əldə etməyə imkan verir. Belə ki, təhsilverən dərsdə reallaşdırılan alt məzmun standart(lar)ı üzrə təhsilalanın bacarıq səviyyəsini - zəif (çatışmayan) və üstün (inkişaf etmiş) tərəflərini müvafiq formativ qiymətləndirmə vasitələri (indikatorlar) ilə aydınlaşdırır, səviyyəsinə uyğun fərdi yanaşmanı müəyyənləşdirir (və ya tədris vahidi üzrə kiçik summativ qiymətləndirmə apardıqdan sonra təhsilalanın reallaşdırılan müvafiq alt məzmun standartları üzrə fəaliyyətinin nəticəsini nailiyyət səviyyəsi ilə müqayisəli təhlil edir).

Bu baxımdan ölkəmizin bütün ümumtəhsil məktəblərində olduğu kimi, Bakı şəhərinin 83 nömrəli məktəb-liseyində də hər bir fənn üzrə təhsilalanların fəaliyyəti izlənilir, onların tədris vahidləri üzrə bacarıq səviyyələri nailiyyət nəticələri ilə müqayisəli təhlil edilir və təhsilverənə müvafiq tövsiyələr verilir. Məsələn, $4^1$ x sinfinin şagirdi Mehdi Nəsirovun 15 sentyabr - 26 oktyabr arasındakı fəaliyyəti izlənilib və 7 dəfə qiymətləndirilib: I, III, II, III, I, II, II. 1-ci kiçik summativ qiymətləndirmədə onun nailiyyət səviyyəsi "4" olub. Mehdinin nailiyyət səviyyəsinin "4" olması nəzarəti həyata keçirənləri onun fəaliyyətinin izlənilməsi və qiymətləndirilməsi zamanı təhsilverənin subyektivizmə yol verdiyi, qiymətləndirmə səviyyələrini düzgün müəyyən edə bilmədiyi qənaətinə gəlməyə sövq edir.

$3^1$ sinfinin şagirdi Rəsul Zauroğlunun bacarıq səviyyəsinin III, IV, II, IV, III, IV, IV, IV olması və 1-ci KSQ-də "3" alması da təhsilverənin onun fəaliyyətinin qiymətləndirilməsi zamanı qeyri-dəqiqliyə (saxtakarlığa) yol verdiyini söyləməyə imkan verir.

Eyni zamanda I yarımil ərzində aparılmış 1-4-cü KSQ-lərdə təhsilalanın uyğun olaraq 3, 4, 5, 4, lakin birinci BSQ-də "3" alması da həm təhsilverənin, həm də bu sahəyə nəzarəti həyata keçirən təlim-tərbiyə işləri üzrə direktor müavini və fənn metodbirləşməsinin fəaliyyətlərində nöqsanlara yol verdiklərini, qiymətləndirmə prosedurunun yerinə yetirilməsinə düzgün yanaşmadıqlarını bildirir, onlara təhsilalanın və təhsilverənin fəaliyyətini təhlil etməyi diqtə edir.

Təcrübə göstərir ki, bir çox hallarda təhsilverənin öz həmkarları, müvafiq fənn metodbirləşməsinin sədri, direktor müavini, təcrübəli müəllimlərlə məsləhətləşmələri və kömək alması onun peşəkarlıq səviyyəsinin yüksəlməsinə kömək edir.

Biz ümumtəhsil məktəblərində aparılan pedaqoji müşahidə, monitorinq və təhlillərin nəticəsi olaraq təhsilverənin təlim prosesində müvəffəqiyyət əldə etməsi üçün onun öz peşəkarlıq səviyyəsini yüksəltməsini, bu baxımdan aşağıdakı tövsiyələrə əməl etməsini (bacarıqlara yiyələnməsini) və onları inkişaf etdirməsini məqsədəuyğun hesab edirik:

1. əsas və alt məzmun standart(lar)ını müəyyən etməyi və fərqləndirməyi
2. alt məzmun standartına uyğun təlim məqsəd(lər)ini təyin etməyi
3. təlim məqsədlərinə uyğun açar sözləri müəyyən etməyi
4. təlim məqsədi və açar sözlərə uyğun olaraq məzmunu təyin etməyi
5. əvvəlki sinifdə reallaşdırılmış uyğun alt məzmun standartı üzrə fəaliyyətin izlənilmə səviyyələrini nəzərə almağı
6. alt məzmun standartının qiymətləndirilmə səviyyələrini təyin etməyi
7. qiymətləndirmə səviyyələrinə uyğun indikatorlar tərtib etməyi
8. 1-7-ci bəndlərdə təklif edilənləri tətbiq etmək bacarığına yiyələnməyi

Təhsilverənin yuxarıda sadalanan bacarıqlara yiyələnməsi onun müvəffəqiyyət əldə etməsinə, səriştəli təhsilalanın yetişdirilməsinə, onların nailiyyət səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Təhsilalanın səviyyəsinin təhsilverənin səviyyəsindən asılı olduğunu bilən təhsil müəssisəsi rəhbərliyinin bütün hallarda təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi qayğısına qalması və ona nail olması zəruridir və bu, "Strategiya"nın ən vacib tələblərindən birinin həyata keçirilməsini (səriştəli təhsilalanların yetişdirilməsini) təmin edir.

Bu zaman qarşıya qoyulmuş məqsədlərə (hədəflərə) çatmaq üçün təhsil müəssisələrində təlim-tədris və tərbiyə prosesinin aşağıdakı məntiqi ardıcıllığa əməl olunmaqla həyata keçirilməsini təklif edirik:

1. müəssisənin real fəaliyyət planının hazırlanması – planlaşdırma
2. planın həyata keçirilməsi
3. həyata keçirilənlərin monitorinqinin aparılması
4. monitorinqin nəticələrinin təhlil edilməsi
5. 1-4-cü bəndlərdə verilən tsiklin (dövrün) davam etdirilməsi

Nəticələrin təhlilinə əsasən real fəaliyyət planında dəyişikliklər edilir və 2-4-cü bəndlər yeniliklər nəzərə alınmaqla icra olunur (yerinə yetirilir). Alınan nəticələr əvvəlki nəticələrlə müqayisəli şəkildə təhlil edilir, dəyərləndirmə aparılır, mövcud vəziyyət müəyyən olunur və yeni təkliflər yenidən nəzərə alınmaqla tsiklin tətbiqi davam etdirilir. Məktəb rəhbərliyinin hər bir fənn müəlliminin bu tsiklin mahiyyətini anlamasına və ondan sinif səviyyəsində hər bir dərsdə istifadə edilməsinə nail olması mühüm əhəmiyyət kəsb edir və bu da, ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsini təmin edir.

Bu baxımdan, biz təhsilverənin hər bir alt məzmun standartı üzrə təhsilalanın fəaliyyətini izləmək və qiymətləndirmək üçün rubrik və onun səviyyələrinə uyğun indikatorlar hazırlamaq bacarığına yiyələnməsini və dərsdə istifadə etməsini məqsədəuyğun hesab edirik.

**Nəbi MAHMUDOV,**
*Bakı şəhəri 83 nömrəli məktəb-liseyin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru*

# İnternet əsaslı dərslər



Mədəni inkişafın təməlində tələb durur. Tələb olmasa heç bir iş görülməz və ya inkişaf olmazdı. İnternet texnologiyaları vasitəsilə təhsil də bu sırada özünə yer edə bilmişdir. Günümüzdə kompüter və internetə nə qədər ehtiyac var?

İnkişaf etməkdə olan ölkələrin yeni informasiya əldə etməsində internetin rolu həddən ziyadə mühümdür ki, bu da danılmaz faktdır. İnternet, kompüterlərin və kompüter şəbəkələrinin bir-biriləri ilə böyük bir şəbəkə yaradacaq şəkildə qoşulması nəticəsində meydana gəlmiş və istifadəçilərin qarşılıqlı (chat,video-konfrans, e-mail) və tək yönlü (web səhifələr) əlaqəsinə imkan verən elektron əsaslı virtual aləmdir. İnternet hər kəs tərəfindən istifadə edilməkdədir. Amma hər kəsin təhsil məqsədi ilə istifadə etdiyini demək mümkün deyildir. 1951-ci ildən - ilk iş kompüterlərin inkişafından bu günə qədər pedaqoqlar bu texnologiyanı auditoriyalarda və təhsildə tətbiq etməyin yollarını axtarırlar. İlk kompüter dəstəkli təhsil sisteminin inkişaf işləri 1960-70-ci illərdə ənənəvi təhsilə dəstək məqsədi ilə yaradıldı. 1970-ci ildə iki böyük sistem yaradıldı: PLATO (mərkəzi dərslik kitabxanasına bağlı təhsil şəbəkəsi) və TİCCİT (tələbənin kompüterində dərsə yardım olacaq sistem). Adıçəkilən sistemlər də zaman keçdikcə özlərini doğrultmağı bacarmadılar. Bu sahədə önəmli inkişaf texniki avadanlıqlardan əlavə proqramlaşdırma sahəsində də meydana gəldi. Proqramlaşdırmada ən əsas mərhələlərdən biri Web proqramlaşdırmasıdır. Web 1989-cu ildə yarandı, 1992-ci ildən tanınmağa və internetdə gözlə görülən bir mövqeyə gəlməyi bacardı. İnternet, kompüter şəbəkələrinin şəbəkəsidir. Daim böyüyür, məktəbləri, kitabxanaları, digər şəbəkələri öz təsiri altına salır. Kompüter şəbəkələrinin inkişafı və auditoriyalarda tətbiqi ilə kompüterə əsaslanan təhsilin dövrü, internet dəstəkli təhsil başlayır. İnternet təməlli təhsilin inkişafı ilə təhsil verən, təhsil alan və təhsil qurumları anlayışlarını yenidən müasir standartlara uyğun formalaşdırılması ehtiyacı yarandı. Əsasən də virtual auditoriya anlayışının meydana gəlməsi ilə təhsil verənin-müəllimin dərs mühitində informasiya axtarma funksiyası zəifləyərək yerini düzgün məlumata çatma və bundan istifadə ilə dəyişdirdi. Artıq təhsil alan fərd - tələbə dərs mühitində passiv iştirakçı olmaqdan uzaqlaşaraq qavrama mərhələsində birinci dərəcəli məsul şəxsə çevrilir. Zaman, məkan və sosial-iqtisadi əngəlləri də aradan qaldıran e-təhsil/internet təməlli təhsil şəxslərə ömürboyu təhsil alma üstünlüyünü təqdim etməkdədir. Ənənəvi təhsilin ən güclü tərəfi olaraq qəbul edilən tələbələrin bir-biri ilə, eləcə də müəllimlə üz-üzə tədrisin təşkil edildiyi sosial qarşılıqlı mühitinin virtual aləmə inteqrasiyası internet əsaslı təhsilin ənənəvi təhsilə nisbətdə daha güclü alternativ halına gələcəyini və ona geniş istifadəçi kütləsi tərəfindən çox böyük üstünlük veriləcəyini təsəvvür etmək çətin deyil. Tələbələr baxımından, virtual auditoriya ilə ənənəvi auditoriya arasındakı fərq "dərsdə iştirak etmək-davamiyyət" anlayışının olmasıdır. Ənənəvi təhsildə davamiyyət anlayışı yeni sistemdə özünü məsafədən qoşulma sözü ilə əvəz edir. Tələbələr artıq internet olan bütün məkanlardan öz dərslərində iştirak edə, təhsillərinə qaldıqları yerdən davam edə bilərlər. İnternet əsaslı təhsildən daha effektli şəkildə istifadəni təmin etmək üçün bəzi şərtlər vardır. Bu şərtləri aşağıdakı kimi sıralamaq olar:

- Tələbələrin kompüterdən istifadə bacarıqlarının təkmilləşdirilməsini təmin etmək.
- Tələbə və müəllimlərə internetdə olan faydalı qaynaqları çatdırmaq.
- Çox zaman əldə edilməsi mümkünsüz olan nadir və keçmiş qaynaqların elektron versiyalarının yaradılması və bunlardan istifadəni təmin etmək.
- Tələbə istədiyi zaman məlumata çata bilir. Məkan anlayışı demək olar ki, aradan qaldırılmışdır. Tələbələr və müəllimlər eyni zamanda və məkanda olmaq məcburiyyətində deyillər.

İnternet, kompüteri təhsil avadanlığı formasına gətirib çıxarır ki, müəllimlər də buna uyğun təhsilvermə və qavrama texnikaları yaratmalı və inkişaf etdirməlidirlər.

Əgər öyrənmənin, qavramanın təməli informasiyadırsa, bu məlumatlara bütün internetdə axtarışı təmin etmək üçün İnternet və həmin məlumatları bizə çatdıracaq kompüterlər çox önəm daşıyır. Müasir təhsildə internet və kompüter texnologiyalarından istifadə etmədən irəliləyiş əldə etmək mümkünsüzdür, desək yanılmarıq.

Yeni təhsil forması çox böyük virtual aləm yaradacaqdır ki, bu da virtual mədəniyyətin inkişafına səbəb olacaqdır.

**Həsən İSMAYILOV,**
*Azərbaycan Dövlət İqtisad Universiteti İKT Mərkəzinin böyük mütəxəssisi*

# "Əsas məqsəd tələbələr arasında futbolun kütləviliyini təmin etməkdir"



## Lətif Novruzovun sözlərinə görə, FİFA referiləri də tələbə komandalarının oyunlarını idarə edəcəklər

*Xəbər verdiyimiz kimi, fevralın 22-də ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futbol üzrə VII Respublika çempionatına start verilib. Yarışların gedişi barədə Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin baş katibi Lətif Novruzovla söhbət etdik:*

- Çempionat Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin (ATFF) 2016-2020-ci illərdə fəaliyyət planına əsasən, ATFF və Azərbaycan Futbol Federasiyası Assosiasiyasının təşkilatçılığı, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Sahə Futbol Federasiyasının dəstəyi ilə keçirilir. Burada əsas məqsəd ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futbolun kütləviliyini təmin etmək, beynəlxalq yarışlarda iştirak etmək üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədləri müəyyənləşdirməkdir.

Oyunlar FİFA-nın mövcud qaydaları əsasında keçirilir və AFFA-nın Hakimlər Komitəsi tərəfindən təsdiq edilmiş hakimlər heyəti tərəfindən idarə olunur. Çempionata 39 komanda ilə start verilib.

**- Hazırda yarışların hansı mərhələsinin oyunları keçirilir?**

- İndi biz çempionatın PLAY-OFF(1/8 final) mərhələsindəyik. Bu mərhələdə 16 komanda tərkibində 200-ə yaxın tələbə futbolçu oynayacaq. Oyunların 6-sı Bakı şəhərində, 2-si isə Şirvan şəhərində baş tutacaq. Yarışlar aprelin 1 və 2-də Binə qəsəbə, Milli Aviasiya Akademiyasının stadionlarında və "Neftçi" Təlim Məşq Mərkəzində, regionlar üzrə isə Şirvan Şəhər Olimpiya Kompleksində keçiriləcək. Bu mərhələyə çıxan komandalar sırasında əvvəlki illərdən fərqli olaraq Gəncə Texnologiya Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin təmsilçiləri yer alıblar. Yarışlara aprelin 22-də yekun vurulacaq.

**- Çempionata olan maraq sizi qane edirmi?**

- Sevindirici hal ondan ibarətdir ki, tələbələr arasında idmanın bu növü üzrə kütləvilik ilbəil artmaq üzrədir. Qeyd etmək istərdim ki, builki yarışlarda 39 ali və orta ixtisas təhsili müəssisələrindən 800-dən artıq tələbə futbolçu qeydiyyatdan keçərək yarışlara qatılıb.

AFFA-nın Hakimlər Komitəsi tərəfindən təyin edilmiş hakimlər heyəti tərəfindən idarə olunmaqla yanaşı, finala yaxınlaşdıqca



oyunların çətinliyini nəzərə alaraq PLAY-OFF, yarımfinal mərhələsində FİFA referiləri də tələbə komandalarının oyunlarını idarə edəcəklər.

Ən başlıcası odur ki, Təhsil, Gənclər və İdman nazirlikləri, AFFA-nın rəhbərliyi bizə çempionatın keçirilməsində yaxından kömək edirlər.

Çempionatın finalında I, II və III yerləri tutan komandalar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. Həmçinin təsis edilmiş 5 nominasiya üzrə seçiləcək tələbə futbolçulara xüsusi mükafatlar veriləcək.

**Rəşad ZİYADOV,** *"Azərbaycan müəllimi"*

## Cüdo üzrə birincilik keçirilib




Nardaran qəsəbəsində yerləşən 295 nömrəli tam orta məktəbdə Bakı şəhəri 16 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin cüdo idman növü üzrə 14-17 yaşlı idmançılar arasında açıq birinciliyi keçirilib. Birinciliyin keçirilməsində məqsəd məktəblilər arasında sağlam həyat tərzini təbliğ etmək, şagirdlərin cüdo idman növünə olan marağının artırılmasından ibarət olub.

Açılış mərasimində millət vəkili Dilarə Cəbrayılova, "Təhsil" Respublika İdman Mərkəzinin direktoru Natiq Lahıcov məktəblilərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün təşkil edilən yarışların əhəmiyyətindən danışıblar. Oğlan və qızlar arasında müxtəlif çəki dərəcələri üzrə keçirilən yarışa 120 nəfərə yaxın idmançı qatılıb.

Qaliblər kubok, diplom və medallar ilə təltif olunub.

## "Olimpiya Hərəkatı-2017" davam edir



"Olimpiya Hərəkatı-2017" ("Olympic Moves-2017") idman proqramı çərçivəsində rayondaxili yarışlar davam edir. Rayondaxili yarışlarda Bakı şəhərindən 294, regionlardan isə 112 məktəb olmaqla, ümumilikdə 406 məktəb iştirak edir. Qarşılaşmalar 5 idman növü—voleybol, basketbol, badminton, velosiped yarışı və atletika üzrə keçirilir. Mart ayının əvvəllərindən start götürən rayondaxili yarışlar iyun ayına qədər davam edəcək.

Qeyd edək ki, "Olimpiya Hərəkatı-2017" idman proqramı Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir. Proqramın əsas məqsədi olimpiya idman növlərinin məktəblilər arasında təbliğini aparmaqla, şagirdləri sağlam və aktiv həyat tərzinə cəlb etmək, ümumi təhsil müəssisələrində fiziki tərbiyə fənninə marağı daha da artırmaq, idman federasiyaları və idman məktəbləri arasındakı əməkdaşlığı genişləndirmək, olimpiya idman komplekslərindən səmərəli istifadəni təmin etməkdən ibarətdir.

**ELM XƏBƏRLƏRİ**

## 1 Gbit internet sürətini dəstəkləyən "LTE" modem təqdim edilib

1000 Mbit/s yükləmə sürəti mobil şəbəkələrin inkişafında yeni mərhələdir. Avstraliyanın "Telstra" operatoru artıq dünyada ilk Gbit-lik "LTE" şəbəkəsini istifadəyə verib. "MWC 2017" sərgisində isə bu sürəti dəstəkləyən "ZTE Gigabit Phone" smartfonu təqdim olunacaq. "XMM 7560" adlı yeni "LTE" modemini təqdim etmiş "Intel" korporasiyası da bu bazar uğrunda mübarizə aparacaq. Bu "LTE" modem məlumatları 1 Gbit/s sürətlə yükləyir və 225 Mbit/s sürətlə ötürür. Modem smartfon, planşet, noutbuk və digər mobil qurğularda istifadə edilə bilər.




**www.4pda.ru** saytının məlumatına görə, yeni modem ənənəvi "LTE" şəbəkələrlə müqayisədə daha yüksək sürətə malikdir. Modemin kommersiya qurğularında tətbiq olunma vaxtı haqqında isə hələ ki, dəqiq məlumat verilmir.

## Gözlərin hərəkəti ilə mətn yığmağa imkan verən unikal proqram

ABŞ-ın "Microsoft" korporasiyasının mühəndisləri gözlərin hərəkəti ilə mətn yığmağa imkan verən unikal proqram hazırlayıblar. Yeni proqram fiziki imkanları məhdud olan insanlara ünsiyyət qurmaqda kömək göstərmək üçün nəzərdə tutulub.

**www.runews24.ru** saytının məlumatına görə, məhsulun yaradılması zamanı "Microsoft" mühəndislərinə ABŞ-ın Vaşinqton Elmi Universitetinin mütəxəssisləri texniki dəstək göstəriblər. "Eye-gaze" adlandırılmış proqram videokameraya smartfon və ya fablet istifadəçilərinin gözlərinin hərəkətini izləməyə imkan verir. Proqram göz bəbəklərinin hərəkət trayektoriyasını yadda saxlayaraq məlumatları virtual klaviaturanın düymələrinə köçürərək modelləşdirə bilir.



Unikal proqramdan istifadə etdikdə mürəkkəb bir cümlənin yığılmasına 1 dəqiqə yarım sərf olunacaq.

## Mobil proqram cinayət haqqında xəbərdarlıq edəcək

Nyu-York sakinləri xüsusi mobil proqram vasitəsilə real vaxt rejimində yaxınlıqda baş verən cinayətlər haqqında bildirişlər almaq imkanı əldə ediblər.

**www.hitech.newsru.com** saytının məlumatına görə, "Citizen" ("Vətəndaş") adlı proqram ötən həftə iOS və Android əməliyyat sistemləri ilə işləyən qurğuların istifadəçiləri üçün əlçatan olub. Bu, 2016-cı ilin payızında istifadəyə verilmiş, lakin sonradan "App Store"dan silinmiş "Vigilante" proqramının yenilənmiş versiyasıdır.

"Citizen" hazırda Nyu-Yorkun 5 rayonunun ərazisində işləyir. Xidmətin əməkdaşları polis və yanğın xidmətinin açıq kanallarını dinləyərək cinayətlərin baş verdiyi nöqtələri xəritədə işarələyirlər. Sonra hadisə yerinin yaxınlığında olan istifadəçilər ünvan və cinayətə dair qısa xəbərdarlıq alırlar. Bunun sayəsində onlar cinayətin təsadüfi qurbanı olmamaq üçün öz yolunu dəyişdirə bilərlər.



Proqram hələ ki, Nyu-York polisinin rəsmi razılığını almayıb. Eyni zamanda xidmətin yaradıcısı, sahibkar Endryu Freym "Citizen" nümayəndələrinin müntəzəm olaraq Nyu-York polisi, şəhər xidmətləri və yerli cəmiyyətlərin bəzi liderləri ilə qarşılıqlı əlaqədə olduqlarını qeyd edib. O, proqramın digər şəhərlərdə də işləməyə başlayacağına ümid etdiyini bildirib.

## Ekranı mexaniki zədələrdən qoruyan maye şüşə hazırlanıb

"Indiegogo" vəsait toplama platformasında maye şüşənin istehsalına vəsait toplanılması kampaniyasına start verilib. "ProtectPax" istənilən şüşə səthini (smartfonun ekranı, planşetlər, eynək linzaları və s.) mexaniki zədələrdən qorumaq üçün nəzərdə tutulmuş tərkibdir. İstehsalçılar mayenin tərkibində istifadə edilmiş texnologiyaların aviasiya və aerokosmik sahələrdə tətbiq olunduğunu iddia edirlər.

**www.hi-tech.mail.ru** saytının məlumatına görə, ekranın səthinə çəkilən qatın qalınlığı 0,0004 mm-dir. Müqayisə üçün bildirək ki, adi qoruyucu şüşələrin qalınlığı 0,3 mm-dir. Bərkimiş tərkib 365 gün ərzində görünməz olur.

Tərkib mexaniki zədələrdən qorumaqla yanaşı, qurğudan istifadə zamanı elektromaqnit şüanın intensivliyini də 92,7 faiz aşağı salır və bakteriyaların 99 faizini neytrallaşdırır. Maye, həmçinin barmaq izlərinin olması barədə xəbərdarlıq edir və suya davamlıdır.

Kameranı qoruyan şüşəyə bu tərkibi sürtdükdə çəkilişin keyfiyyəti yaxşılaşır və ekranın



reaksiya qabiliyyəti artır. "ProtectPax"ı ekranın səthinə çəkmək üçün onu salfetlə təmizləmək və tərkibi üzərində yaymaq lazımdır. Səthə bu tərkibdən çəkdikdən 10 dəqiqə sonra o öz təsirini göstərir.

**www.ikt.az saytının materialları əsasında hazırladı: Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*

## Mərkəzi İncəsənət Məktəbinin şagirdi beynəlxalq müsabiqədə birinci yeri tutub

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin vokal ixtisası üzrə IX sinif şagirdi Lalə İbrahimova Estoniyanın Kotla-Yarva şəhərində keçirilən XII Beynəlxalq Akademik vokal üzrə müsabiqədə ölkəmizi layiqincə təmsil edib.

Mədəniyyət və Turizm Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müsabiqə 4 kateqoriya üzrə 2 turdan ibarət olub. Hər iki turda uğurlu çıxışların nəticəsi olaraq Lalə İbrahimova III yaş kateqoriyası üzrə laureat adı qazanıb. Tallin şəhərində laureatların qala-konsertində də o, uğurla çıxış edib. Azərbaycan diasporasının nümayəndələrinin də iştirak etdiyi konsertdə L.İbrahimovaya diaspora adından xüsusi hədiyyələr təqdim olunub.

## Praqada Azərbaycan haqqında fotosərgi açılıb

Praqada Bakı Dövlət və Karl universitetlərinin biologiya fakültələrinin əməkdaşlığının 45 illiyinə həsr edilmiş Azərbaycan haqqında fotosərgi açılıb. Praqanın məşhur Karl Universitetinin biologiya fakültəsinə məxsus Botanika bağında açılan fotosərgi hər iki universitetin biologiya fakültəsinin təşkilatçılığı və Azərbaycanın Çexiyadakı səfirliyinin töhfəsi əsasında təşkil edilib. Sərgi bir həftə davam edib. Azərbaycanın Çexiyadakı səfiri Fərid Şəfiyev sərgidə Azərbaycan təbiətinin gözəlliklərini əks etdirən fotoşəkillərlə tanış olub. Sərginin təşkilatçıları ilə görüşən diplomat səfirliyin tədbirin keçirilməsinə verdiyi töhfədən və universitetlərimiz arasında çox yaxın əməkdaşlıq əlaqələrinin qurulmasından məmnunluğunu ifadə edib.

Azərbaycanın flora və faunası, milli təbiət qoruqları, ölkəmizin təbiətinin əsrarəngiz zənginliklərini ehtiva edən fotoların nümayiş olunduğu sərgi qonaqların marağına səbəb olub.

**AZƏRTAC**

## "Alternativ enerji mənbələri" mövzusunda elmi-praktik seminar



Martın 28-də Bakıdakı 247 nömrəli tam orta məktəbdə fizika müəllimi Gülarə Xeyrullazadənin rəhbərliyi altında siniflərarası əməkdaşlıq çərçivəsində "Alternativ enerji mənbələri" mövzusunda elmi-praktik seminar keçirilib. Seminarda VIII və XI sinif şagirdləri iştirak ediblər.

Əvvəlcə şagirdlər alternativ enerji mənbələri haqqında hazırladıqları materialları təqdim ediblər. Onlar ölkəmizin yerləşdiyi əlverişli coğrafi şərait, dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi respublikamızda da olan alternativ enerji mənbələri haqqında geniş məlumat veriblər. Qeyd olunub ki, alternativ enerji təbiətin çirklənməsinin qarşısını almaq məqsədi ilə işlənən enerji çeşidlərinin ümumiləşmiş adıdır. Alternativ enerji daha çox gələcəyə yönələn perspektiv sahədir. O bu gün çox yayılmasa da ətraf mühiti təmiz saxlamaq və iqtisadi səmərəlilik baxımından əlverişlidir.

Seminar iştirakçıları XI sinif şagirdi Ramiz Mirzəzadənin hazırladığı suyun mexaniki enerjisini elektrik enerjisinə çevirən, atmosferi çirkləndirməyən cihazla da tanış olublar və bu cihaz haqqında ona müxtəlif suallar veriblər.

Sonda şagirdlər bildiriblər ki, respublikamızın enerjiyə olan tələbatını ödəmək üçün müxtəlif alternativ enerji mənbələri tapılmalı və bu mənbələrdən dinc məqsədlər, əhalinin rifahı üçün istifadə edilməlidir.

**Rəşad ZİYADOV,** *"Azərbaycan müəllimi"*

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

| | |
|---|---|
| **Baş redaktor** Nurəddin Heydərov | n.heydarov@media.edu.az 538-21-66 |
| **Baş redaktor müavini** Sarvan İbrahimov | s.ibrahimov@muallim.edu.az 538-21-55 |
| **Məsul katib** Elman Əbdülov | e.abdulov@muallim.edu.az 510-68-73 |
| **Elm və təhsil şöbəsi** Yusif Əliyev | y.aliyev@muallim.edu.az 538-51-41 |
| **Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev | o.mustafayev@muallim.edu.az 538-67-41 |
| **İnformasiya şöbəsi** Niyazi Rəhimov | n.rahimov@muallim.edu.az 538-66-05 |
| **Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova | s.kerimova@muallim.edu.az 539-19-74 |
| **Məktublar şöbəsi** Şakir Cəfərov | sh.cafarov@muallim.edu.az 539-64-00 |
| **Mühasibatlıq** | 539-67-74 |
| **Kompüter mərkəzi** | 539-07-98 |
| **Reklam və elanlar** | 539-20-77 (tel./faks) |

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6236, **Sifariş** 878

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Bakı şəhər** 74 nömrəli tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Osipova Yelena Arsenovnaya verilmiş 352179 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Saray qəsəbə 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Zamanlı Cavidan Bağman oğluna verilmiş 368638 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 76 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Rüstəmov Əmirhüseyn Şahsuvar oğluna verilmiş A-159036 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2002-ci ildə Quliyev Araz Almaz oğluna verilmiş A-117097 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** (indiki ADNSU) tərəfindən 1989-cu ildə Qurbanov Samir Telman oğluna verilmiş PB-038287 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1998-ci ildə Əliyeva Mehriban Hidayət qızına verilmiş AB-I-072178 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Cəfərova Leyla Gürzalı qızına verilmiş B-304609 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2016-cı ildə İsmayılov Muxtar İnqilab oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2011-ci ildə Qafarlı Aysel Namiq qızına verilmiş AA-006227 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Adıgözəlov Amil Müzadil oğluna verilmiş A-279227 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki Tibb Məktəbi** tərəfindən 2000-ci ildə Məmmədova (Mahmudova) Xatirə Fikrət qızına verilmiş AB-II-039993 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** Səfərli kənd tam orta məktəbi tərəfindən 1996-cı ildə Hüseynova Kəmalə Məhəmməd qızına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2001-ci ildə Hüseynova Kəmalə Məhəmməd qızına verilmiş A-076422 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 11 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Abasquliyev Məhəmməd İsmayıl oğluna verilmiş A-137352 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2010-cu ilıdə Rəhimov Hidayət Rafail oğluna verilmiş B-198006 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Həmzəyeva Aytac Həmzə qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2014-cü ildə Məmmədova Samirə Qurban qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayonu** 9 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Dəmirova Xanım Gülsafa qızına verilmiş A-416003 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Qabilova Səadət Əlibala qızına verilmiş A-251270 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 73 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Camalov Tural Qəhrəman oğluna verilmiş B-255040 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti** tərəfindən 2008-ci ildə Hüseynova Süsən Fəxrəddin qızına verilmiş B-126014 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2013-cü ildə Qaragözlü Sitarə Mübariz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Musazadə Qənirə Elçin qızına verilmiş A-102531 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Bədəlli Nərmin Əbülfət qızına verilmiş A-102507 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Əsədova Mahrux Teyyub qızına verilmiş A-197391 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş İmanova Ellada Ramiz qızına verilmiş B-075838 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 57 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Abdinov Nurlan Əli oğluna verilmiş A-311026 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Qıraqlı kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş (Şıxıyeva) Bayramova Vüsalə Elçin qızına verilmiş B-305103 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1983-cü ildə Məmmədova Qənirə Əsgər qızına verilmiş ИВ-046788 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə İsayeva Hürüy Hacı qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2016-cı ildə Muradov Füzuli Nizami oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəki Pedaqoji Texnikumu** tərəfindən 2005-ci ildə Feyzullayeva İlahə Səməd qızına verilmiş BB-II-021941 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Cəfərova Aynur Bəxtiyar qızına verilmiş B-261415 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetinin** Qazax filialı tərəfindən 2016-cı ildə İsmayılova Nübar Rza qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayonu** 56 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şirinova Mələk İsgəndər qızına verilmiş B-329309 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayonu** 117 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova Elnarə Məhəmməd qızına verilmiş B-214510 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Aslanov Zamir Rəfi oğluna verilmiş A-499440 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 2013-cü ildə Abbasov Pənah Əqil oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Vaqo kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Əliyev Elnur Novruz oğluna verilmiş A-388866 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universitetinin** nəzdində Məktəb-Lisey Kompleksini 2011-ci ildə bitirmiş Həsənov Toğrul Həbib oğluna verilmiş 005207 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 10 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Rüstəmli Rüfət Nazim oğluna verilmiş A-204777 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Asiya Universiteti** tərəfindən 2015-ci ildə Bayramov Zahid Vasif oğluna verilmiş A-054496 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bayramova (Cavadova) Güldəstə Yadulla qızına verilmiş B-180817 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1982-ci ildə Orucov Asif Oruc oğluna verilmiş ИВ-021406 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 2015-ci ildə Rzalı Ülvi Oktay oğluna verilmiş A-057078 nömrəli fərqlənmə diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Texnikumu** tərəfindən 1991-ci ildə Nuriyeva (Quliyeva) Səidə Əkbər qızına verilmiş HT-I-576215 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Məmmədzadə Nəzrin Namiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Yeni şərif kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Dibirov Natiq Ramazan oğluna verilmiş A-579389 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Qaysa kənd tam orta məktəbinin IX sinfini 2007-ci ildə bitirmiş Ramazanova Mədinə Ramazan qızına verilmiş A-499809 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əfəndiyev Rəvan Qaçar oğluna verilmiş A-500572 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** M.Ələkbərov adına tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Tağıyeva Sara Hidayət qızına verilmiş 634471 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2014-cü ildə Əlili Fatimə Canbulad qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Əlizadə-Nami Ruslan Məlik oğluna verilmiş A-047783 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayonu** Hamarkənd kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Hüseynov Aydın Hüseynağa oğluna verilmiş A-039750 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 4 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Mirili Azər Adil oğluna verilmiş A-412811 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2005-ci ildə Xəlilova Aynurə Əlisahib qızına verilmiş BB-II-024982 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Namazov Vidadi Yaqub oğluna verilmiş B-103133 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Dillər Universitetinin elmi işlər üzrə prorektoru, professor

**DÜNYAMİN YUNUSOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər Təhsil İdarəsinin əməkdaşları və Gəncə şəhər pedaqoji kollektivi İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbin sabiq direktoru, respublikanın əməkdar müəllimi

**MÜSƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 18 nömrəli tam orta məktəbin direktoru və pedaqoji kollektivi məktəbin müəllimi Tamilla Borçalı-Əsgərsoya həyat yoldaşı

**BƏBİRXAN BORÇALI-ƏSGƏRSOYUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 102 nömrəli tam orta məktəbin direktoru Mailə İsmayılova və pedaqoji kollektivi məktəbin ingilis dili müəllimi Gülnarə Həsənzadəyə anası

**GÜLARƏ HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 18 nömrəli tam orta məktəbin direktoru və pedaqoji kollektivi məktəbin müəllimi Şəhla Əliyevaya atası

**TAREL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 18 nömrəli tam orta məktəbin direktoru və pedaqoji kollektivi məktəbin müəllimi Gültəkin Qayayevaya anası

**GÜLÖVŞƏ QAYAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Şahanə Əhmədova və kollektivi müdir müavini Güloğlan Bağırova əzizi

**VAHABIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# İNGİLİS DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – South America (Brazil)

by Russell Evans

### Activity 1

Before you read, decide which word or words go with which meaning.

| | | |
|---|---|---|
| **a.** dust devil | **b.** knot | **c.** knotted |
| **d.** string | **e.** tease | **f.** untie |

1. ……….. is something you can use to tie things together.
2. If something is ……….. it has knots in it.
3. If you ……….. someone, you upset them by playing a trick on them.
4. To wear a tie with your shirt, you have to put it around your neck and make a ……….. .
5. When wind goes around quickly in a circle, we call it a ……….. .
6. You ……….. your shoelaces before you take your shoes off.

### The legend of Saci

**A** When things go wrong in your life, who do you blame? Is it just bad luck, or do you blame yourself or someone else? Well, if you live in Brazil, the chances are that you will blame Saci. If you've burned your dinner, Saci did it. If your dogs wake you up in the middle of the night, Saci was teasing them. If you've lost your keys, Saci took them. Saci just loves to play tricks on people and make things go wrong.

**B** Saci is a little boy aged between 10 and 13 years, and he has very dark skin. He only has one leg, and he wears a little red cap which smells very bad. He smokes a pipe and he has holes in his hands! Saci has magic powers and he gets his power from his little red cap. He can use his cap to make himself appear and disappear. But although he only has one leg, he is also very fast. He's good at riding horses, and when he dances, he makes dust devils appear. When he wants, he can change into a bird.

**C** If you are unlucky, you may find Saci following you. The best thing to do is cross over a stream or throw a piece of knotted string on the ground. Saci loses his powers if he crosses water, and if he sees knotted string, he has to stop to untie the knots. You can also try to take his hat so he can't do any more magic. But be careful! People say his cap smells so bad you may never get rid of the smell!

### Activity 2

The text has three paragraphs, A to C. Which paragraph has information about the following things?

1. a country in South America
2. advice for escaping from Saci
3. examples of things going wrong at home
4. special abilities
5. what Saci looks like

### Activity 3

Decide if the following sentences are true or false, depending on the information in the text.

1. Brazilians blame themselves when things go wrong.
2. Saci can't move quickly because he only has one leg.
3. Saci likes teasing people.
4. Saci's special powers come from his pipe.
5. A bad smell may stay with you if you steal his cap.
6. You can stop Saci if there is a river nearby.



© Hannah Eaton/British Council

### Activity 4

Look at these sentences from the story. There are two clauses in each sentence. Each clause has a subject and a verb. One clause starts with ***if***, and the other clause starts after the comma.

*If you've burned your dinner, Saci did it.*
*If your dogs wake you up in the middle of the night, Saci was teasing them.*
*If you've lost your keys, Saci took them.*
*If you are unlucky, you may find Saci following you.*
*… if he sees knotted string, he has to stop to untie the knots.*

These are conditional sentences. The form is **If + Clause A, Clause B.**

Match each **Clause A** with the correct **Clause B** to make conditional sentences.

| Clause A | Clause B |
|---|---|
| **1.** If you miss your train, | **a.** Saci blew it! |
| **2.** If you can't find your wallet, | **b.** Saci broke it! |
| **3.** If you find a fly in your soup, | **c.** Saci played with them! |
| **4.** If you buy some eggs but they are broken, | **d.** Saci has got it! |
| **5.** If your golf ball moves just before you hit it, | **e.** Saci made it go early! |
| **6.** If your car stops working, | **f.** Saci put it there! |

### Activity 5

When things go wrong in your country, who do you blame? Do you have a creature like Saci in your culture?

### Answers

**Activity 1**
1. d; 2. c; 3. e; 4. b; 5. a; 6. f

**Activity 2**
1. A; 2. C; 3. A; 4. B; 5. B

**Activity 3**
1. False
2. False
3. True
4. True
5. True
6. True

**Activity 4**
1. e; 2. d; 3. f; 4. c; 5. a; 6. b

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017